RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 72 (10092) 28 aprel 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Əməkdaşlığımızın çox güclü siyasi təməli var

### Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycanda işgüzar səfərdə olub



Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycanda işgüzar səfərdə olub. AZƏRTAC xəbər verir ki, aprelin 25-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə təkbətək və geniş tərkibdə görüşləri keçirilib.

Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski mətbuata bəyanatlarla çıxış ediblər.

2



## İlham Əliyevin qlobal barış missiyası

### "Sülh və Barışıq üçün Gernika mükafatı" Azərbaycan Prezidentinin sülh gündəliyinə beynəlxalq etimadın təsdiqi oldu

26 aprel tarixində - bəşəriyyət üçün ağır xatirələrlə yüklənmiş Gernika qurbanlarının anım günündə Prezident İlham Əliyevin "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi tarixi ədalətin və humanizmin təntənəsidir. Bu mükafat Azərbaycanın 30 illik işğala son qoyaraq regionda yaratdığı yeni reallığa, yəni barışığa verilən qiymətdir.

"Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına müraciətində Prezident İlham Əliyev bildirib ki, Gernika faciəsinin tarixi yaddaşını yaşatmaq, sülh və barışıq proseslərində töhfəsi olan insanları tanıtmaq məqsədi daşıyan bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir: "Hesab edirəm ki, dinc insanlara qarşı istənilən cinayət bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlir. Gernika şəhərinin bu ağrı-acısını bölüşür, qurbanların əziz xatirəsini dərin ehtiramla yad edirəm".

Dövlətimizin rəhbəri Azərbaycan xalqının sülhün qədrini necə dərindən bildiyini bu sözlərlə ifadə edib: "30 ilə yaxın müddət ərzində münaqişə şəraitində yaşamış Azərbaycan xalqı sülhün və barışığın dəyərini çox yaxşı anlayır. Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu, bizim üçün yeni və qeyri-adi bir hissdir".

8

## Azərbaycan nefti Çexiyanın enerji balansında önəmli yer tutur

### Çex Respublikasının Baş naziri Andrey Babiş Azərbaycana rəsmi səfər edib



Aprelin 26-da Çex Respublikasının Baş naziri Andrey Babiş Qəbələ Beynəlxalq Hava Limanında qarşılanıb.

Çex Respublikasının Baş naziri Andrey Babişin rəsmi qarşılanma mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çex Respublikasının Baş naziri Andrey Babişlə Qəbələdə təkbətək və geniş tərkibdə görüşü olub.

Həmin gün İlham Əliyev və Andrey Babiş mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyevin və Çex Respublikasının Baş naziri Andrey Babişin iştirakı ilə Azərbaycan-Çexiya biznes-forumu keçirilib.

Daha sonra dövlət başçısı İlham Əliyevin adından Çex Respublikasının Baş naziri Andrey Babişin şərəfinə rəsmi lanç verilib.

3-4

## Azərbaycan xalqı sülhün və barışığın dəyərini çox yaxşı anlayır

### "Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına

Hörmətli dostlar!

Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyim səylərə görə "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməyim ilə əlaqədar Gernika-Lumo və Pforshaym şəhər Şuralarına, Gernika Sülh Muzeyinə, Mədəniyyət evinə və "Gernika Qoqoratuz" Sülh Araşdırmaları Mərkəzinə dərin minnətdarlığımı ifadə edirəm.

Gernika faciəsinin tarixi yaddaşını yaşatmaq, sülh və barışıq proseslərində töhfəsi olan insanları tanıtmaq məqsədi daşıyan bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir. Bu mükafatın 26 aprel - Gernika qurbanlarının anım günündə təqdim olunması xüsusi rəmzi məna daşıyır. 89 il əvvəl Gernikada dinc əhaliyə qarşı törədilmiş amansız cinayət ötən əsrin ən dəhşətli və qanlı səhifələrdən biridir. Hesab edirəm ki, dinc insanlara qarşı istənilən cinayət bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlir. Gernika şəhərinin bu ağrı-acısını bölüşür, qurbanların əziz xatirəsini dərin ehtiramla yad edirəm.

Gernika şəhərinin tarixindən irəli gələn sülh və barışıq mesajı bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Müharibələrin acı nəticələrini yaşamış xalqların xatirəsi və təcrübəsi gələcək nəsillərin daha sabit və təhlükəsiz dünyada yaşaması üçün mühüm dərs olmalıdır.

30 ilə yaxın müddət ərzində münaqişə şəraitində yaşamış, müharibənin ağır fəsadları ilə üzləşmiş Azərbaycan xalqı da sülhün və barışığın dəyərini çox yaxşı anlayır. Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu, bizim üçün yeni və qeyri-adi bir hissdir. Çünki müstəqilliyimizi bərpa edəndən bəri biz bu hissi yaşamamışdıq.

2025-ci ilin avqustunda Vaşinqton şəhərində baş tutmuş tarixi Zirvə Görüşündə Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətni paraflanmış, eyni zamanda Birgə Bəyanamə imzalanmışdır. Bununla da üç onillik ərzində davam edən münaqişə tamamilə sona çatmış, xalqlarımız üçün sülhün, barışığın, qarşılıqlı tərəfdaşlıq dövrünün əsası qoyulmuşdur.

Hazırda Azərbaycan bu yeni reallığa və sülh mühitində yaşamağa uyğunlaşır. Ümumi müsbət atmosfer, sabitliyə və təhlükəsizliyə daha çox inam bizi irəliləməyə və inkişaf gündəliyimizə daha çox vaxt və resurs ayırmağa imkan verir. Biz eyni zamanda sülhü möhkəmləndirmək və onu əməli fəaliyyətə çevirmək üçün addımlar atırıq və artıq hər iki cəmiyyətimiz sülhün iqtisadi, ticari və digər sahələrdə real faydalarının şahidi olur. Bu gün artıq Azərbaycanın neft məhsulları, üçüncü ölkələrdən taxıl və digər məhsullar ölkəmizin ərazisindən keçməklə Ermənistana ixrac edilir.

İki ölkə arasında etimad quruculuğu tədbirləri davamlı sülhün bərqərar olmasında mühüm rol oynayır. Dövlət səviyyəsində atılan addımlarla yanaşı, vətəndaş cəmiyyətinin nümayəndələri arasında mütəmadi görüşlər bu prosesə müsbət töhfəsini verir.

Azərbaycanın və Ermənistanın nümunəsi göstərir ki, uzunmüddətli münaqişəyə, iztirablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, güclü siyasi iradə və beynəlxalq dəstək mövcud olduqda sülh əldə etmək mümkündür.

Hörmətli dostlar!

"Sülh və Barışıq üçün Gernika mükafatı" yalnız artıq əldə olunmuş nailiyyətlərin tanınması deyil, həm də beynəlxalq birliyin ortaq rifahı, sülh naminə atılacaq gələcək addımlar baxımından mühüm ruhlandırıcı stimul və məsuliyyətdir.

Bu mükafata görə bir daha təşəkkürümü ifadə edir, sülh, dialoq və qarşılıqlı anlaşmanın təşviqi istiqamətində fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Prezident İlham ƏLİYEV: "Vaşinqtonda baş verən atışma məni dərindən sarsıtdı"

**Vaşinqtonda keçirilən Ağ Ev Müxbirləri Assosiasiyasının şam yeməyində baş verən atışma məni dərindən sarsıtdı.**



Ilham Aliyev
@presidentaz

Deeply disturbed by the shooting at the White House Correspondents' Dinner in Washington, D.C. Such acts of violence are unacceptable and must be firmly condemned.

Relieved that President Trump, the First Lady, and all attendees are safe. Wishing them continued safety and well-being. @WhiteHouse

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "X" sosial media hesabındakı paylaşımında bildirib.

"Belə zorakılıq halları qəbuledilməzdir və qəti şəkildə pislənməlidir. Prezident Trampın, birinci xanımın və bütün iştirakçıların təhlükəsiz olması sevindiricidir. Onlara davamlı təhlükəsizlik və rifah arzulayıram", - deyə dövlətimizin başçısı vurğulayıb.

## Prezident İlham ƏLİYEV: "Azərbaycan-Çexiya iqtisadi əməkdaşlığını şaxələndirmək üçün böyük potensial var"

**"Baş nazir Andrey Babiş, rəsmi səfəriniz və bu gün Qəbələdə apardığımız konstruktiv müzakirələrə görə Sizə minnətdarlığımı bildirirəm. Bunun Aİ hüdudlarından kənara ilk rəsmi səfəriniz olması ikiqat şərəfdir. Bizim sıx siyasi münasibətlərimiz mövcuddur və bugünkü fikir mübadiləsi bir daha Azərbaycan-Çexiya əlaqələrinin daha da dərinləşdirilməsinə olan ortaq sadiqliyimizi təsdiqlədi".**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "X" sosial media hesabındakı paylaşımında bildirib.

"Ticarət dövriyyəmiz yüksək səviyyədə olsa da, iqtisadi əməkdaşlığımızı daha da inkişaf etdirərək şaxələndirmək üçün böyük potensial var. Səfər çərçivəsində keçirilən və işgüzar icmalarımızın nümayəndələrini bir araya gətirən biznes-forum bu istiqamətdə mühüm addımdır. Biz birgə hökumətlərarası iqtisadi komissiyanın səviyyəsini yüksəltmək qərarına gəldik ki, bu da xüsusilə enerji, sənaye və digər əsas sektorlarda daha effektiv koordinasiyaya töhfə verəcəkdir. Həmçinin müdafiə sənayesindəki əməkdaşlığımızı yüksək qiymətləndiririk və onun daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlər görürük. Sizin Çex Respublikasına səfər etmək təklifinizi məmnuniyyətlə qəbul edirəm və bir daha dostluğunuza və tərəfdaşlığınıza görə sizə təşəkkür edirəm", - deyə dövlətimizin başçısı vurğulayıb.

## Azərbaycanın mühüm logistika mərkəzi kimi əhəmiyyəti artır

Dünya ticarətində yüklərin avtomobillə daşınmasının payı yüksəkdir. Azərbaycanda isə beynəlxalq standartlara cavab verən magistral avtomobil yolları var. Elə Çinin Azərbaycandakı səfiri Lu Meyin ölkəsinin Azərbaycan üzərindən avtomobillə yükdaşımaların həcmini artırmağı hədəfləməsini bildirməsinin də səbəbi budur.

Çin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM, Orta dəhliz) ötürmə qabiliyyətinin artırılması üçün tərəfdaş ölkələrlə əməkdaşlığı davam etdirəcək. ÇXR eyni zamanda Azərbaycanla avtomobil yükdaşımaların həcmini artırmağa çalışır.

11



◆ Ukrayna Prezidenti Volodimir Zelenskinin Azərbaycana işgüzar səfəri

# Əməkdaşlığımızın çox güclü siyasi təməli var

## Qəbələdə Azərbaycan Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti ilə təkbətək və geniş tərkibdə görüşü olub

**Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycanda işgüzar səfərdə olub.**

AZƏRTAC xəbər verir ki, aprelin 25-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə təkbətək və geniş tərkibdə görüşləri keçirilib.

Söhbət zamanı dövlətimizin başçısının Volodimir Zelenski ilə əvvəlki görüşləri məmnunluqla xatırlandı, Ukrayna Prezidentinin ölkəmizə bu səfərinin ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminlik bildirildi. Əməkdaşlığın bir çox istiqamətdə, o cümlədən enerji sahəsində genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı, kənd təsərrüfatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu, Hökumətlərarası Komissiyanın fəaliyyətinə toxunuldu.





Ölkəmizin Ukraynaya humanitar dəstəyini, eyni zamanda Azərbaycan dövləti tərəfindən ukraynalı uşaqlara olan diqqət və qayğını yüksək qiymətləndirən qonaq bütün bunlara görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Tezliklə bir qrup ukraynalı tələbənin reabilitasiya məqsədilə, həmçinin Azərbaycanın mədəniyyəti və incəsənəti ilə tanış olması üçün ölkəmizə səfərinin nəzərdə tutulduğu vurğulandı.

## Azərbaycan və Ukrayna prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər







**Aprelin 25-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident, hörmətli qonaqlar.

Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Bizim Sizinlə görüşlərimiz müntəzəm xarakter daşıyır. Son dörd il ərzində bu, bizim yeddinci görüşümüzdür. Son görüşlər beynəlxalq təşkilatların toplantıları çərçivəsində baş vermişdir. Ancaq mən xatırlayıram ki, Siz Prezident kimi Azərbaycana ilk dəfə 2019-cu ildə gəlmisiniz. Bizim şəxsi münasibətlərimiz də o vaxtdan başlayır və bu gün də uğurla davam edir. Mən 2022-ci ilin yanvarında Kiyevə səfərimi də xatırlayıram. Sizinlə apardığımız fikir mübadiləsi və ondan sonrakı təmaslar Ukrayna-Azərbaycan əlaqələrini daha yüksək səviyyəyə qaldırmışdır.

Əməkdaşlığımızın çox güclü siyasi təməli vardır. 2008-ci ildə Kiyevdə, 2011-ci ildə Bakıda strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır və bunlar çox güclü siyasi sənədlərdir. O sənədlərdə ölkələrimizin qarşılıqlı olaraq ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı məsələləri öz əksini tapmışdır. Azərbaycan və Ukrayna bütün beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq ölkələrin suverenliyini, ərazi bütövlüyünü dəstəkləyir və dəstəkləyəcəkdir.

Keçən il iki mühüm hadisə baş vermişdir. Bakıda Xarici İşlər nazirliklərinin məsləhətləşmələri və Hökumətlərarası Komissiyanın iclası keçirilmişdir. Bu gün söhbət əsnasında bu tədbirlərin Ukraynada növbəti dövrdə keçirilməsi haqqında da fikir mübadiləsi aparılmışdır. Bir sözlə, bu gün biz bir çox istiqamətlər üzrə uğurla əməkdaşlıq edirik. Bu əməkdaşlıq bu gün bir daha təsdiqləndi.

Müzakirə olunan məsələlər arasında siyasi dialoqdan başqa, xüsusilə energetika sahəsində əməkdaşlığı qeyd etmək istərdim. Burada həm əldə edilmiş nailiyyətlər var, - SOCAR Ukraynada uzun illərdir ki, uğurla fəaliyyət göstərir, - eyni zamanda çox gözəl perspektivlər, birgə layihələr var. Birgə təşəbbüslər, o cümlədən sərmayə qoyuluşu ilə bağlı məsələlər bu gün ətraflı müzakirə edilmişdir. Təbii ki, ticarət dövriyyəsinin bundan sonra da artırılması məsələləri də gündəliyin mərkəzindədir. Bizim ticarət dövriyyəmiz yarım milyard dolları ötüb. Amma ümid edirəm ki, növbəti illərdə bu rəqəm daha da böyüyəcək. Çünki buna da böyük imkanlar var.

Hərbi-texniki əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı və burada da çox böyük perspektivlər var. Həm Azərbaycanda, həm Ukraynada hərbi sənaye kompleksi inkişaf edir və burada birgə istehsalla bağlı, ümumiyyətlə, sənaye sahəsində birgə istehsalla bağlı çox gözəl imkanlar var. Bu barədə də bu gün ətraflı danışıldı və biz bütün başqa sahələrdə əməkdaşlığımızı dərinləşdirmək istəyirik.

Qeyd etdiyim kimi, son dörd il ərzində prezidentlər səviyyəsində yeddi görüşün keçirilməsi, - sonuncu görüş iki ay bundan əvvəl Münxen şəhərində olmuşdur, - gözəl göstəricidir. Bu, əlaqələrimizin nə qədər dinamik olmasından xəbər verir. Biz bu gün qarşılıqlı hörmətdən, qarşılıqlı maraqların təmin edilməsindən danışırıq. Əminəm ki, bugünkü səfər Azərbaycan-Ukrayna dostluq əlaqələrinin inkişafına növbəti mühüm töhfə olacaqdır.



Bir daha Sizi və bütün ukraynalı qonaqlarımızı səmimiyyətlə salamlayıram.

❖ ❖ ❖

Sonra Ukrayna Prezidenti bəyanatla çıxış etdi.

### Prezident Volodimir Zelenskinin bəyanatı

- Hörmətli cənab Prezident, çox sağ olun.

Mən Sizə təşəkkürümü bildirmək istəyirəm. O cümlədən nümayəndə heyətimizə göstərilən diqqətə görə minnətdaram.

Bizim müxtəlif beynəlxalq platformalarda görüşlərimiz olub. Ötən il görüşlərimizdə qeyd etmişik ki, biz hər zaman bir-birimizi dəstəkləmişik. Mən qeyd etmişəm ki, biz Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini hər zaman dəstəkləmişik, eyni zamanda biz Ukraynaya eyni münasibəti görmüşük.

Əlbəttə ki, müharibə başladıqdan sonra bu, mənim Azərbaycana ilk səfərimdir və mən buraya nümayəndə heyətimlə gəlmişəm. Sizə təşəkkür edirəm.

Bu gün 6 sənəd imzaladıq. Heyətlərimiz birmənalı olaraq onların təfərrüatları ilə bağlı fikir mübadiləsi aparacaqlar. Bu gün sahələrə gəldikdə, birnömrəli sahə təhlükəsizlikdir. Müdafiə sənayesi sahəsində artıma gəldikdə, Ukrayna müharibə şəraitindən irəli gələrək öz müqavimət gücünü göstərdi və biz ekspert biliklərimizi bölüşmək istərdik. Bu gün ekspertlərimiz Azərbaycandadır, onlar azərbaycanlı həmkarlarına dəstək verir. Biz bu tərəfdaşlığı bundan sonra da davam etdirərək birgə istehsala başlayacağıq.

Digər mühüm sahələr var. Əlbəttə ki, bunlar bizim xalqlarımızın, ölkələrimizin təhlükəsizliyinə töhfə verir və sözün əsl mənasında biz istərdik ki, ölkələrimiz arasında bu əlaqələr daha da artsın. Əlavə olaraq, mən cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm ki, bizim tərəfdaşlığımız bu çox sərt qış şəraitində də davam etmişdir. Eyni zamanda əlbəttə ki, biz hava hücumundan müdafiə tədbirlərini görmüşük. Lakin buna baxmayaraq, enerji sahəsində təchizata gəldikdə, belə çox ağır bir dövrdə biz Azərbaycandan 11 yardım paketini almışıq. Biz bu yardıma görə öz təşəkkürümüzü bildiririk. Biz bu haqda xeyli söhbət etdik. Biz həmçinin, cənab Prezident, xüsusi olaraq Sizə təşəkkürümüzü bildiririk ki, bizim uşaqlarımıza kömək edirsiniz. O uşaqlar, övladlarımız cəbhəyanı bölgələrdən gəlirlər. Onlar əzab-əziyyətlərlə üzləşiblər, müharibədən əziyyət çəkiblər. Dəstəyinizə görə təşəkkür edirik. Beş yüzdən artıq ukraynalı uşaq buradadır və bu humanitar dəstəyə görə Sizə minnətdarıq.

Əvvəlcə biz energetika sahəsini müzakirə etdik, əməkdaşlığımıza nəzər saldıq. Bu gün, əslində, nəinki Ukrayna üçün, bütün dünya üçün, Avropa üçün bu, böyük bir çağırışdır. İranla müharibə aparılır. Bizə bu halda etibarlı tərəfdaşlarımız lazımdır. Buna görə Sizə təşəkkür edirik. Biz çox şadıq ki, azərbaycanlı tələbələr əksər hallarda məhz Ukraynanı öz təhsil ocağı kimi seçirlər. Biz buna görə də təşəkkür edirik.

Biz, eyni zamanda sülh sahəsində səyləri müzakirə etdik. Bu, Ukrayna üçün olduqca vacibdir ki, yekun nəticədə müharibəyə son qoyulsun. Əlbəttə, biz bu prosesdə vasitəçilik edən tərəfdaşlara minnətdarıq. Biz Azərbaycan Prezidentinə minnətdarıq. Bizim üçtərəfli və digər formatda danışıqlarımız oldu. Onlardan bəziləri Türkiyədə baş tutdu, daha sonra isə amerikalı tərəfdaşlarımızla Cenevrədə görüşdük və həmçinin istərdik ki, danışıqlarımızı Azərbaycanda aparaq. Bir halda ki, əgər bu diplomatiyanı, həmçinin Rusiya tərəfi də seçərsə.

Cənab Prezident, düşünürəm, müdafiə sənayesinə gəldikdə, təhlükəsizlik elə bir sahədir ki, orada biz çox dərin əməkdaşlıq qura bilərik və çox çalışmalıyıq ki, bu məqsədə nail olaq.

Silahların istehsalına gəldikdə, bu, bizim xalqlarımız üçün sabitlik gətirə bilər. Bizim ölkələrimizin kifayət qədər imkanları var ki, bütün çağırışlarla üzləşərək tab gətirsin. İstənilən bir ölkəni götürsək, hətta nəzəri baxımdan əgər o, təcavüzlə üzləşərsə bilməlidir ki, öz hərbi əməliyyatlarını apararaq özünü müdafiə edə bilsin. Bu baxımdan biz sabitliyə, sülhə gedən yolda Azərbaycana uğurlar arzulayırıq. Eyni arzularımızı biz, həmçinin öz ünvanımıza bildiririk.

Bu gün biz ən çətin, ən ağır müharibə şəraitindəyik. Sizə səmimi deyim, cənab Prezident, mən bir hesabatı gördüm. Rusiya müxtəlif yerlərə yenidən aviazərbələr endirib. Dağıntılar göz qarşısındadır. Onlar dəmir yollarına, enerji infrastrukturuna, mülki təyinatlı obyektlərə hücum çəkirlər. Əfsuslar olsun ki, bu gün artıq bəzi şəxslər öz həyatını itirib və xəsarət alan da var.

Cənab Prezident, Sizə minnətdaram ki, başsağlığı verdiniz. Bütün bu səfəri təşkil etdiyinizə görə Sizə çox təşəkkür edirəm.

❖ ❖ ❖

Daha sonra Azərbaycan və Ukrayna prezidentləri qısa söhbət etdilər.

◆ Çexiyanın Baş naziri Andrey Babişin Azərbaycana rəsmi səfəri

# Azərbaycan nefti Çexiyanın enerji balansında önəmli yer tutur

## Qəbələdə rəsmi qarşılanma mərasimi



**Aprelin 27-də Qəbələdə Çex Respublikasının Baş naziri Andrey Babişin rəsmi qarşılanma mərasimi olub.**



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Çexiyanın Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Çexiyanın Baş naziri Andrey Babişi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Çexiyanın Baş nazirinə raport verdi.

Çex Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Çexiyanın Baş naziri Andrey Babişin qarşısından keçdi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Baş nazir Andrey Babişə, Çexiya nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olundu.

Sonra rəsmi foto çəkdirildi.



## Təkbətək görüş



Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çex Respublikasının Baş naziri Andrey Babişlə təkbətək görüşü keçirilib.

## Geniş tərkibdə görüş



Aprelin 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qəbələdə Çex Respublikasının Baş naziri Andrey Babişlə geniş tərkibdə görüşü olub.

## Azərbaycan Prezidenti İlham Əliyev və Çexiyanın Baş naziri Andrey Babiş mətbuata bəyanatlarla çıxış ediblər



**Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çex Respublikasının Baş naziri Andrey Babiş mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**







### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Baş nazir!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi səmimiyyətlə salamlayıram.

Mən çox şadam ki, cənab Baş nazir bu gün bizim qonağımızdır. Biz üç ay bundan əvvəl Davosda görüşmüşük. Bu, bizim birinci görüşümüz olmuşdur və görüş çox məhsuldar keçmişdir, bir çox məsələlər ətrafında fikir mübadiləsi apardıq. Mən cənab Baş naziri Azərbaycana rəsmi səfərə dəvət etmişəm və şadam ki, bu gün cənab Baş nazir bu səfəri Azərbaycana həyata keçirir. Bu, iki ölkə arasındakı əlaqələrin dinamik şəkildə inkişafını göstərir. Bizim indi çox fəal siyasi dialoqumuz var. Bu gün bir çox məsələlər - həm regional, həm ikitərəfli, həm də daha qlobal xarakter daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İqtisadi sahədə görüləcək işlərlə bağlı konkret təkliflər var. Mən şadam ki, cənab Baş nazirlə birlikdə Azərbaycana Çexiyadan böyük qrup iş adamları gəlmişdir və bu gün keçiriləcək biznes-forumda həm yeni təmaslar qurulacaq, həm də mövcud layihələrlə bağlı fikir mübadiləsi aparılacaq. Bizim çox böyük ümidimiz ondan ibarətdir ki, ticarət dövriyyəmizi daha da yüksək səviyyəyə qaldıraq. Halbuki bu gün də ticarət dövriyyəmiz əhəmiyyətli dərəcədə artmışdır, 800 milyon dollardan çoxdur. Amma əgər biz ticarət dövriyyəsinin strukturuna baxsaq görərik ki, burada əsasən Azərbaycan neftinin ixracı gözə dəyir. Ona görə biz ticarət dövriyyəsinin daha tarazlı olmasını və strukturun təkmilləşdirilməsini arzulayırıq. Ümid edirəm ki, biz buna nail olacağıq. Çünki bu gün həm təkbətək görüşdə, həm heyətlərin iştirakı ilə apardığımız danışıqlarda bir çox konkret iqtisadi və sərmayə yönümlü layihələr müzakirə edilmişdir.

Təbii ki, əməkdaşlığımızın böyük hissəsi energetika sektoruna aiddir. Burada da uzun illər ərzində Çexiya və Azərbaycan çox etibarlı tərəfdaşlardır. Azərbaycan nefti Çexiyaya ixrac edilir və Çexiyanın enerji balansında önəmli yer tutur. Azərbaycan dünya bazarlarına öz enerji resurslarını ixrac edən etibarlı ölkələr sırasındadır. Bunu, o cümlədən Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir və onlardan 10 ölkə Avropa İttifaqının üzvüdür. O cümlədən Azərbaycan Çexiyaya qonşu olan ölkələrə təbii qaz ixrac edir. Təbii ki, bu gün biz bu barədə də danışdıq və bu sahədə gələcək əməkdaşlıq haqqında qərara gəldik. Biz buna daha geniş prizmadan yanaşırıq. Bu, sadəcə olaraq, ticarət əməliyyatları, enerji resurslarının ixracı əməliyyatları olmayacaq. Biz buna daha genişmiqyaslı, uzunmüddətli əməkdaşlıq kimi yanaşırıq.

Bizim ölkələrimiz arasında digər önəmli əməkdaşlıq sahəsi müdafiə sənayesi ilə bağlıdır. Burada da uzun müddət ərzində uğurlu əməkdaşlıq aparılır. Biz Çexiyadan bir çox hərbi təyinatlı məhsullar alırıq və indiki mərhələdə birgə istehsalla bağlı konkret layihələr üzərində danışıqlar gedir. Əminəm ki, bu sahə də çox genişmiqyaslı olacaq. Çünki Azərbaycan öz müdafiə potensialını, o cümlədən yerli istehsal hesabına təmin edir və gələcəkdə bu sahədə böyük təcrübəsi olan Çexiya kimi ölkələrlə bizim müştərək işlərimiz xüsusi önəm daşıyır.

Bu gün bir çox digər sahələr ətrafında fikir mübadiləsi aparıldı. Hökumətlərarası Komissiyanın tezliklə tədbir keçirməsi, yenidən görüşməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır. Yəni bu gün bir daha Çexiya-Azərbaycan dostluğu, əməkdaşlığı öz təsdiqini tapır və bizim qarşımızda çox gözəl perspektivlər açılır.

Cənab Baş nazir, bir daha Azərbaycana xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra Çexiyanın Baş naziri bəyanatla çıxış etdi.

### Baş nazir Andrey Babişin bəyanatı

- Cənab Prezident!

Burada, iqamətgahınızda məni çox səmimiyyətlə qəbul etdiyinizə görə Sizə çox minnətdaram. Bunu həqiqətən yüksək dəyərləndirirəm və mənim üçün böyük şərəfdir. Şadam ki, Davosdan sonra söhbətimizi davam etdiririk.

Burada bəyan edə bilərəm ki, Azərbaycan Çex Respublikasının strateji tərəfdaşıdır. Buna görə məmnunam ki, münasibətlərimiz də dostluğa söykənir. Aydındır ki, Azərbaycan dünyanın diqqət mərkəzindədir. Ukrayna Prezidenti Zelenski burada oldu, sonra Ciorcia Meloni bura səfər edəcək. Bu, sadəcə, gözəl ölkənizin əhəmiyyətini bir daha nümayiş etdirir.

Bu gün keçirdiyimiz görüş çox xüsusi oldu. Əlbəttə, Avropa bu gün enerji haqqında danışır, çünki neftayırma zavodlarına xammal tələb olunur, müxtəlif məhsulların istehsalı üçün təbii qaz lazımdır. Azərbaycan Çex Respublikasında ən iri neft təchizatçısıdır. İdxal edilən neftin 42 faizi Azərbaycandan daxil olur.

Cənab Prezident, biz buraya ÇES adlanan yarıdövlət şirkətimizlə gəlmişik və o, buradan qaz təchizatı ilə bağlı müqavilə imzalamaq istəyir. Siz əsasən hasilatı artıracaqsınız. ÇES şirkətinin baş icraçı direktoru buradadır. O, ən iri qazpaylayıcı şirkətlərdən biri olan ÇES ilə qaz təchizatı haqqında Sizinlə uzunmüddətli müqaviləni gələcəkdə imzalasa, təbii ki, çox məmnun olardı. Beləliklə, Azərbaycan neftdən əlavə, bu sahədə de-fakto bizim strateji tərəfdaşımız ola bilər.

Çox şadam ki, Siz Hökumətlərarası Komissiyanın iclasını keçirməyi təklif etmisiniz və düşünürəm ki, Sizin tərəfdən komissiyaya təyinatı artıq öyrənmişik. Bizim tərəfdən isə Baş nazirin birinci müavini Karel Havliçek olacaq və o, danışdığımız bütün məsələləri əhatə edəcək.

Əlbəttə ki, enerji bizim üçün olduqca vacibdir. Həmçinin vacibdir ki, Avropa anlasın: onun bəzi direktivləri, əslində, qeyri-Avropa təchizatçılarına zərər vurur və Avropada yalnız iki qaz təchizatçısının olması bizim üçün yaxşı deyil. Bir sözlə, biz həmin təchizatda maraqlıyıq və düşünürəm ki, uzunmüddətli müqavilələri imzalamağa hazırıq.

Ən mühüm Çex şirkətləri bizimlədir və bütövlükdə nümayəndə heyətimizdə 50 şirkət təmsil olunub. Əlbəttə ki, bizim Bakı Metropoliteni ilə müqavilənin imzalanmasında çox böyük marağımız var. "ŞKODA Daşımalar" ölkəmizin, bəlkə də ən iri iqtisadi "PPF Qrupu"nun bir hissəsidir. Həmin qrup digər şirkətlərlə yanaşı, birgə müəssisə qurmaq, Azərbaycanda istehsalata başlamaq, elm və tədqiqata sərmayə yatırmaq, universitetlərinizlə əməkdaşlıq etmək və təbii ki, Sizin insanlarınızla işləməyə hazırdır. Bilirik ki, qarşımızda Çin var, lakin biz çox bacarıqlıyıq və bunlar tarixən bizim qanımızdadır. Çexoslovakiya dünyada on ən çox sənayeləşmiş ölkələrdən biri olub və mən əminəm ki, biz bir kapital ola bilərdik. "Çekoslova Qrup" burada artıq fəaliyyət göstərir və əlbəttə ki, birgə müəssisə olaraq biz öz məhsullarımızı istehsal edirik.

"Aero Vodoxodı" şirkəti köhnəlmiş "L-39" təyyarələrinə de-fakto xidmət göstərir və təmir edir. Əlbəttə, biz yeni "L-39NG" təyyarəsini Sizə təqdim edirik və onu dəyərləndirsəniz, çox şad olardıq. "Kolt" şirkəti, sözün əsl mənasında, mühüm beynəlxalq şirkətdir və o, bütün dünyaya əla məhsullarını təchiz edir və şadıq ki, sizin polis və digər qüvvələr həmin məhsulları artıq tanıyır.

Bir sözlə, bu haqda biz bu gün biznes-forumda danışacağıq. Əlbəttə, başqa variantlarımız da var. Siz burada yükdaşımalarında fəal olan şirkətinizi qeyd etdiniz və biz onda təbii ki, maraqlıyıq. Bir faktı da qeyd etdik. Karlovı Varıda yeni layihə haqqında danışdıq və istərdik ki, hava limanı və onun uçuş zolağı genişlənsin. Beləliklə, bu, Çex Respublikasının sərmayə yatıracağımız yeni strateji əhəmiyyətə malik hava limanı ola bilərdi. Nəticədə ölkələrimiz arasında turizmə və inkişafa töhfə ola bilərdi. Bir sözlə, bu gün bir çox məsələləri müzakirə etdik.

Bütün bunlardan çox məmnunam. Çox yaxşı hisslər keçirirəm. Söhbətimiz xüsusi oldu və təbii ki, biz, ümumiyyətlə, dünyadakı vəziyyət haqqında danışdıq. Lakin bu gün buraya iqtisadi münasibətlərimizi sürətləndirməyə və intensivləşdirməyə gəlmişik. Həmin layihələrin sayı çoxdur. Biz hazırıq, sürətli və çevik olacağıq.

Ayırdığınız vaxta, ölkənizə səfər etmək imkanına görə çox minnətdaram. Əla qəbula görə təşəkkür edirəm. Bütün bunları, həqiqətən, yüksək dəyərləndirirəm.

◆ Çexiyanın Baş naziri Andrey Babişin Azərbaycana rəsmi səfəri

# Azərbaycan nefti Çexiyanın enerji balansında önəmli yer tutur

# Qəbələdə Azərbaycan-Çexiya biznes-forumu keçirilib

**Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Baş naziri Andrey Babişin iştirakı ilə Azərbaycan-Çexiya biznes-forumu keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti və Çexiyanın Baş naziri tədbirdə çıxış ediblər.**
**Əvvəlcə Azərbaycan Prezidenti çıxış etdi.**




## Prezident İlham Əliyevin çıxışı

- Günortanız xeyir, xanımlar və cənablar, əziz qonaqlar!

Çox şadıq ki, Baş nazir Babişin rəsmi səfəri zamanı Çexiyanın böyük biznes nümayəndə heyəti onu müşayiət edir. Bu, biznesin birgə aparılmasında qarşılıqlı marağın çox aydın işarəsidir. Adətən, işgüzar dairələr öz qərarını layihənin gəlirliyi ilə bağlayır, lakin eyni zamanda bir çox məsələlər hüquqi əsaslar və siyasi ölçülərdən asılı olur.

Beləliklə düşünürəm ki, bu gün Çexiya və Azərbaycan liderləri özlərinin işgüzar dairələrinə çox aydın mesaj göndərirlər: ikitərəfli ticarət, sərmayələrdə iştirak etmək, praktiki layihələrə nəzər salmaq və işbirliyinin qurulması yolları haqqında düşünmək vaxtıdır. Fikrimcə, bu gün yüksək səviyyədə qurulan siyasi təmaslar çox güclü siyasi bünövrəni təşkil edir.

Bu gün artıq qeyd olunduğu kimi, biz Baş nazir Babişlə üç ay əvvəl Davosda bir araya gəldik, indi isə burada, Qəbələdə görüşürük. Bir sözlə, bu, həqiqətən göstərir ki, hər iki tərəf müxtəlif sahələrdə tərəfdaşlığın möhkəmləndirilməsində çox maraqlıdır. Bu gün siyasi gündəliyin, o cümlədən regional və qlobal siyasi gündəliyin bir çox mühüm məsələləri ilə yanaşı, biz, həmçinin biznes imkanları, qarşılıqlı sərmayələr haqqında xeyli danışdıq. Biz konkret layihələrə toxunduq və birmənalı olaraq biznes-forumda bütün həmin məsələlər nəzərdən keçirilir.

Əlbəttə, hüquqi çərçivəyə əlavə, hər hansı sərmayədar üçün potensial sərmayələr sahəsində iqtisadi vəziyyət də vacibdir. Auditoriyanı məlumatlandıra bilərəm ki, Azərbaycanın maliyyə və iqtisadi vəziyyəti sabitdir. Çox illər ərzində, artıq doqquz ildir ki, valyutamız sabitdir. Əslində, məzənnə dəyişməz olaraq qalır. 2017-ci ildən etibarən bir dollar 1,7 manat təşkil edir. Düşünürəm ki, bu, hər hansı yerli və xarici potensial sərmayədar üçün mühüm göstəricidir. Son iyirmi il ərzində Azərbaycana sərmayə kimi 350 milyard ABŞ dolları yatırılmışdır və onun demək olar ki, yarısı xarici tərəfdaşlardan daxil olmuşdur. Bir sözlə, müsbət sərmayə iqlimi, əlbəttə ki, əsas hədəf idi. Çünki aydındır ki, sərmayələr olmasa, heç bir iqtisadiyyat inkişaf edə bilməz, xüsusilə də beynəlxalq gündəliyin qarışıq vaxtlarında.

Biz borcalmanı azaldaraq maliyyə sistemimizin gücləndirilməsinə nail olduq. Əslində, biz xarici borcu aşağı salmaq üçün bir neçə il əvvəl əsas borcalmaları dayandırdıq. Hazırda biz yenidən borcalmaya başladıq, çünki indi xarici borc ÜDM-in cəmi 6,1 faizini təşkil edir.

İnfrastruktur layihələri. Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş sahələrində yenidənqurmaya gəldikdə, görüləsi işlər çoxdur. Beləliklə, biz Dünya Bankı, AYİB, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur və Sərmayə Bankı və digər aparıcı maliyyə təsisatları ilə artıq fəal işə başlamışıq. Məqsəd qarşımızda olan mühüm layihələrin icrasında daha çox dinamika yaratmaqdır. Beynəlxalq təcrübəyə gəldikdə, biz, həmçinin qeyd edə bilərik ki, "Moody's" Reytinq Agentliyi Azərbaycanın kredit reytinqini müsbət proqnozlu sərmayə reytinqi səviyyəsinə qaldırıb. Düşünürəm ki, bütün bunlar Azərbaycana pul vəsaitlərinin qoyulması üçün münasib məkan olması barədə investorlara yaxşı işarədir. Birmənalı olaraq, siyasi sabitlik, sosial sabitlik, təhlükəsizlik, yəni ölkədə işgüzar fəaliyyətlə məşğul olmaq qərarını qəbul edən sərmayədara ilk növbədə lazım olan hər meyar var.

İkitərəfli əməkdaşlığın perspektivlərinə gəldikdə, əvvəlcə bildirmək istərdim ki, biz Avropa İttifaqından ilk kənar ölkəyə - Azərbaycana səfər etdiyinə görə Baş nazir Babişə çox minnətdarıq. Biz bunu dostluq, hörmət əlaməti kimi görürük və bu, həmçinin göstərir ki, həqiqətən hər iki ölkənin bir-birinə ehtiyacı var. Biz Azərbaycandan ardı kəsilməyən neft təchizatı ilə enerji sahəsində artıq yaxşı tərəfdaşlıq qurmuşuq. Bu gün biz təbii qaz sahəsində əməkdaşlığın başlanılması imkanlarını geniş şəkildə müzakirə etdik. Neft, qaz, neftayırma məhsulları, neft-kimya, gübrələr, elektrik enerji, süni zəka, məlumat mərkəzləri böyük potensial əsasında ikitərəfli qaydada hər iki ölkənin fəal işlədiyi bütün digər sahələri əhatə edəcək strateji əməkdaşlığın qurulması məqsədilə həmin məsələlərə geniş perspektivdən nəzər saldıq.

Nəticə verən sahələrdən biri müdafiə sənayesidir. Çexiya müdafiə sənayesi sahəsində özünün çox müasir və etibarlı məhsulları ilə xeyli tanınır. Biz Çexiyanın şirkətləri ilə artıq bir neçə müqavilə imzalamışıq. Hazırda fəaliyyət dairəsini artırmağı və birgə istehsalata başlamağı planlaşdırırıq. Elə danışdığımız zaman heyətlərimiz bunun üzərində işləyir. Bu, istənilən ölkə üçün, xüsusən də müharibə və münaqişələrin yağışdan sonra göbələk kimi artdığı dövrdə çox mühüm sahədir. Hər bir ölkə öz suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını müdafiə etməyə hazır olmalıdır. Bu nöqteyi-nəzərdən düşünürəm ki, biz böyük artım potensialı olan bu sahədə əməkdaşlıq üçün çox güclü əsas qoyduq.

Həmçinin bu gün cənab Baş nazirlə birgə qəbul etdiyimiz qərarlar arasında Birgə İqtisadi Komissiyanın həmsədrliyinin səviyyəsinin nazirlər səviyyəsinə qaldırılması və Birgə Hökumətlərarası Komissiyasının iclasının təşkili də var idi. Yaxşı olardı ki, bu iclas bu il keçirilsin. Birgə Hökumətlərarası Komissiyanın iclası sonuncu dəfə 3 il bundan əvvəl keçirilmişdir. Beləliklə, bir çox məsələlər üzərində iş gedir. Biz bu məsələlərin gedişi barədə xəbərdar edilməliyik, informasiya mübadiləsi aparılmalıdır, biznes ictimaiyyəti istiqamətləndirilməlidir və onlar üçün daha yaxşı mühit təmin edilməlidir.

Ölkəmiz üçün prioritet sayılan sahələrdə Azərbaycana yatırıla biləcək potensial investisiyalara gəldikdə, birinci sahə əlbəttə ki, sənayenin inkişafıdır və birgə istehsaldır. Biz nəqliyyat infrastrukturunun aparıcı istehsalçıları ilə Azərbaycanda birgə müəssisə yaratmaq məqsədilə Çexiyanın çox məşhur olan nəqliyyat sektorunu geniş müzakirə etdik.

Biz Azərbaycanda böyük potensialı olan bərpaolunan enerji sahəsini fəal şəkildə inkişaf etdiririk. Planımız 2032-ci ilə qədər Günəş, külək və hidroelektrik enerjidən 8 giqavat əldə etməkdir və bu, təkcə planlara yox, artıq imzalanmış müqavilələrə əsaslanır. Bunun üçün çoxlu sahə işləri aparılmalıdır. Əlbəttə ki, bu, sahələrdən biri ola bilər.

Bağlantı. Bu gün biz "Şərq-Qərb" nəqliyyat dəhlizinə geniş sərmayə yatırırıq və bu gün ənənəvi təchizat zəncirinin kəsilməsinə, logistika və tranzitlə bağlı problemlərə görə bu dəhlizə heç vaxt olmadığı kimi ehtiyac var. Beləliklə, Azərbaycan Şərqdən Qərbə və əks istiqamətdə, hətta Şimaldan Cənuba və Cənubdan Şimala təhlükəsiz və etibarlı tranziti təmin edir. Biz hər iki dəhlizin kəsişməsində yerləşirik və son illərdə infrastruktura geniş investisiyalar ilə biz bir çox ölkələrə lazım olan bu böyük aktivi artıq yaratmışıq.

Turizm, əlbəttə ki, tərəfdaşlığın önəmli sahəsi ola bilər. Hər iki ölkənin zəngin tarixi, mədəniyyəti, abidələri, təbiəti var. Yeri gəlmişkən, bugünkü forum təkcə Azərbaycanın deyil, daha geniş coğrafiyanın qədim parçası olan bir yerdə keçirilir. Qəbələ əsrlər boyu qədim Qafqaz Albaniyası dövlətinin paytaxtı olub. Bu gün deyərdim ki, Azərbaycanın turizm paytaxtıdır. Biz əlbəttə ki, əlaqələr, xalqlararası təmaslar, mövcud olan, lakin planlarımızı nəzərə alaraq artırmalı olduğumuz hava yolu əlaqəsi üzərində çalışmalıyıq.

Biz həmçinin Azərbaycanın regionda artıq önəmli rol oynadığı hava ilə yükdaşımaları sahəsində potensial əməkdaşlığı müzakirə etdik. Bir çox digər sahələr də var. Əlbəttə ki, qeydlərimizdə bütün məsələləri əhatə etmək mümkün deyil. Lakin mən əminəm ki, biznes dairələri bu gün biznesin qurulması və dostyana mühitin yaradılması üzrə potensiala dair aydın anlayışla bir araya gəliblər. Ümid edirəm ki, Çexiya və Azərbaycandan olan biznes dairələrinin nümayəndələri həm də yaxşı dost olacaqlar. Bu dostluğun təməli bu gün qoyulacaq  və o davam edəcəkdir.

Bir daha, cənab Baş nazir, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra Çexiyanın Baş naziri çıxış etdi.

## Baş nazir Andrey Babişin çıxışı

- Hörmətli cənab Prezident Əliyev, nazir Cabbarov, hörmətli qonaqlar, xanımlar və cənablar!

Ən dinamik ölkələrdən biri olan Odlar diyarı Azərbaycanla əlaqələrin gücləndirilməsinə və yeni üfüqlərin kəşfinə həsr olunmuş Çexiya-Azərbaycan biznes-forumu üçün burada, Qəbələdə olmaqdan böyük şərəf hissi duyuram.

Azərbaycan əlbəttə ki, bizim üçün, Çex Respublikası üçün strateji tərəfdaşdır. Buna görə də Avropa İttifaqına üzv olmayan ölkələr arasında ilk səfərimi məhz buraya edirəm. Biz cənab Prezidentlə Davosda görüşmüşdük, bu səfəri razılaşdırmışdıq və burada olmağımdan şadam və şərəf hissi keçirirəm. Eyni zamanda Sizi Praqada qəbul etmək üçün dəvəti də çatdırıram.

Ölkələrimiz arasında Birgə İqtisadi Komissiyanın təşkil edilməsi ilə bağlı ideya var və bizim tərəfdən bu komissiyaya birinci vitse-premyer cənab Havliçik rəhbərlik edəcəkdir. Hesab edirəm ki, bu komissiya işinə mümkün qədər tez - bu il başlamalıdır ki, biz bütün bu layihələrdə irəli gedə bilək.

Enerjiyə gəldikdə, biz Avropa İttifaqında enerjidən danışırıq. Çex Respublikası bütün liderlərə, komissiyaya və Avropa İttifaqı Şurasına dörd məktub göndərib. Bizim problemimiz var. Bizim problemimiz "yaşıl razılaşma" ilə bağlıdır və bu məsələ bugünkü durumundan fərqli olaraq tamamlanmaq üzrədir. Bununla da ETS1, ETS2 ilə Avropa sənayesi məhv edilir, Avropanın və Avropa vətəndaşlarının həyatlarına zərbə vurulur. İndi isə Hörmüz boğazı ilə bağlı problem yaşayırıq. İndi Avropada xam neft və qaz məsələsi üzə çıxır. Biz buraya enerji ilə bağlı danışıqlar aparmaq üçün də gəlmişik, çünki Azərbaycan Çex Respublikasına xam neftin ən böyük təchizatçısıdır, 42 faiz təchiz olunur. Siz birnömrəli təchizatçımızsınız.

Biz buraya qazın ən böyük paylayıcısı olan ÇES şirkəti ilə gəlmişik və əlbəttə ki, uzunmüddətli əməkdaşlığı, uzunmüddətli müqaviləni, ikitərəfli investisiyaları müzakirə etməyə çox şad olardıq. Siz yeni qaz yataqlarını kəşf edəcəksiniz və əlbəttə ki, bizim bu məsələyə çox böyük marağımız var. Hər ikimiz etibarlı tərəfdaş olduğumuzu bilirik və bizim əməkdaşlığımız qarşılıqlı hörmətə və etibara əsaslanır. 2025-ci ildən indiyədək ticarət dövriyyəsi 1,75 milyard avro təşkil etmişdir və bu, əsasən xam neftin təchizinə görə olmuşdur. Lakin gələcəkdə şaxələndirmə üçün böyük potensial mövcuddur. Məhz buna görə, cənab Prezident, çox önəmli 50 Çex şirkətinin nümayəndələri ilə buraya təşrif buyurmuşam və Sizi bu gün burada bizimlə bir yerdə olan bu konkret şirkətlərlə tanış etmək istəyirəm. Biz enerji üzrə həllərin tam spektrini təklif edən kurasiyamızda olan bir qrup ixtisaslaşmış şirkətləri bir araya gətirmişik. Bu gün burada təmsil olunmuş şirkətlər arasında ÇES, "Inco Engineering", "Provico", "TTC Marconi", "ZPA Pečky", "ZVVZ Engineering" və ŽDAS var.

İcazə verin, həmçinin müdafiə sektorunda fəaliyyət göstərən bir qrup şirkəti Sizə təqdim edim və Siz artıq onlarla tanışsınız. Çex Respublikası 1939-cü ildə dünyada hərbi avadanlıq və silahların ən böyük istehsalçısı idi. Burada Çexiya və Slovakiya qrupu da təmsil olunur, birgə müəssisələr, investisiyalar, - "L-39NG Aero Vodochody", "CSG Aerospace", "Česká Zbrojovka", "Colt", "Excalibur International", "Explosia", VOP CZ, "Omnipol" və "Livance SRO Meteopress", - biz bu layihələri müzakirə etmişik. Bütün bu şirkətlər Sizin xüsusi ehtiyaclarınıza uyğun hərtərəfli çeşiddə məhsul və inteqrasiya olunmuş həlləri təklif edirlər. Nümayəndə heyətimiz müasir nəqliyyat mühəndisliyində ən yaxşı həlləri təcəssüm etdirir. Bu şirkətlər qatarlar və dəmir yolu texnologiyasından tutmuş, qabaqcıl nəqliyyatı idarəetmə sistemi və "ağıllı" infrastruktura qədər hər şeyi təmin edirlər. Onlar bizə daha da sürətli, təhlükəsiz və dayanıqlı nəqliyyat şəbəkəsini qurmağa kömək etmək üçün buradadırlar. Əlbəttə ki, "ŠKODA Transportation" və  Çexiyada çox önəmli və iqtisadi qrup olan PPF-in üzvü olan ŠKODA şirkətlər qrupunun Bakı metrosunda keçirilən tenderdə uğur qazanması bizi çox şad edərdi. Həmçinin "AŽD Praha", "CZ Loco", "Daco" və "Tatra Export" şirkətləri də burada təmsil olunur. Burada olan bütün bu şirkətlər çox konkret layihələr təqdim ediblər və mən əminəm ki, bizimlə işbirliyi qursanız, bundan çox məmnun qalarsınız.

Həmçinin geologiya və mədən sənayesi sektorunu təmsil edən ixtisaslaşmış "Česká geologická služba və Frẏdlantskė strojirny", TR, SRO şirkətlərini də təqdim etmək mənim üçün şərəfdir. Bu şirkətlər suyun idarəedilməsi və dayanıqlılıq məsələlərində ixtisaslaşmış şirkətlərdir. Burada MEGA, "Chemoprojekt" və maliyyə sektorunda fəaliyyət göstərən "Czech Export Bank", "Exportnỉ garančnỉ a pojišťovacỉ společnost", analitik texnologiyalar və laborator şəbəkə xidmətləri üzrə fəaliyyət göstərən "JTH Holding" şirkətləri də var.

Bu gün müzakirələrimizin təbii ki, sənaye və iqtisadi artıma fokuslanmasına baxmayaraq, biz tərəfdaşlığın texnologiya və ticarətdən daha dərin olduğunu hesab edərək, onun, eyni zamanda mədəniyyəti, təhsili və sosial məsuliyyəti əhatə etdiyini düşünürük. Bu kontekstdə musiqi alətləri üzrə ixtisaslaşmış və ümumdünya miqyasında tanınmış şirkət olan "Petrov"u salamlamaq istəyirəm. Bundan əlavə çox vacib məsələni də Sizin diqqətinizə çatdırmaqdan fərəh hissi keçirirəm. Burada təmsil olunan şirkət və təşkilatlardan bəziləri sosial tərəqqiyə, xüsusilə qadınların cəmiyyətdə və peşəkar sahədə roluna dərindən bağlıdırlar. Bunu nəzərə alaraq, mən Qadın Sahibkarlarının və Menecerlərinin Çexoslovak Moraviya Assosiasiyası olan FCEM-i salamlamağa çox şadam. Bu şirkətlər müvafiq sənayelərin zirvəsini təmsil edərək onilliklər ərzində davam edən Avropa ənənələrini bu gün qlobal bazarları müəyyənləşdirən müasir innovasiyalarla birləşdiriblər. Beləliklə, şirkətlərin siyahısı budur, çox böyük maraq var idi və biz yəqin ki, siyahıya 100 şirkəti əlavə edə bilərdik. Lakin, cənab Prezident, biz düşündük ki, müəyyən seçimlər etməliyik. Beləliklə, bu siyahı Çex şirkətlərinin gözəl ölkənizə və sizinlə iş qurmağa olan marağını əks etdirir.

İndi isə şirkətləri öz təklifləri ilə çıxış etməyə dəvət edirəm. Hesab edirəm ki, bugünkü forum, əlbəttə ki, bizim əməkdaşlığımızı intensivləşdirərək irəli aparacaq və bu bizim üçün çox önəmlidir. Çünki biz əminik ki, şirkətlərimiz əla məhsul və xidmətləri təklif edirlər. Biz birgə müəssisə yaratmağa, insanlarınızı işə götürməyə, tədqiqat və araşdırmaya investisiya yatırmağa, universitetlərlə əməkdaşlıq etməyə hazırıq və ölkəmizdə böyük potensial mövcuddur.

Çox sağ olun. Mən Sizi Praqada qəbul etməyi səbirsizliklə gözləyirəm və bundan əvvəl ümid edirəm ki, nümayəndələrimiz bu layihələri irəli aparacaq və ticarət dövriyyəmiz xeyli artacaq.

Çox sağ olun, cənab Prezident.

# Çexiyanın Baş nazirinin şərəfinə rəsmi lanç verilib



Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Çex Respublikasının Baş naziri Andrey Babişin şərəfinə rəsmi lanç verilib.

## Cənubi Afrika Respublikasının Prezidenti zati-aliləri cənab Matamela Siril Ramafozaya

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı - Azadlıq Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram.

İnanıram ki, Azərbaycan ilə Cənubi Afrika arasında dostluq əlaqələri və qarşılıqlı faydalı əməkdaşlıq həm ikitərəfli əsasda, həm də çoxtərəfli çərçivədə bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Qəbələ Beynəlxalq Hava Limanında qarşılanma



**Aprelin 26-da Çex Respublikasının Baş naziri Andrey Babiş Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Qəbələ Beynəlxalq Hava Limanında Çex Respublikasının Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Çexiyanın Baş naziri Andrey Babişi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və digər rəsmi şəxslər qarşıladılar.

# Azərbaycan müdafiə naziri İtaliyaya rəsmi səfər edib

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti İtaliya Respublikasına rəsmi səfər edib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində nümayəndə heyəti ölkəmizin İtaliyadakı səfirliyini ziyarət edib.

Daha sonra general-polkovnik Zakir Həsənov italiyalı həmkarı Quido Krosetto ilə görüşüb.

Protokola uyğun olaraq rəsmi qarşılanma mərasimində müdafiə nazirləri fəxri qarovul dəstəsinin qarşısından keçiblər. Sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib.



Azərbaycanın İtaliyadakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Aslanovun da iştirak etdiyi görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan münasibətlər və perspektivlər müzakirə olunub.

Görüşdə həmçinin hərbi, hərbi-texniki, hərbi-təhsil sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova Sudanın ölkəmizdəki səfiri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Sudan Respublikasının ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Ənəs Eltayeb Elqaylani Mustafa ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 35-ci ildönümünün tamam olacağı qeyd edilərək, bu gün iki ölkənin münasibətlərinin inkişafı üçün imkanların mövcud olduğu bildirilib. Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanın 2019-cu və 2024-cü illərdə ölkəmizə səfərlər etdiyi, ötən il isə Antalya Diplomatik Forumu çərçivəsində dövlət başçıları arasında görüş keçirildiyi vurğulanıb. Bu təmaslar zamanı münasibətlərin inkişafı üzrə istiqamətlərin müəyyən olunduğu bildirilib.



Söhbət zamanı spiker Sahibə Qafarova Azərbaycanla Sudanın Birləşmiş Millətlər Təşkilatında (BMT), İslam Əməkdaşlıq Təşkilatında (İƏT), Qoşulmama Hərəkatında və digər beynəlxalq təşkilatlarda ölkələrimizin uğurla əməkdaşlıq etdiyini və daim bir-birini dəstəklədiyini söyləyib. O, Milli Məclisin də gələcəkdə Sudan tərəfi ilə beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq etməkdə maraqlı olduğunu deyib.

Səfir Ənəs Eltayeb Elqaylani Azərbaycan Milli Məclisinin fəaliyyətini yaxından izlədiyini, ölkəsinin Azərbaycanın beynəlxalq parlamentlərarası dialoq və əməkdaşlığın inkişaf etdirilməsində öncül rolunu yüksək qiymətləndirdiyini vurğulayıb.

Görüşdə humanitar sahədə də mövcud əlaqələr nəzərdən keçirilib, sudanlı tələbələrə ölkəmiz tərəfindən təhsil təqaüdünün ayrılmasına görə minnətdarlıq ifadə olunub, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər haqqında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Mərkəzi Seçki Komissiyasına sədr, müavin və katiblər seçilib





**Aprelin 27-də Mərkəzi Seçki Komissiyasının (MSK) yeni tərkibdə ilk iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, komissiyanın iclasında qurumun sədri, müavini və iki katibi seçilib.

İclasda Milli Məclisin Sədri Sahibə Qafarova da iştirak edib.

Mərkəzi Seçki Komissiyasının yeni tərkibinin formalaşdırılmasının dövlətimizin demokratik təsisatlarının varisliyini və siyasi hüquqi sistemin dayanıqlığını ifadə etdiyini bildirən Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycanın demokratik inkişafında seçkilər və ümumxalq səsvermələri böyük rol oynayır.

"Seçkilər xalqın iradəsinin ifadə olunmasının fundamental mexanizmini, cəmiyyətin, dövlət institutlarının etimadının möhkəmləndirilməsinin mühüm vasitəsidir. Bu baxımdan seçkilərin qanunauyğun şəkildə hazırlanıb keçirilməsi vacib məsələdir. Ölkənin demokratik inkişaf səviyyəsi seçkilərin nə dərəcədə şəffaf təşkil edilməsindən asılıdır. Dünya sürətlə dəyişir və seçki prosesinə tələblər artır. Bu baxımdan MSK-nın üzərinə böyük məsuliyyət düşür. Hesab edirəm ki, ötən dövrdə üzərinə düşən işi layiqincə yerinə yetirən komissiya bu gün ölkəmizin siyasi sistemində özünəməxsus yer tutur", - deyə S.Qafarova vurğulayıb.

Sonra MSK-nın ən yaşlı üzvü Məzahir Pənahov komissiyanın yeni tərkibdə ilk iclasını açıq elan edib.

Daha sonra açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyası sədrinin, sədr müavininin və katiblərinin seçkisi keçirilib.

Məzahir Pənahov yekdilliklə Mərkəzi Seçki Komissiyasının sədri seçilib.

MSK-nın yeni tərkibinə etimad göstərdiklərinə görə Milli Məclisin bütün üzvlərinə minnətdarlığını bildirən Məzahir Pənahov qeyd edib ki, komissiyanın indiyə qədər olan tələbləri yerində qalır və bu tələblər bir az da ciddiləşəcək. MSK sədri bildirib ki, komissiya Seçki Məcəlləsinin tələblərinə uyğun fəaliyyət göstərir.

"Azərbaycanda 30 mindən artıq aşağı seçki komissiyası üzvü var. Bütün seçki komissiyalarının binaları müasir cihazlarla, avadanlıqlarla təmin olunub. Bütün dairələrin iş şəraiti dünyaya nümunə ola biləcək səviyyədə qurulub. Azərbaycan şəffaflıq cəhətdən də dünyada analoqu olmayan bir nümunəni ortaya qoyub. Belə ki, 1000 məntəqədə veb-kameralar quraşdırılıb. Dünyanın istənilən nöqtəsindən birbaşa MSK-nın saytına girməklə seçki prosesini müşahidə etmək mümkündür. Bunun üçün heç bir əlavə qeydiyyat və ya icazə tələb olunmur. Bütün bu sadalananlar Prezident İlham Əliyevin siyasi iradəsinin və Birinci vitse-prezident Mehriban Əliyevanın MSK-ya diqqətinin məntiqi nəticəsidir", - deyə M.Pənahov vurğulayıb.

Sədr Məzahir Pənahov bütün bunlara görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya Mərkəzi Seçki Komissiyası adından bir daha minnətdarlığını bildirib.

Sonra səsvermə yolu ilə Rövzət Qasımov MSK sədrinin müavini, Arifə Muxtarova Milli Məclisdə heç bir siyasi partiya mənsubiyyəti olmayan müstəqil deputatları, Mikayıl Rəhimov isə Milli Məclisdə deputatları azlıq təşkil edən siyasi partiyaları təmsil edən MSK katibləri seçiliblər.

# Mərkəzi Seçki Komissiyasında

### QƏRAR № 1/1

## Məzahir Məhəmməd oğlu Pənahovun Mərkəzi Seçki Komissiyasının sədri seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Məzahir Məhəmməd oğlu Pənahov Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri seçilsin.

| | |
|---|---|
| **Sədr** | **Məzahir Pənahov** |
| **Üzvlər** | **Sevinc Abdullayeva** |
| | |
| | **Fuad Cavadov** |
| | **Bəxşeyiş Əsgərov** |
| | **Nailə Əsgərova** |
| | **Tofiq Həsənov** |
| | **Elçin Xələfov** |
| | **Ramiz İbrahimov** |
| | **Rövzət Qasımov** |
| | **Almas Qəhrəmanlı** |
| | **Etibar Quliyev** |
| | **Elmar Məmmədov** |
| | **İlham Məmmədov** |
| | **Arifə Muxtarova** |
| | **Qabil Orucov** |
| | **Hüseyn Paşayev** |
| | **Mikayıl Rəhimov** |
| | **İlkin Şahbazov** |

*27.04.2026*

### QƏRAR № 1/2

## Rövzət Afət oğlu Qasımovun Mərkəzi Seçki Komissiyası Sədrinin müavini seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Rövzət Afət oğlu Qasımov Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin müavini seçilsin.

| | |
|---|---|
| **Sədr** | **Məzahir Pənahov** |
| **Müavin** | **Rövzət Qasımov** |
| **Üzvlər** | **Sevinc Abdullayeva** |
| | **Fuad Cavadov** |
| | **Bəxşeyiş Əsgərov** |
| | **Nailə Əsgərova** |
| | **Tofiq Həsənov** |
| | **Elçin Xələfov** |
| | **Ramiz İbrahimov** |
| | **Almas Qəhrəmanlı** |
| | **Etibar Quliyev** |
| | **Elmar Məmmədov** |
| | **İlham Məmmədov** |
| | **Arifə Muxtarova** |
| | **Qabil Orucov** |
| | **Hüseyn Paşayev** |
| | **Mikayıl Rəhimov** |
| | **İlkin Şahbazov** |

*27.04.2026*

### QƏRAR № 1/3

## Arifə Ağaverdi qızı Muxtarovanın Mərkəzi Seçki Komissiyasının katibi seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Arifə Ağaverdi qızı Muxtarova Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi seçilsin.

| | |
|---|---|
| **Sədr** | **Məzahir Pənahov** |
| **Müavin** | **Rövzət Qasımov** |
| **Katib** | **Arifə Muxtarova** |
| **Üzvlər** | **Sevinc Abdullayeva** |
| | **Fuad Cavadov** |
| | **Bəxşeyiş Əsgərov** |
| | **Nailə Əsgərova** |
| | **Tofiq Həsənov** |
| | **Elçin Xələfov** |
| | **Ramiz İbrahimov** |
| | **Almas Qəhrəmanlı** |
| | **Etibar Quliyev** |
| | **Elmar Məmmədov** |
| | **İlham Məmmədov** |
| | **Qabil Orucov** |
| | **Hüseyn Paşayev** |
| | **Mikayıl Rəhimov** |
| | **İlkin Şahbazov** |

*27.04.2026*

### QƏRAR № 1/4

## Mikayıl Rəhman oğlu Rəhimovun Mərkəzi Seçki Komissiyasının katibi seçilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.2-ci, 19.3-cü, 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Mikayıl Rəhman oğlu Rəhimov Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi seçilsin.

| | |
|---|---|
| **Sədr** | **Məzahir Pənahov** |
| **Müavin** | **Rövzət Qasımov** |
| **Katib** | **Arifə Muxtarova** |
| **Katib** | **Mikayıl Rəhimov** |
| **Üzvlər** | **Sevinc Abdullayeva** |
| | **Fuad Cavadov** |
| | **Bəxşeyiş Əsgərov** |
| | **Nailə Əsgərova** |
| | **Tofiq Həsənov** |
| | **Elçin Xələfov** |
| | **Ramiz İbrahimov** |
| | **Almas Qəhrəmanlı** |
| | **Etibar Quliyev** |
| | **Elmar Məmmədov** |
| | **İlham Məmmədov** |
| | **Qabil Orucov** |
| | **Hüseyn Paşayev** |
| | **İlkin Şahbazov** |

*27.04.2026*

## Milli Məclisin iclasında

# Mərkəzi Seçki Komissiyasının yeni tərkibi formalaşdırıldı






**Aprelin 27-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyə 11 məsələ daxildir. O diqqətə çatdırıb ki, gündəliyin birinci məsələsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin və əvəzedici üzvlərinin təyin edilməsi haqqında qərar layihəsidir.**

Spiker qeyd edib ki, Mərkəzi Seçki Komissiyası üzvlərinin səlahiyyət müddəti başa çatıb və "Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin birinci hissəsinə əlavələr edilməsi haqqında" Konstitusiya Qanununa əsasən, Milli Məclis komissiyanın yeni tərkibini formalaşdırmalıdır. Seçki Məcəlləsinə uyğun olaraq, Mərkəzi Seçki Komissiyasının 18 üzvünün 6 nəfərinin namizədlikləri Milli Məclisdə çoxluq təşkil edən siyasi partiya tərəfindən, 6 nəfərin namizədlikləri heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatlar tərəfindən, 6 nəfərin namizədlikləri isə Milli Məclisdə azlıq təşkil edən siyasi partiyalar tərəfindən təqdim edilməlidir. Bununla birlikdə, Seçki Məcəlləsinə görə, Mərkəzi Seçki Komissiyasının 3 nəfər əvəzedici üzvünün namizədlikləri də eyni qaydada Milli Məclisə təqdim olunmalıdır.

Spiker diqqətə çatdırıb ki, artıq bütün lazımi prosedurlar icra olunub və namizədlər müəyyən edilib.

Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin qərarı ilə Mərkəzi Seçki Komissiyasının 6 nəfər üzvünün və 1 nəfər əvəzedici üzvünün, heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatların yığıncağının qərarı ilə Mərkəzi Seçki Komissiyasının 6 nəfər üzvünün və 1 nəfər əvəzedici üzvünün, habelə Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları - Vətəndaş Həmrəyliyi Partiyasını, Ədalət, Hüquq, Demokratiya Partiyasını, Azərbaycan Demokratik İslahatlar Partiyasını, Böyük Quruluş Partiyasını, Azərbaycan Demokratik Maarifçilik Partiyasını, Milli Cəbhə Partiyasını, Böyük Azərbaycan Partiyasını, Azərbaycan Milli İstiqlal Partiyasını, Ana Vətən Partiyasını, Respublikaçı Alternativ Partiyasını Milli Məclisdə təmsil edən deputatların yığıncağının qərarı ilə Mərkəzi Seçki Komissiyasının 6 nəfər üzvünün və 1 nəfər əvəzedici üzvünün namizədlikləri Milli Məclisə təqdim edilib.

Spiker qeyd edib ki, Seçki Məcəlləsinin tələbinə uyğun olaraq, Milli Məclisdə heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatların təqdim etdiyi namizədlərdən biri Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının nümayəndələri ilə, digər bir namizəd isə azlıq təşkil edən siyasi partiyaların nümayəndələri ilə razılaşdırılıb.

Müzakirələr zamanı komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, Əli Hüseynli, deputatlar Mübariz Qurbanlı, Elşən Musayev, Hikmət Məmmədov, Günay Ağamalı, Fəzail İbrahimli məsələyə münasibət bildirdikdən sonra qərar layihəsi qəbul edilib.

Milli Məclisin Sədri Mərkəzi Seçki Komissiyasının üzvlərini təbrik edib, onlara bu şərəfli və məsul vəzifədə uğurlar arzulayıb.

Sonra parlamentin Sədri Sahibə Qafarova iclasın gündəliyinin növbəti üç məsələsinin beynəlxalq sənədlərlə bağlı olduğunu və "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq bir oxunuşda qəbul ediləcəyini bildirib.

Spiker gündəliyin ikinci məsələsinin "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati tədbirlər və maliyyə məsələləri barədə əlavə Saziş"in təsdiq edilməsi haqqında qanun layihəsi olduğunu diqqətə çatdırıb.

Məsələ ilə bağlı məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov bildirib ki, saziş 2026-cı il yanvarın 15-də Cenevrə şəhərində imzalanıb və ölkəmizdə Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyasının keçirilməsinin təşkilati və maliyyə məsələlərini tənzimləyir. Sənəddə tədbirin keçirilmə yeri, tarixi, BMT-nin Məskunlaşma Proqramına dair öhdəliklər, milli təşkilat komitəsinin yaradılması, təhlükəsizlik tədbirlərinə dair tələblər, fors-major hallar, iştirak edəcək nümayəndələrin dairəsi, viza rəsmiləşdirilməsi, bank hesabları, təchizat, təminat telekommunikasiya, məxfilik və digər vacib məsələlərə aid qaydalar təsbit olunub.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov layihə ilə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb. O, sənədin əhəmiyyətindən danışaraq bildirib ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunun, etibarlı tərəfdaş kimi mövqeyinin və qlobal təşəbbüslərə verdiyi töhfənin növbəti göstəricisidir.

Komitə sədri qeyd edib ki, Azərbaycan indiyədək bir sıra mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyədə evsahibliyi etməklə geniş təşkilatçılıq imkanlarını və müasir infrastruktur potensialını nümayiş etdirib. Onun sözlərinə görə, Bakıda keçiriləcək bu forum dayanıqlı şəhərsalma, müasir urbanizasiya, ekoloji tarazlığın qorunması, innovativ idarəetmə modelləri və insan yönümlü şəhər mühitinin formalaşdırılması kimi aktual məsələlərin müzakirəsi baxımından mühüm platforma olacaq.

Layihənin müzakirəsində komitə sədri Siyavuş Novruzov, deputatlar Aydın Hüseynov, Aydın Mirzəzadə, Məlahət İbrahimqızı, Ceyhun Məmmədov çıxış ediblər. Deputatlar bildiriblər ki, forum Azərbaycanın qlobal gündəlikdə mövqeyinin daha da möhkəmlənməsinə, çoxtərəfli əməkdaşlıq imkanlarının genişlənməsinə xidmət edəcək. Çıxışlarda vurğulanıb ki, belə mötəbər tədbirin Bakıda təşkili Azərbaycanın etibarlı tərəfdaş, təhlükəsiz və sabit məkan, böyük beynəlxalq platformaları uğurla qəbul edən dövlət kimi tanındığını bir daha təsdiqləyir. Qeyd olunub ki, tədbir dayanıqlı şəhərsalma, müasir urbanizasiya, rəqəmsal idarəetmə, "yaşıl inkişaf" və sosial inklüzivlik sahələrində qabaqcıl təcrübələrin öyrənilməsi baxımından da mühüm əhəmiyyət daşıyır.

Müzakirələrin sonunda qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov növbəti məsələ - "Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi"nin təsdiq edilməsi haqqında qanun layihəsi ilə bağlı məlumat verib. Komitə sədri bildirib ki, İqtisadi Əməkdaşlıq Təşkilatı Nazirlər Şurasının 2021-ci il 27 noyabr tarixində Türkmənistanın Aşqabad şəhərində keçirilmiş 25-ci iclasında İƏT-in Təmiz Enerji Mərkəzinin Nizamnaməsi qəbul olunub. Həmin sənədə əsasən, mərkəzin qərargahının Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində yerləşdirilməsi nəzərdə tutulub.

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin və əvəzedici üzvlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin qərarı

"Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.7-ci və 24-cü maddələrinə əsasən, Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının, heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatların, Milli Məclisdə azlıq təşkil edən Vətəndaş Həmrəyliyi Partiyasının, Ədalət, Hüquq, Demokratiya Partiyasının, Azərbaycan Demokratik İslahatlar Partiyasının, Böyük Quruluş Partiyasının, Azərbaycan Demokratik Maarifçilik Partiyasının, Milli Cəbhə Partiyasının (MCP), Böyük Azərbaycan Partiyasının, Azərbaycan Milli İstiqlal Partiyasının, Ana Vətən Partiyasının, Respublikaçı Alternativ Partiyasının (REAL) təqdimatlarını nəzərdən keçirərək Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı şəxslər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvləri təyin edilsinlər:

Abdullayeva Sevinc Qurban qızı,
Cavadov Fuad Musa oğlu,
Əsgərov Bəxşeyiş Məmməd oğlu,
Əsgərova Nailə Şahmərdan qızı,
Həsənov Tofiq Eldar oğlu,
Xələfov Elçin Abuzər oğlu,
İbrahimov Ramiz Hilal oğlu,
Qasımov Rövzət Afət oğlu,
Qəhramanlı Almas Əlisultan qızı,
Quliyev Etibar Cəfər oğlu,
Məmmədov Elmar Eldar oğlu,
Məmmədov İlham Sabir oğlu,
Muxtarova Arifə Ağaverdi qızı,
Orucov Qabil Əhməd oğlu,
Paşayev Hüseyn Məmməd oğlu,
Pənahov Məzahir Məhəmməd oğlu,
Rəhimov Mikayıl Rəhman oğlu,
Şahbazov İlkin Zaur oğlu.

2. Aşağıdakı şəxslər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının əvəzedici üzvləri təyin edilsinlər:

Cəlilova Aysel Zaur qızı,
Qarayeva Züriyə Ruslan qızı,
Mustafayeva Elnarə Eyyub qızı.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 27 aprel 2026-cı il*

Sadiq Qurbanov qeyd edib ki, müasir dövrdə qlobal enerji sistemi genişmiqyaslı transformasiya mərhələsindədir. Enerji təhlükəsizliyi, iqlim dəyişikliyi ilə mübarizə və alternativ mənbələrə keçid beynəlxalq gündəliyin əsas istiqamətlərindən birini təşkil edir. Onun sözlərinə görə, Azərbaycan bu müasir çağırışlara uyğunlaşan ölkə olmaqla yanaşı, "yeni enerji" strategiyalarının formalaşmasına da mühüm töhfə verir. Uzun illər ərzində etibarlı enerji tərəfdaşı statusunu qoruyan ölkəmiz bu gün "təmiz enerji"yə keçidin təşviqi, "yaşıl iqtisadiyyat"ın inkişafı və regional dayanıqlığın gücləndirilməsi istiqamətində mühüm mərhələyə qədəm qoyub.

Sadiq Qurbanov bildirib ki, təqdim olunan Ev Sahibi Ölkə Sazişinin əsas məqsədi mərkəzin öz funksiyalarını və vəzifələrini səmərəli şəkildə həyata keçirməsi üçün zəruri şərait yaratmaq, eləcə də mərkəzlə ev sahibi ölkə arasında hüquqi və təşkilati münasibətləri tənzimləməkdir.

Komitə sədri diqqətə çatdırıb ki, sənəddə mərkəzin Bakı şəhərində yerləşməsi, binanın saxlanılması, təhlükəsizlik və sanitar tələblər, fövqəladə hallar zamanı görüləcək tədbirlər, binanın və arxivlərin toxunulmazlığı, əmlak və maliyyə aktivlərinin hüquqi müdafiəsi, vergi və gömrük güzəştləri, rabitə imkanları, əməkdaşların immunitet və imtiyazları, yaşayış və viza məsələləri kimi mühüm istiqamətlər öz əksini tapıb.

Sadiq Qurbanov vurğulayıb ki, bu saziş Azərbaycanın beynəlxalq enerji diplomatiyasının güclənməsinə, ölkəmizin "yaşıl enerji" və dayanıqlı inkişaf sahəsində regional mərkəz kimi mövqeyinin möhkəmlənməsinə, eyni zamanda İƏT məkanında əməkdaşlığın genişlənməsinə mühüm töhfə verəcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Pərvanə Vəliyeva layihə ilə bağlı təmsil etdiyi komitənin rəyini bildirəndən sonra qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikası Hökuməti ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib.

Komitə sədri bildirib ki, saziş 2026-cı il fevralın 27-də Bakı şəhərində imzalanıb və 15 maddədən ibarətdir. O qeyd edib ki, sənəd Azərbaycan Respublikasının həyata keçirdiyi çoxşaxəli xarici siyasət kursunun, müxtəlif regionlarla, o cümlədən Afrika ölkələri ilə əlaqələrin genişləndirilməsi istiqamətində atılan ardıcıl addımların məntiqi davamıdır.

Arzu Nağıyev diqqətə çatdırıb ki, saziş iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığın qurulması və inkişafı üçün mühüm hüquqi baza yaradır. Sənəddə hərbi təlimlər, qarşılıqlı təcrübə mübadiləsi, hərbi təhsil, hərbi tibb sahəsində əməkdaşlıq, eləcə də texniki istiqamətlər üzrə birgə fəaliyyət məsələləri əksini tapıb. Komitə sədri vurğulayıb ki, saziş çərçivəsində müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi, müasir texnologiyalar üzrə təcrübə mübadiləsinin aparılması və birgə layihələrin həyata keçirilməsi üçün də imkanlar yaranır. Bununla yanaşı, sənəd regional və qlobal təhlükəsizlik məsələləri üzrə qarşılıqlı fəaliyyətin gücləndirilməsinə, terrorizmə və digər müasir təhdidlərə qarşı mübarizədə əməkdaşlığın dərinləşdirilməsinə xidmət edəcək.

Arzu Nağıyev qeyd edib ki, bu əməkdaşlıq hər iki ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsi baxımından da əhəmiyyətlidir. Azərbaycan Afrika qitəsində yeni tərəfdaşlıq imkanları əldə edir, Efiopiya isə Cənubi Qafqaz regionunda etibarlı tərəfdaşla münasibətlərini inkişaf etdirir. Komitə sədri əlavə edib ki, müdafiə sahəsində əməkdaşlıq, eyni zamanda iqtisadiyyat, ticarət və humanitar sahələrdə əlaqələrin genişlənməsinə də müsbət təsir göstərəcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Zaur Şükürov layihə ilə bağlı təmsil etdiyi komitənin rəyini bildirəndən sonra qanun layihəsi səsə qoyularaq qəbul olunub.

İclasda daha sonra Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Təhsil haqqında" və "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin son 2 məsələsinin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə bağlı olduğunu deyib. Parlamentin Sədri 10-cu məsələnin "Maliyyə icarəsi haqqında", 11-ci məsələnin isə Mülki Məcəllədə, Vergi Məcəlləsində, Rəqabət Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Taxıl haqqında", "Beynəlxalq xüsusi hüquq haqqında", "Tütün və tütün məmulatı haqqında", "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Çayçılıq haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Atçılıq haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Pambıqçılıq haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Elm haqqında", "Kredit büroları haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri olduğunu və onların birinci oxunuşda müzakirəyə təqdim edildiyini bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov hər iki məsələ barədə məlumat verib. Komitə sədri, əvvəlcə "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsini təqdim edərək bildirib ki, qanun layihəsinin qəbul edilməsini zəruri edən əsas amil maliyyə icarəsi fəaliyyətinin hüquqi əsaslarını müəyyən etmək və bu sahədə münasibətlərin sistemli şəkildə tənzimlənməsidir. O, sənədin ölkəmizdə maliyyə bazarlarının inkişafı, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, real sektorun investisiya fəaliyyətinin dəstəklənməsi və dayanıqlı iqtisadi artıma nail olunması baxımından mühüm əhəmiyyət kəsb etdiyini söyləyib. Qeyd edib ki, maliyyə icarəsi iqtisadi mahiyyətinə görə investisiya yönümlü maliyyələşmə alətidir. İkitərəfli bank kreditləşməsindən və icarə münasibətlərindən fərqli olaraq, maliyyə icarəsi icarəyə verən, satıcı və icarəçinin iştirak etdiyi üçtərəfli sxemə əsaslanır. Bu mexanizm vasitəsilə sahibkar, yəni icarəçi böyük həcmli ilkin kapital qoyuluşu etmədən istehsal və ya xidmət fəaliyyəti üçün zəruri olan avadanlığı, texnikanı və digər əsas vəsaitləri əldə eləmək imkanı qazanır.

Azər Əmiraslanov bildirib ki, layihədə maliyyə icarəsi 4 əsas meyardan biri ilə müəyyən edilir. Bu meyarların mahiyyəti ondan ibarətdir ki, əgər müqavilənin sonunda əmlak icarəçiyə keçirsə, icarə müddəti aktivin istismar müddətinin 75 faizdən çoxunu əhatə edirsə, müqavilə üzrə ödənişlər aktivin dəyərinin 90 faizdən çox hissəsini təşkil edirsə, müqavilə sonunda aktivin dəyəri ilkin qiymətin 20 faizdən azı səviyyəsində qalırsa, bu artıq adi icarə deyil, maliyyə icarəsi sayılır. Başqa sözlə, bu halda aktiv və ya əsas vəsait faktiki olaraq hissə-hissə əldə olunur. Həmçinin qeyd olunub ki, maliyyə icarəsinin iqtisadi əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərir. İlk növbədə, bu mexanizm sahibkarların maliyyə resurslarına çıxış imkanlarını asanlaşdırır. İkinci mühüm məqam, real sektorun modernləşdirilməsi, üçüncü istiqamət isə maliyyə bazarlarının dərinləşməsi ilə bağlıdır.

Komitə sədri diqqətə çatdırıb ki, layihə konseptual baxımdan 5 əsas fəsildən ibarətdir. Birinci fəsildə ümumi müddəalar müəyyən edilir, əsas anlayışlar izah olunur, maliyyə icarəsi fəaliyyətinin hüquqi əsasları və tətbiq dairəsi göstərilir. Burada maliyyə icarəsinin subyektləri - icarəyə verən, icarəçi və satıcı müəyyən olunur, maliyyə icarəsinin obyekti kimi sahibkarlıq fəaliyyətində istifadə olunan əsas vəsaitlər nəzərdə tutulur. İkinci fəsildə maliyyə icarəsi müqaviləsi üzrə münasibətlər, ödəniş mexanizmi, tərəflərin hüquq və vəzifələri, subicarə imkanları və müqavilənin vaxtından əvvəl ləğvi halları müəyyən edilir. Üçüncü fəsildə maliyyə icarəsi subyektlərinin əmlak hüquqlarının qorunması, risklərin bölüşdürülməsi və sığorta mexanizmləri nəzərdə tutulur. Bu yanaşma maliyyə bazarında etibarlılığı və hüquqi sabitliyi gücləndirir. Dördüncü fəsil, maliyyə icarəsi fəaliyyəti üzrə tənzimləmə və nəzarət məsələlərinə həsr olunur. Maliyyə icarəsi ilə məşğul olan şirkətlər maliyyə bazarının subyektləri hesab edildiyinə görə, onlar bu bazarın requlyatoru olan Mərkəzi Bankın tənzimləmə və nəzarət dairəsinə daxil edilir. Beşinci fəsil, qanunvericiliyin pozulmasına görə məsuliyyəti və keçid müddəalarını əks etdirir.

Qeyd edilib ki, qanunun dərc olunduğu gündən 6 ay sonra qüvvəyə minməsi nəzərdə tutulur. Eyni zamanda qanun qüvvəyə mindiyi tarixdən 9 ay müddətində ölkə ərazisində lizinq fəaliyyətini həyata keçirən şəxslər öz fəaliyyətini bu qanunun tələblərinə uyğunlaşdırmalı və reyestrə daxil edilmək üçün Mərkəzi Banka müraciət etməlidirlər.

Sonra komitə sədri Azər Əmiraslanov növbəti qanun layihəsi barədə məlumat verib. Bildirib ki, bir sıra qanunlara dəyişikliyi nəzərdə tutan bu layihə maliyyə icarəsi institutunun hüquqi sistemə tam və sistemli şəkildə inteqrasiyasını təmin etmək məqsədi daşıyır və "Maliyyə icarəsi haqqında" qanun layihəsinin qəbul edildikdən sonra tətbiqi üçün zəruri olan uyğunlaşdırıcı dəyişiklikləri özündə ehtiva edir.

Nəzərə çatdırılıb ki, maliyyə icarəsi mexanizmi iqtisadiyyatın müxtəlif sahələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Məhz bu səbəbdən təqdim olunan qanun layihəsində müvafiq qanunvericilik aktlarına uyğunlaşdırıcı dəyişikliklərin edilməsi nəzərdə tutulur. Bu dəyişikliklər ilk növbədə terminoloji vahidliyin təmin olunmasına xidmət edir. Digər tərəfdən təklif olunan dəyişikliklər maliyyə bazarının institusional elementi kimi maliyyə icarəsi fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsinə yönəlib. Bu baxımdan banklar, bank olmayan kredit təşkilatları, kredit büroları, nağdsız hesablaşmalar və digər maliyyə infrastrukturu ilə bağlı qanunvericilik aktlarında müvafiq uyğunlaşdırmalar aparılıb.

Habelə, qeyd olunub ki, layihədə maliyyə icarəsi obyektinin hüquqi statusu, əmlak hüquqlarının qorunması, təminat mexanizmlərinin tətbiqi, müflisləşmə və iflas prosedurları zamanı tərəflərin hüquqlarının dəqiqləşdirilməsi ilə bağlı normalar da öz əksini tapıb. Vergi qanunvericiliyində nəzərdə tutulan dəyişikliklər isə maliyyə icarəsi əməliyyatlarının vergi rejiminin dəqiqləşdirilməsinə və bu mexanizmin praktik tətbiq imkanlarının genişləndirilməsinə xidmət edir. Diqqətəlayiq məqamlardan biri də maliyyə icarəsi mexanizminin real sektorun müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatı, kooperasiya, elmi fəaliyyət və sahibkarlığın inkişafı ilə bağlı qanunvericilik aktlarında nəzərə alınmasıdır.

Komitə sədri maliyyə icarəsinin milli iqtisadiyyatımız və real sektor üçün mühüm əhəmiyyət kəsb etdiyini, maliyyə bazarlarının inkişafı baxımından önəmli təşəbbüs olduğunu söyləyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov sənədin iqtisadiyyatın inkişafına töhfə verəcəyini bildirərək, məsələ barədə bu komitələrin müsbət rəyini açıqlayıblar.

Müzakirələr zamanı çıxış edən parlamentin komitə sədri Zahid Oruc, deputatlar Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Sevil Mikayılova, Vasif Qafarov, Samir Vəliyev məsələ barədə öz fikirlərini, qeyd və təkliflərini diqqətə çatdırıblar.

Komitə sədri Azər Əmiraslanov deputatların söylədiyi fikirlərə münasibət bildirdikdən sonra, hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə "Sülh və Barışıq üçün Gernika mükafatına" layiq görülüb. Cənab Prezident aprelin 26-da mükafatın təqdimolunma mərasiminin iştirakçılarına ünvanladığı müraciətdə bu mötəbər mükafata layiq görülməyinə görə öz minnətdarlığını ifadə edib.

Spiker bildirib ki, bu mükafat bütün çətinliklərə baxmayaraq, regionumuzda sülhün, sabitliyin və əməkdaşlığın bərqərar olunması naminə möhtərəm cənab Prezidentin göstərdiyi böyük səylərin beynəlxalq ictimaiyyət tərəfindən də qəbul edilməsi və yüksək qiymətləndirilməsi deməkdir. 30 il ərzində torpaqlarının işğalı ilə üzləşmiş və münaqişə şəraitində yaşamış xalqın nümayəndələri olaraq biz möhtərəm cənab Prezidenti bu mötəbər mükafata layiq görülməsi münasibətilə ürəkdən təbrik edir, ona sülh və qarşılıqlı anlaşma naminə yorulmaz fəaliyyətində davamlı uğurlar arzulayırıq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Nazir Vilayət Eyvazov Göyçayda növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib





**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 26-da Göyçay rayonunda növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Göyçay rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra polis şöbəsinin inzibati binasında Göyçay, İsmayıllı, Şamaxı, Ağdaş, Ucar, Qəbələ, Qobustan və Ağsu rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 226 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 230 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Almaniya Bundestaqının nümayəndə heyəti Xankəndi və Şuşa şəhərlərində olub



**Ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının Cənubi Qafqaz üzrə Parlamentlərarası İşçi qrupunun rəhbəri Edis Mirzenin başçılıq etdiyi nümayəndə heyəti aprelin 27-də Xankəndi və Şuşa şəhərlərində olub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə Xankəndi şəhərinə gələn qonaqlar burada Zəfər meydanı, Qarabağ Universiteti və Azərbaycan dövləti tərəfindən həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə tanış olublar.

Sonra Şuşaya gələn Almaniya parlament nümayəndə heyəti Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonundakı xüsusi nümayəndəsi Aydın Kərimovla görüşüblər, Şuşanın qala divarlarını seyr ediblər, Aşağı Gövhər ağa məscidi, Birinci yaşayış məhəlləsi, Bülbülün ev-muzeyi və Cıdır düzü ilə tanış olublar.

Səfər zamanı qonaqları Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Nurlan Həsənov, Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemann və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Azərbaycan dövləti tərəfindən İrpen şəhərinə 5 elektrik avtobusu hədiyyə olunub



Ukrayna Prezidenti Volodimir Zelenskinin ölkəmizə işgüzar səfəri çərçivəsində Azərbaycan dövləti tərəfindən İrpen şəhərinə humanitar yardım olaraq 5 elektrik avtobusu hədiyyə olunub.

AZƏRTAC xəbər verir ki, Ukrayna tərəfi bu addımı ölkələrimiz arasında dostluq və həmrəyliyin təcəssümü kimi qiymətləndirib.

# Almaniya Bundestaqının üzvləri Göygöl və Şəmkir rayonlarına səfər ediblər

**Ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının Cənubi Qafqaz üzrə Parlamentlərarası İşçi qrupunun nümayəndə heyəti aprelin 26-da Göygöl və Şəmkir rayonlarında olublar.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Göygöl rayonunda Almaniya Bundestaqının deputatı, İşçi qrupunun rəhbəri Edis Mirze, deputatlar Daniel Köbl, Macit Karaahmetoğlu, Harald Ebner və Sergey Minix icra hakimiyyətinin başçısı Vüqar Novruzovla görüşüb, rayonun tarixi-mədəni irsi və Azərbaycan-Almaniya əlaqələri barədə fikir mübadiləsi aparıblar.

Səfər çərçivəsində nümayəndə heyətinin üzvləri rayonun tarixi məkanları ilə də tanış olublar.



Şəmkir rayonuna gələn qonaqlar burada rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyevlə görüşüb, almanların bu rayonda məskunlaşmasının tarixi, Şəmkirdəki alman irsi barədə söhbət aparıblar. Sonra qonaqlar Şəmkirdə kilsə ilə tanış olublar, qızılgül plantasiyasına baş çəkiblər.

Qonaqları Milli Məclisin deputatı, Azərbaycan - Almaniya Federativ Respublikası parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Nurlan Həsənov, Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemann və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin may ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Ədliyyə naziri** Fərid Əhmədov | Şəmkir | Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa, Qazax | 01 |
| 2. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Cəbrayıl | Cəbrayıl, Qubadlı, Zəngilan | 01 |
| 3. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Xankəndi | Xankəndi, Ağdərə, Xocalı | 04 |
| 4. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 06 |
| 5. | **Daxili işlər naziri** Vilayət Eyvazov | İmişli | İmişli, Füzuli, Beyləqan, Xocavənd, Saatlı, Sabirabad, Kürdəmir | 07 |
| 6. | **Gənclər və idman naziri** Fərid Qayıbov | İmişli | İmişli, Saatlı, Sabirabad | 07 |
| 7. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Xızı | Xızı, Siyəzən | 14 |
| 8. | **Baş prokuror** Kamran Əliyev | Masallı | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad | 15 |
| 9. | **Ekologiya və təbii sərvətlər naziri** Rəşad İsmayılov | Laçın | Laçın, Kəlbəcər | 15 |
| 10. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 15 |
| 11. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Şuşa | Şuşa | 15 |
| 12. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Naftalan | Naftalan, Goranboy, Xocalı | 15 |
| 13. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən | 18 |
| 14. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Ağdam | Ağdam, Füzuli, Xocavənd | 18 |
| 15. | **Baş prokuror** Kamran Əliyev | Xankəndi | Xankəndi, Ağdərə, Xocalı, Xocavənd, Şuşa | 20 |
| 16. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Xızı | Xızı, Sumqayıt, Abşeron | 21 |
| 17. | **Energetika naziri** Pərviz Şahbazov | Neftçala | Neftçala, Salyan, Biləsuvar, Cəlilabad, Şirvan, Hacıqabul | 22 |
| 18. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | Xankəndi | Xankəndi, Ağdərə, Xocalı | 22 |
| 19. | **Mədəniyyət naziri** Adil Kərimli | Beyləqan | Beyləqan, İmişli, Saatlı, Sabirabad, Xocavənd | 22 |
| 20. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Biləsuvar | Biləsuvar, Lənkəran, Masallı, Astara, Lerik, Cəlilabad, Yardımlı | 22 |
| 21. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Vüsal Nəsirli | Zəngilan | Zəngilan, Cəbrayıl, Qubadlı | 22 |
| 22. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Ağstafa | Ağstafa, Qazax, Tovuz | 22 |
| 23. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Lənkəran | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar, Cəbrayıl | 25 |
| 24. | **Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru** Anar Bayramov | Xızı | Xızı, Siyəzən | 25 |
| 25. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Qax | Qax, Şəki, Zaqatala, Balakən | 26 |
| 26. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Beyləqan | Beyləqan, Füzuli, İmişli, Saatlı, Sabirabad, Cəbrayıl, Xocavənd | 26 |
| 27. | **"Azəristiliktəchizat" ASC-nin sədri** İlham Mirzəliyev | Qusar | Qusar, Quba | 26 |

*Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.*

# *Azərbaycan artan diplomatik cazibə mərkəzi kimi:*
## Çexiya Baş nazirinin Qəbələ səfəri kontekstində yeni reallıqlar

**Son dövrlərdə Azərbaycana müxtəlif dövlət və hökumət başçılarının intensiv səfərləri ölkənin geosiyasi və geoiqtisadi əhəmiyyətinin artdığını aydın şəkildə nümayiş etdirir. Aprelin 26-da Çex Respublikasının Baş naziri Andrey Babişin rəsmi səfəri də bu tendensiyanın məntiqi davamı kimi diqqət çəkir. Bu səfər yalnız ikitərəfli münasibətlərin inkişafı baxımından deyil, eyni zamanda Azərbaycanın beynəlxalq arenada mövqeyinin gücləndiyini göstərən mühüm mesajdır.**

AZƏRTAC-ın təhlilinə görə, Cənubi Qafqazda artan diplomatik fəallıq fonunda Azərbaycanın proseslərdə rolu getdikcə daha qabarıq şəkildə özünü göstərir. Son aylarda Litvanın Baş naziri İnqa Ruqinienenin, Latviya Prezidenti Edqars Rinkeviçsin və Ukrayna Prezidenti Volodimir Zelenskinin ölkəmizə səfərləri bu dinamikanın təsadüfi olmadığını göstərir. Bu proseslər beynəlxalq arenada Azərbaycanın artıq yalnız enerji tərəfdaşı deyil, həm də siyasi dialoq və çoxtərəfli əməkdaşlıq üçün etibarlı platforma kimi qəbul edildiyini təsdiqləyir. Xüsusilə Avropa ölkələrinin Azərbaycana artan marağı onların regionda sabitlik, enerji təhlükəsizliyi və yeni nəqliyyat dəhlizləri ilə bağlı strateji hədəflərindən irəli gəlir.

Ukrayna Prezidentinin və Çexiya Baş nazirinin Qəbələdə qarşılanması xüsusilə diqqət çəkir. Bu, yeni protokol yanaşmasının göstəricisi olmaqla yanaşı, regionların diplomatik xəritədə rolunun artırılması siyasətinin tərkib hissəsidir. Daha əvvəl Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün də Qəbələdə keçirilməsi bu şəhərin strateji əhəmiyyətini artırıb. Bu isə o deməkdir ki, Qəbələ artıq Bakı və Şuşa ilə yanaşı, yeni diplomatik mərkəz kimi formalaşır.

### Siyasi dialoqdan investisiya və enerji əməkdaşlığına doğru qət edilən yol

Çexiya Baş nazirinin səfərini müşayiət edən geniş biznes heyəti bu səfərin əsas prioritetlərindən birinin iqtisadi əməkdaşlıq olduğunu göstərir. Nəzərdə tutulan biznes-forum iki ölkənin iş adamlarını bir araya gətirərək yeni investisiya və ticarət imkanlarının açılmasına şərait yaradacaq. Bu isə münasibətlərin yalnız siyasi deyil, iqtisadi müstəvidə də dərinləşdiyini göstərir.

Çexiya-Azərbaycan münasibətlərinin institusional bazasına nəzər salsaq görərik ki, ölkələrimiz arasında əməkdaşlıq artıq uzun illərə söykənir. 2011-ci ildən fəaliyyət göstərən iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiya bu münasibətlərin institusional əsasını təşkil edir. Ötən ilin iyununda Xarici İşlər nazirlikləri arasında Praqada keçirilmiş siyasi məsləhətləşmələr isə dialoqun davamlı xarakter daşıdığını sübut edir. Eyni zamanda iki ölkənin beynəlxalq təşkilatlarda bir-birinə qarşılıqlı dəstək verməsi onların siyasi yaxınlığını daha da möhkəmləndirir. Dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin intensivliyi də bu münasibətlərin yüksək səviyyədə olduğunu təsdiqləyir. Belə ki, Azərbaycan Prezidenti indiyədək Çex Respublikasına ümumilikdə dörd səfər edib. Çexiya prezidentləri isə ölkəmizdə ümumilikdə iki, Çexiya Baş naziri isə bir dəfə səfərdə olub.

Keçən il 814,73 milyon ABŞ dollarına çatan ticarət dövriyyəsi iqtisadi əlaqələrin dinamik inkişafını göstərir. Çexiya Azərbaycanın 6-cı ən böyük ixrac tərəfdaşı olmaqla yanaşı, Avropa İttifaqı daxilində 4-cü yerdə qərarlaşıb. Bu fakt Azərbaycanın Avropa bazarındakı mövqeyinin gücləndiyini nümayiş etdirir.

Ölkələrimizin energetika sahəsində əməkdaşlığı isə xüsusi önəm daşıyır. Azərbaycan Çexiyaya xam neft ixrac edir və 2025-ci ildə bu ölkə İtaliyadan sonra ikinci ən böyük idxalçı olub. Bununla yanaşı, Çexiya tərəfi bərpaolunan enerji, enerji səmərəliliyi və hidrogen sahələrində əməkdaşlıqda maraqlıdır. Bu isə münasibətlərin ənənəvi enerji modelindən daha innovativ istiqamətlərə keçdiyini göstərir.

Çex şirkətlərinin Azərbaycanda, o cümlədən bərpaolunan enerji sahəsində fəal iştirakı diqqət çəkir. Naxçıvanda 500 MVt gücündə fotoelektrik stansiya layihəsində iştirak və hidroelektrik avadanlıqların təchizatı imkanlarının araşdırılması bu əməkdaşlığın konkret nümunələridir.

İnvestisiya göstəriciləri də balanslı əməkdaşlığı əks etdirir: 1995-2025-ci illər ərzində qarşılıqlı investisiyalar təxminən eyni səviyyədə olub. Azərbaycanda fəaliyyət göstərən Çexiya kapitallı şirkətlərin müxtəlif sahələri əhatə etməsi iqtisadi əlaqələrin şaxələndiyini göstərir.

2022-ci ildən bəri Bakı və Praqa arasında birbaşa aviareyslərin bərpası iki ölkə arasında əlaqələri daha da asanlaşdırıb. Həftədə üç dəfə həyata keçirilən uçuşlar həm biznes, həm də turizm əlaqələrinin inkişafına təkan verir.

### Azərbaycan-Çexiya münasibətlərinin yeni mərhələyə keçidi

2015-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə Azərbaycan-Çexiya münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidini təmin edib. Bu sənəd yalnız siyasi deyil, həm də iqtisadi, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yol xəritəsi rolunu oynayıb. Eyni zamanda beynəlxalq hüququn əsas prinsiplərinə, o cümlədən ərazi bütövlüyünə dəstək bu tərəfdaşlığın dəyərlər əsaslı olduğunu göstərir.

Çexiya Baş nazirinin Azərbaycana səfəri fonunda aydın olur ki, Azərbaycan artıq regional deyil, daha geniş coğrafiyada strateji tərəfdaş kimi qəbul olunur. Diplomatik fəallığın artması, yeni mərkəzlərin, xüsusilə Qəbələnin ön plana çıxması və iqtisadi əməkdaşlığın dərinləşməsi ölkəmizin beynəlxalq sistemdə rolunun gücləndiyini təsdiqləyir. Bu proseslər Azərbaycanın Avropa ilə münasibətlərində də daha praqmatik və qarşılıqlı maraqlara əsaslanan yanaşmanın formalaşdığını göstərir. Eyni zamanda enerji təhlükəsizliyi, alternativ təchizat marşrutları və "yaşıl enerji" gündəliyi kimi istiqamətlər ikitərəfli əməkdaşlığın yeni konturlarını müəyyən edir.

Qarşılıqlı siyasi etimadın möhkəmlənməsi, yüksəksəviyyəli səfərlərin intensivliyi və institusional mexanizmlərin fəaliyyəti bu münasibətlərin davamlı xarakter daşıdığını göstərir. Artan iqtisadi göstəricilər və genişlənən investisiya əlaqələri isə strateji tərəfdaşlığın real məzmunla doldurulduğunu təsdiqləyir. Bu dinamika Azərbaycanın beynəlxalq sistemdə mövqeyinin təkcə sabitləşmədiyini, eyni zamanda daha da gücləndiyini nümayiş etdirir. Formalaşan çoxşaxəli əməkdaşlıq modeli isə gələcəkdə daha dərin inteqrasiya və yeni strateji layihələr üçün geniş imkanlar açır.

# Azərbaycanın xarici siyasətinin uğurları

## İlham Əliyevin qlobal barış missiyası



### "Sülh və Barışıq üçün Gernika mükafatı" Azərbaycan Prezidentinin sülh gündəliyinə beynəlxalq etimadın təsdiqi oldu

**Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən siyasət kursu bu gün Cənubi Qafqazı münaqişə ocağından sabitlik və əməkdaşlıq mərkəzinə çevirib. Beynəlxalq birliyin bu tarixi nailiyyətlərə verdiyi ali dəyər isə özünü nüfuzlu mükafatlarla büruzə verir. Prezident İlham Əliyevə təqdim olunan "Sülh və Barışıq üçün Gernika mükafatı" Azərbaycanın sülh gündəliyinin qlobal miqyasda qəbul olunmasının daha bir rəsmi təsdiqi kimi tarixə yazıldı.**

#### Qətiyyətli siyasi iradə

26 aprel tarixində - bəşəriyyət üçün ağır xatirələrlə yüklənmiş Gernika qurbanlarının anım günündə Prezident İlham Əliyevin "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi tarixi ədalətin və humanizmin təntənəsidir. Bu mükafat Azərbaycanın 30 illik işğala son qoyaraq regionda yaratdığı yeni reallığa, yəni barışığa verilən qiymətdir.

"Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına müraciətində Prezident İlham Əliyev bildirib ki, Gernika faciəsinin tarixi yaddaşını yaşatmaq, sülh və barışıq proseslərində töhfəsi olan insanları tanıtmaq məqsədi daşıyan bu mötəbər mükafata layiq görülmək böyük şərəfdir: "Hesab edirəm ki, dinc insanlara qarşı istənilən cinayət bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlir. Gernika şəhərinin bu ağrı-acısını bölüşür, qurbanların əziz xatirəsini dərin ehtiramla yad edirəm".

Dövlətimizin rəhbəri Azərbaycan xalqının sülhün qədrini necə dərindən bildiyini bu sözlərlə ifadə edib: "30 ilə yaxın müddət ərzində münaqişə şəraitində yaşamış Azərbaycan xalqı sülhün və barışığın dəyərini çox yaxşı anlayır. Azərbaycan bu gün sülh şəraitində yaşamağın nə olduğunu öyrənir. Bu, bizim üçün yeni və qeyri-adi bir hissdir".

Vətən müharibəsi və antiterror tədbirləri sayəsində Azərbaycan ədaləti və barışı öz gücünə təmin etməklə dünya üçün örnək nümunə ortaya qoydu. Bununla sübut etdi ki, bütün çətinliklərə rəğmən nümayiş etdirilən qətiyyətli siyasi iradə sülhü bərqərar etmək iqtidarındadır.

Bu gün Azərbaycan Ermənistanla münasibətlərdə faktiki əməkdaşlıq mühiti formalaşdırıb. Ötən il Ağ Evdə sülh sazişi mətninin paraflanmasından sonra iki ölkə arasında normallaşma istiqamətində mühüm addımlar atılıb. Neft məhsullarının və digər zəruri malların Azərbaycan ərazisindən Ermənistana ixrac edilməsi sülhün kağız üzərində deyil, insanların gündəlik həyatında hiss olunan real faydasıdır.

"Sülh və Barışıq üçün Gernika mükafatı"nın təqdimolunma mərasiminin iştirakçılarına ünvanladığı müraciətində ölkəmizin rəhbəri qeyd edib ki, ötən il Vaşinqton şəhərində Azərbaycan və Ermənistan arasında sülh sazişi mətninin paraflanması, eyni zamanda Birgə Bəyannamənin imzalanması ilə üç onillik ərzində davam edən münaqişə tamamilə sona çatmış, xalqlarımız üçün sülhün, barışığın, qarşılıqlı tərəfdaşlıq dövrünün əsası qoyulmuşdur: "Azərbaycanın və Ermənistanın nümunəsi göstərir ki, uzunmüddətli münaqişəyə, iztirablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, güclü siyasi iradə və beynəlxalq dəstək mövcud olduqda sülh əldə etmək mümkündür".

#### Azərbaycan nümunəsi

Azərbaycanın sülhə gedən yolu heç də asan olmayıb. Ötən onilliklər ərzində ölkəmiz münaqişənin danışıqlar yolu ilə həlli üçün xeyli səy göstərib. Qarşı tərəfin qeyri-konstruktivlik nümayiş etdirməsi nəticəsində uzun onilliklər boyu bölgə münaqişə, müharibə zonası kimi qalıb. Yalnız Azərbaycanın hərbi yolla Qarabağ məsələsini birdəfəlik yoluna qoyması ilə region, nəhayət, rahat nəfəs almağa başlayıb. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə 2025-ci il avqustun 8-də Vaşinqtonda baş tutan tarixi Zirvə görüşü və ondan bir ay əvvəl Əbu-Dabidə əldə olunan razılaşmalar sülh sazişinin paraflanması ilə nəticələndi. Bununla Cənubi Qafqazda qanlı münaqişəyə nöqtə qoyuldu.

Qətiyyətli iradə ortaya qoyan Prezident İlham Əliyev BMT TŞ-nin qətnamələrini hərbi-siyasi yolla icra etdi və Azərbaycanın suverenliyini bərpa etdi. Çevik diplomatiya yürüdən ölkəmizin rəhbəri Vaşinqton və Əbu-Dabi kimi beynəlxalq platformalarda səmərəli dialoqun tərəfdarı olduğunu ortaya qoydu. İqtisadi inteqrasiya xətti tutan rəsmi Bakı regionun kommunikasiya xətlərinin açılması və ticarət əlaqələrinin bərpası üçün konstruktivlik nümayiş etdirdi. Bölgədə de-fakto sülh yaratdı. Bütün bu sadalananlar Prezident İlham Əliyevin sülh missiyasını uğurlu edən amillərdəndir.

Sülh istiqamətində atılan qətiyyətli addımlara görə cari il fevralın 4-də Əbu-Dabidə Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı" təqdim olundu. Bu mükafat Azərbaycanın sülh missiyasının yalnız regional çərçivə ilə məhdudlaşmadığını və qlobal xarakterini ortaya qoydu. Həmçinin bu, Azərbaycanın ədalətli zəfərini sülh naminə istifadə etmə bacarığına verilən beynəlxalq ehtiram oldu. Tarixdə nadir nümunələrdəndir ki, qalib qarşı tərəfə nifrət və qorxu yox, sülh əli uzatsın. Bunu məhz Azərbaycan etdi. Ölkəmizin humanizmi əsas tutan siyasəti nəticəsində Ermənistan özünü saldığı dalan vəziyyətindən çıxarmaq üçün tarixi fürsət qazandı.

Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimatındakı çıxışı müharibə və etimadsızlıqdan əziyyət çəkən bütün xalqlar üçün yol xəritəsi xarakteri daşıyırdı: "Hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür".

Bakının irəli sürdüyü və siyasi iradə ilə humanitar dəyərlərin harmoniyasına dayanan sülh gündəliyi hazırda bəşəriyyətin üzləşdiyi münaqişələrin həlli üçün universal model rolunu oynayır. Azərbaycanın yaratdığı bu uğurlu model sülhün yalnız arzu deyil, həm də real və əlçatan hədəf olduğunu nümayiş etdirir.

Bu gün Azərbaycanın ucaltdığı "Sülh qalası"nın dünyanın hər yerindən aydın görünməsi də bu baxımdan təsadüfi deyil. Azərbaycan Prezidentinə verilən "Sülh və Barışıq üçün Gernika mükafatı" bir daha sübut edir ki, İlham Əliyev təkcə qalib lider deyil, həm də humanizmin, sülhün və birgəyaşayışın ən böyük müdafiəçisidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## İlham Əliyevin liderliyi ilə sülhün etibarlı təməlləri yaradılır

**Gernika şəhəri tarixdə bombardman olunması ilə tanınır. 1937-ci ildə İspaniyada vətəndaş müharibəsi zamanı şəhərin bombalanması böyük dağıntı və itkilərə səbəb olmuşdu. Bu hadisə sonradan Pablo Pikasso tərəfindən çəkilən məşhur "Guernica" əsərində əks olunub. Məhz bu faciəli tarix səbəbilə Gernika bu gün sülhün və yaddaşın simvolu sayılır, müxtəlif beynəlxalq təşəbbüslər üçün mərkəz rolunu oynayır. "Gernika Sülh Mükafatı" hər il müxtəlif ölkələrdən olan sülh fəallarına, təşkilatlara və beynəlxalq təşəbbüslərə verilən nüfuzlu bir mükafatdır.**



Prezident İlham Əliyevin sülh yolunda atdığı qətiyyətli addımlara görə daha bir nüfuzlu mükafata - "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görüldüyünü diqqətə çatdıran Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında xatırladıb ki, dövlət başçısı bu mükafatın təqdimolunma mərasiminin iştirakçılarına müraciətində qeyd edib ki, Azərbaycan uzun illər münaqişə şəraitində yaşamış bir ölkə kimi sülhün dəyərini dərindən anlayır. Münaqişə nəticəsində ölkə müharibənin ağır fəsadlarını yaşayıb. "Azərbaycan son 80 ildə tam və mütləq qələbə qazanan yeganə ölkədir. Ölkəmiz beynəlxalq hüquqa zidd olan işğala öz daxili potensialı hesabına son qoydu, dünya hərb tarixində görünməmiş texnika və diplomatik çeviklik sayəsində regionda status-kvonu dəyişdi. Dövlətimizin başçısı tarixi Zəfərdən dərhal sonra müəllifi olduğu sülh gündəliyini irəli sürdü. 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatı kommunikasiyaların açılmasını ehtiva etsə də, qarşı tərəf sülhdə manipulyasiyalarla vaxtı uzadırdı və konstruktiv addım atmırdı. Ötən il avqustun 8-də Ağ Evdə Prezident Donald Trampın şahidliyi ilə baş tutmuş Azərbaycanla Ermənistan arasında Vaşinqton razılaşması üç onillikdən çox davam edən gərginlikdən sonra regiona sülh, sabitlik və rifah gətirdi. Bu irəliləyiş Cənubi Qafqazda yeni bir dövr açdı. Yekun sülh müqaviləsi imzalanmasa belə bunun üçün əməli addımlar atılır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, normallaşma irəliləyişləri təkcə dövlətlərarası diplomatiya ilə məhdudlaşmır, ictimai dəstək, açıq ünsiyyət və etimadın qurulması davamlı sülhün əsas komponentləri kimi getdikcə daha çox qəbul olunur. İki ölkə arasında vətəndaş cəmiyyəti mübadilələri həyata keçirilir. Bu mübadilələr dialoqu təşviq edir və siyasi razılaşmaların cəmiyyət daxilində möhkəmlənməsinə kömək edir. Bu addımlar da regionda iqtisadi inteqrasiyaya töhfə verir.

P.Vəliyeva Prezident İlham Əliyevin bundan əvvəl "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görüldüyünü xatırladaraq deyib ki, bu, Azərbaycanın Cənubi Qafqazda davamlı sülhün təmin olunmasındakı rolunun beynəlxalq səviyyədə tanınmaqla yanaşı, örnək kimi tarixə düşdüyünü göstərir: "Xatırladım ki, ABŞ Prezidenti Donald Tramp Sülh Şurası adlı beynəlxalq təşkilat yaradıb, Azərbaycan Respublikasını təşkilata təsisçi üzv dövlət olmağa dəvət edib. Bundan öncə, məhdud sayda dövlət və hökumət başçılarının iştirak etdiyi Yaxın Şərq Sülh sammitində Prezident İlham Əliyev məhz ABŞ Prezidentinin şəxsi dəvəti əsasında iştirak edib. Onillliklərlə davam edən münaqişədən sonra regiona sülhü gətirən Azərbaycan artıq beynəlxalq arenada örnək təşkil edir və bu siyasət ən ali mükafatlara layiq görülür. Bu, ölkə rəhbərinin qətiyyətinin, sülh üçün prinsipiallığının, qırılmaz xalq-iqtidar birliyinin, xalqın Prezidentə olan güclü inamının məntiqi nəticəsidir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycan və Çexiya arasında strateji tərəfdaşlıq möhkəmlənir

### Çexiya Baş naziri Andrey Babişin səfəri ölkəmizin nüfuzlu tərəfdaş kimi qəbul edilməsinin göstəricisidir

**Azərbaycanın beynəlxalq müstəvidə artan geosiyasi çəkisi və iqtisadi nüfuzu son zamanlar ölkəmizə yüksəksəviyyəli dövlət səfərlərində özünü büruzə verir. Aprelin 26-da Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə səfəri Azərbaycanın qlobal siyasətdəki yerinin möhkəmlənməsinin və nüfuzlu tərəfdaş kimi qəbul edilməsinin bariz göstəricisidir. Müxtəlif ölkə liderlərinin Azərbaycana intensiv səfərləri Bakının strateji və iqtisadi rolunun yüksəlməsindən xəbər verir.**

Azərbaycan Prezidenti İlham Əliyevlə Çex Respublikasının Baş naziri Andrey Babiş arasında təkbətək və geniş tərkibli görüşlər keçirilib. Görüşlərdən sonra tərəflər mətbuata bəyanatlarla çıxış ediblər. Daha sonra Prezident İlham Əliyevin və Baş nazir Andrey Babişin iştirakı ilə Azərbaycan-Çexiya biznes-forumu keçirilib.

Prezident İlham Əliyev vurğulayıb ki, əməkdaşlığın böyük hissəsi energetika sektoruna aiddir. Dövlətimizin başçısı bəyan edib ki, Çexiya və Azərbaycan çox etibarlı tərəfdaşlardır: "Azərbaycan nefti Çexiyaya ixrac edilir və Çexiyanın enerji balansında önəmli yer tutur. Azərbaycan dünya bazarlarına öz enerji resurslarını ixrac edən etibarlı ölkələr sırasındadır. Bunu o cümlədən Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir və onlardan 10 ölkə Avropa İttifaqının üzvüdür. O cümlədən Azərbaycan Çexiyaya qonşu olan ölkələrə təbii qaz ixrac edir". Azərbaycan Prezidenti əlavə edib ki, ölkələrimiz arasında digər önəmli əməkdaşlıq sahəsi müdafiə sənayesi ilə bağlıdır: "Burada da uzun müddət ərzində uğurlu əməkdaşlıq aparılır. Biz Çexiyadan bir çox hərbi təyinatlı məhsullar alırıq və indiki mərhələdə birgə istehsalla bağlı konkret layihələr üzərində danışıqlar gedir. Əminəm ki, bu sahə də çox genişmiqyaslı olacaq".

Çexiyanın Baş naziri Andrey Babiş də Azərbaycanın Çex Respublikasının strateji tərəfdaşı olduğunu qeyd edib: "Aydındır ki, Azərbaycan dünyanın diqqət mərkəzindədir. Ukrayna Prezidenti Zelenski burada oldu, sonra Ciorcia Meloni bura səfər edəcək. Bu, sadəcə, gözəl ölkənizin əhəmiyyətini bir daha nümayiş etdirir".

Azərbaycan və Çexiya arasındakı münasibətlər tarixi köklərə və müasir strateji tərəfdaşlığa söykənir. İki ölkə arasında əlaqələr siyasi, iqtisadi, xüsusilə də enerji sahəsində yüksək səviyyədə inkişaf etməkdədir. Çexiya Azərbaycanın müstəqilliyini 1992-ci ildə tanıyıb və 1993-cü il yanvarın 27-də diplomatik münasibətlər qurulub. Karlovi Varı şəhərində Azərbaycanın fəxri konsulluğu fəaliyyət göstərir. 2015-ci ildə imzalanmış "Azərbaycan Respublikası və Çex Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə" əlaqələrin keyfiyyətcə yeni mərhələyə keçməsini təmin edib.

Enerji sektoru ikitərəfli əlaqələrin özəyini təşkil edir. Çexiya Azərbaycan neftinin Avropadakı əsas alıcılarından biridir. Azərbaycan Çexiyanın neftə olan tələbatının əhəmiyyətli hissəsini, təxminən 25-30 faizini qarşılayır. Bu göstərici Çexiyanın enerji asılılığının azaldılması və resurs bazasının diversifikasiyası baxımından həlledicidir. Son dövrlərdə əməkdaşlıq ənənəvi karbohidrogenlərdən "yaşıl enerji"yə doğru genişlənir. 2021-ci ildə imzalanmış enerji əməkdaşlıq sazişi və 2026-cı ilin əvvəlində keçirilən müzakirələr çərçivəsində Çexiya şirkətləri Azərbaycanda günəş, külək və hidrogen enerjisi layihələrində, həmçinin şəbəkənin modernləşdirilməsində maraqlı olduqlarını bildiriblər. Tərəflər neft-qaz sektorundakı uğurlu təcrübəni bərpaolunan enerji mənbələrinə transfer etmək niyyətindədirlər. Bu əməkdaşlıq həm də Azərbaycanın "yaşıl enerji" qovşağına çevrilmə strategiyasına mühüm töhfə verməklə, gələcəkdə ölkəmizdə istehsal olunan ekoloji təmiz enerjinin Avropa bazarlarına, o cümlədən Çexiyaya ixracı üçün perspektivlər yaradır.

Azərbaycan və Çexiya arasındakı iqtisadi münasibətlərdə də dinamika müşahidə olunur. 2025-ci ildə Azərbaycan və Çexiya arasındakı ticarət dövriyyəsi 814 milyon dollar olub. Ötən il Azərbaycandan Çexiyaya 745 milyon dollarlıq mal ixrac edilib. Hazırda Çexiya Azərbaycanın 6-cı, Avropa İttifaqında isə 4-cü ən böyük ixrac tərəfdaşıdır. Ölkələr arasında enerji sahəsində möhkəm əməkdaşlıq qurulub. İki ölkənin iş adamlarının iştirakı ilə biznes-forumun keçirilməsi ikitərəfli iqtisadi əlaqələrin inkişafı üçün yeni imkanlar deməkdir. Bu eyni zamanda ölkələr arasında ticarət, dövriyyəsinin növbəti illərdə daha da artırılacağından xəbər verir. Qeyri-neft-qaz sahəsində əməkdaşlığın gücləndirilməsi əsas prioritetlərdəndir. 2026-cı ilin ilk rübünə dair açıqlanan 195,7 milyon dollarlıq ticarət dövriyyəsi göstəricisi əməkdaşlığın cari ildə də stabil və davamlı olacağını proqnozlaşdırmağa imkan verir. Bu rəqəm göstərir ki, qlobal iqtisadi dalğalanmalara baxmayaraq, iki ölkə arasında tədarük zənciri qorunub saxlanılır.

Çexiya şirkətlərinin Azərbaycandakı fəaliyyəti çoxşaxəliliyi ilə seçilir. Nəqliyyat sektorunda dəmir yollarının modernləşdirilməsi, kənd təsərrüfatında müasir suvarma və emal texnologiyalarının tətbiqi, tikinti sektorundakı infrastruktur layihələri Çexiya biznesinin Azərbaycan bazarındakı güclü mövqeyini təmin edir. "Tatra" markalı yük maşınlarının Azərbaycanda yığılması layihəsi də ikitərəfli sənaye kooperasiyasının ən uğurlu və simvolik nümunələrindən biri hesab olunur. Gəncə Avtomobil Zavodu ilə yaradılan bu tərəfdaşlıq modelinin uğuru gələcəkdə digər ağır sənaye və maşınqayırma sahələrində də analoji layihələrin həyata keçirilməsi üçün presedent yaradır. Bu həm də Azərbaycanın regionda logistik qovşaq kimi imkanlarını genişləndirərək, istehsal olunan texnikanın üçüncü ölkələrə ixracı perspektivini gündəmə gətirir.

İki ölkə arasında hərbi sahədə də əməkdaşlıq diqqətdən kənarda qalmır. Aprelin 24-də Azərbaycan və Çexiya Müdafiə nazirlikləri arasında ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb. Bu, iki ölkə arasındakı münasibətləri keyfiyyətcə yeni mərhələyə daşıyır. Bu sənəd tərəflər arasında hərbi-texniki tərəfdaşlığın hüquqi bazasını möhkəmləndirməklə yanaşı, birgə fəaliyyət üçün konkret yol xəritəsini müəyyənləşdirir.

Çexiya Respublikası həm ikitərəfli münasibətlərdə, həm də beynəlxalq təşkilatlar səviyyəsində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini ardıcıl, birmənalı şəkildə dəstəkləyən dövlətlərdən biridir. Praqa Aİ-nin xarici siyasət kursunda Azərbaycanın ərazi bütövlüyünə hörmətin fundamental şərt kimi qalmasını təşviq edən ölkələr sırasındadır. Bu yanaşma xüsusilə Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi sülh gündəliyinə və regionun reinteqrasiyası proseslərinə Avropa müstəvisində siyasi dəstəyin formalaşdırılması baxımından strateji əhəmiyyət kəsb edir.

İki ölkə arasındakı siyasi həmrəylik parlamentlər səviyyəsində də özünü qabarıq büruzə verir. Çexiya parlamentinin hər iki palatası müxtəlif dövrlərdə Azərbaycanın suveren hüquqlarını tanıyan və regionda ədalətli sülhün bərqərar olmasını dəstəkləyən sənədlərə, o cümlədən Xocalı soyqırımını pisləyən qərarlara imza atıb. Bu cür qətiyyətli addımlar Çexiyanın Azərbaycanı, sadəcə, iqtisadi tərəfdaş deyil, həm də fundamental dəyərlər ətrafında birləşən etibarlı strateji müttəfiq kimi qəbul etdiyini göstərir. Təhsil sahəsində Çexiya universitetləri azərbaycanlı tələbələr üçün populyar istiqamətlərdən biridir. O cümlədən Gəncə ilə Olomouts, Xocalı ilə Lidiçe şəhərləri arasında sıx dostluq əlaqələri mövcuddur.

Son bir həftədə Azərbaycana Avropa İttifaqının üzvləri Latviya və Çexiya rəhbərliklərinin, o cümlədən Ukrayna Prezidentinin səfərləri ölkəmizin geosiyasi gücünü göstərən faktorlardandır. Dünyada müşahidə edilən siyasi kataklizmlərə rəğmən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycanın geosiyasi mövqeyini daha da gücləndirib. Çoxvektorlu xarici siyasət Azərbaycanın eyni zamanda Qərb və Şərqlə tərəfdaşlığını gücləndirərək regional təhlükəsizliyin qorunmasında rolunu daha da artırıb.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## Barışın rəmzi olan mükafat

**Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi ardıcıl səylərə görə, Prezident İlham Əliyev "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülüb. Bu mükafat Azərbaycanın sülh naminə atdığı addımların dünya ictimaiyyəti tərəfindən qəbul edildiyinin göstəricisidir.**

Xatırladaq ki, bu mükafatın adını daşıyan Gernika hadisəsi bəşəriyyət tarixinin ən acı səhifələrindən biridir. 89 il əvvəl - 26 aprel tarixində İspaniyanın Gernika şəhəri amansızcasına bombalanmışdı. Həmin gün dinc əhaliyə qarşı törədilmiş bu cinayət ötən əsrin ən dəhşətli və qanlı hadisələrindən biri kimi yaddaşlara həkk olunub. Gernika qurbanlarının anım günü hər il ehtiramla qeyd edilir. Məşhur rəssam Pablo Pikassonun 1937-ci ildə yaratdığı eyniadlı əsəri ilə simvola çevrilən bu faciə müharibənin gətirdiyi fəlakətlərin unudulmaması üçün bir xəbərdarlıq rolunu oynayır. Əsər bədii dəyəri ilə yanaşı, müharibənin dəhşətlərini və humanitar fəlakətləri təsvir edən dərin siyasi məzmuna malikdir. O onilliklərdir ki, qlobal miqyasda zorakılığa qarşı etirazın və sülh ideallarının əsas simvolu kimi qəbul olunur.

"Sülh və Barışıq üçün Gernika mükafatı"nın iki əsas məqsədi var. İlk növbədə bu mükafat tarixi unutmamaq və Gernika faciəsinin acı xatirəsini daim yaşatmaq məqsədi daşıyır. Bununla yanaşı, bu təltifin ikinci ən mühüm hədəfi müharibələri dayandırmaq, barışıq yaratmaq və sülh proseslərinə böyük töhfə vermək istəyən liderləri, habelə şəxsiyyətləri dünyaya tanıtmaqdan ibarətdir. Mükafat keçmişin qanlı dərslərindən nəticə çıxararaq yeni müharibələrin qarşısını almaq üçün mənəvi və siyasi bir istinad nöqtəsidir. Xülasə, mükafat həm keçmişin ağrılarını xatırladır, həm də gələcəyin sülh qurucularına beynəlxalq mənəvi dəstək nümayiş etdirir.

Azərbaycan Prezidentinin bu mükafata layiq görülməsi onun Cənubi Qafqazda apardığı uzaqgörən və çoxşaxəli siyasətinin nəticəsidir. Azərbaycan və Ermənistan arasında illərdir davam edən münaqişədən sonra sülhün bərqərar olması regionun gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. İlham Əliyevin təşəbbüsləri sayəsində tərəflər arasında birbaşa dialoq imkanları genişlənib və yeni mərhələyə qədəm qoyub. Eyni zamanda regionda kommunikasiyaların açılması, nəqliyyat dəhlizlərinin bərpası və iqtisadi əməkdaşlıq üçün real zəmin yaranıb. Bununla yanaşı, regionda sabitliyi təmin edəcək sülh müqaviləsinin hazırlanması və dövlət sərhədlərinin dəqiq müəyyənləşdirilməsi istiqamətində mühüm diplomatik nailiyyətlər əldə olunub.

Bu yüksək mükafat sülh naminə göstərilən hər bir səyin dünya birliyi üçün mühüm dəyər daşıdığını və diqqətdən kənarda qalmadığını sübut edən növbəti bir nümunədir. Gernika kimi faciələrin bir daha təkrarlanmaması üçün sülh yolunda atılan hər bir addım bəşəriyyət üçün böyük qazanc, gələcək nəsillər üçün isə mənəvi mirasdır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

**Ukrayna Prezidenti Volodimir Zelenskinin Azərbaycana işgüzar səfəri, Qəbələdə Azərbaycan Prezidenti İlham Əliyevlə təkbətək və geniş tərkibdə keçirilən görüşlər, aparılan müzakirələr, mətbuata açıqlanan bəyanatların məzmunu iki ölkə arasındakı münasibətlərin yeni mərhələsindən xəbər verir.**



## Yeni məzmunla dərinləşən Azərbaycan-Ukrayna münasibətləri

### Prezident İlham ƏLİYEV: "Biz bu gün qarşılıqlı hörmətdən, qarşılıqlı maraqların təmin edilməsindən danışırıq"

Azərbaycan və Ukrayna strateji tərəfdaşlıq münasibətlərinə malik ölkələrdir. Cənab İlham Əliyevin mətbuata bəyanatında da xatırlatdığı kimi, ölkələrimiz arasında əməkdaşlığın çox güclü siyasi təməli var: "2008-ci ildə Kiyevdə, 2011-ci ildə Bakıda strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır və bunlar çox güclü siyasi sənədlərdir. O sənədlərdə ölkələrimizin qarşılıqlı olaraq ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı məsələləri öz əksini tapmışdır. Azərbaycan və Ukrayna bütün beynəlxalq təşkilatlarda qarşılıqlı olaraq ölkələrin suverenliyini, ərazi bütövlüyünü dəstəkləyir və dəstəkləyəcək".

**Çətin vəziyyətdə olan xalqlara dəstək və beynəlxalq həmrəylik**

Baş verən yeni geosiyasi proseslər fonunda Azərbaycanla Ukrayna arasında münasibətlər son illər yeni məzmun və dinamika qazanaraq daha çox humanitar sahədə dərinləşməkdədir. Bu yanaşma təsadüfi deyil. Azərbaycanın xarici siyasətində humanitar dəyərlər, çətin vəziyyətdə olan xalqlara dəstək və beynəlxalq həmrəylik xüsusi yer tutur. Uzun illər münaqişədən əziyyət çəkmiş ölkə kimi Azərbaycan bu ağrının, onun sosial-psixoloji nəticələrinin nə demək olduğunu yaxşı anlayır və bu təcrübəni bölüşməyi özünün mənəvi borcu hesab edir.

Humanitar əməkdaşlıq Azərbaycan-Ukrayna əlaqələrinin ən həssas və eyni zamanda ən təsirli istiqamətlərindəndir. Xüsusilə müharibənin ən ağır nəticələrindən birinin uşaqlar üzərində yaratdığı psixoloji sarsıntılar olduğu nəzərə alınaraq, Azərbaycan tərəfindən ukraynalı uşaqlar üçün reabilitasiya proqramlarının həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Bu təşəbbüslər yalnız sosial dəstək deyil, həm də gələcək nəsillərin sağlam psixoloji mühitdə yetişməsi baxımından strateji addım kimi qiymətləndirilə bilər. Yaxın perspektivdə ukraynalı tələbələrin də belə proqramlara cəlb olunması planlaşdırılır ki, bu da humanitar əməkdaşlığın daha geniş auditoriyanı əhatə edəcəyini göstərir. Prezident Volodimir Zelenski bəyanatında bu məsələyə xüsusi diqqət yetirərək demişdir: "O uşaqlar, övladlarımız cəbhəyanı bölgələrdən gəlirlər. Onlar əzab-əziyyətlərlə üzləşiblər, müharibədən əziyyət çəkiblər. Dəstəyinizə görə təşəkkür edirik. Beş yüzdən artıq ukraynalı uşaq buradadır və bu humanitar dəstəyə görə Sizə minnətdarıq".

Digər mühüm istiqamət enerji təhlükəsizliyi sahəsində göstərilən humanitar dəstəkdir. Ukraynanın enerji infrastrukturunun zədələnməsi nəticəsində mülki əhali, xüsusilə xəstəxanalar ciddi çətinliklərlə üzləşdiyi bir dövrdə Azərbaycanın elektrik generatorları sarıdan göstərdiyi yardım konkret və həyati əhəmiyyət daşıyan dəstək nümunəsidir. Bu addımlar Azərbaycanın yalnız siyasi bəyanatlarla deyil, real və praktik yardımlarla çıxış etdiyini göstərir.

**Uzunmüddətli, rasional və strateji siyasət**

Azərbaycanın hərbi münaqişədən əziyyət çəkən dost ölkəyə humanitar dəstəyi özünə mənəvi borc və missiya kimi qəbul etməsi emosional yanaşmadan daha çox uzunmüddətli, rasional və strateji siyasətin mühüm elementidir. Xüsusilə Azərbaycan kimi münaqişə təcrübəsi yaşamış ölkə üçün bu yanaşma bir neçə fundamental səbəbə görə vacibdir.

İlk növbədə bu, tarixi yaddaşın siyasi davranışa çevrilməsidir. Azərbaycan uzun illər ərzində işğal, məcburi köçkünlük və sosial travmalarla üzləşmiş cəmiyyət kimi müharibənin real nəticələrini "kitabdan yox, həyatdan" öyrənib. Hazırda bu təcrübənin başqa xalqlarla paylaşılması, sadəcə, empatiya, yəni başqalarının dərdinə şərik olmaq deyil, tarixi təcrübənin məsuliyyətə çevrilməsidir. Əgər bir dövlət bu ağrını anlayırsa, susmaq yox, reaksiya vermək onun üçün daha məntiqi və etik seçimə çevrilir.

Digər tərəfdən, humanitar siyasət dövlətin "yumşaq güc"ünün əsas dayaqlarındandır. Müasir beynəlxalq münasibətlərdə nüfuz yalnız iqtisadi və hərbi güclə ölçülmür. Azərbaycanın humanitar təşəbbüsləri, xüsusilə müharibədən əziyyət çəkən Ukrayna əhalisinə dəstəyi ölkəmizin beynəlxalq imicini daha da yüksəldir, etibarlı tərəfdaş statusunu möhkəmləndirir. Bütün bunlar gələcəkdə həm siyasi, həm də iqtisadi əməkdaşlıq üçün əlavə imkanlar yaradır.

**Beynəlxalq hüququn və ədalətin müdafiəsi**

Bu yanaşma həm də beynəlxalq hüququn və ədalətin müdafiəsinə xidmət edir. Azərbaycan öz təcrübəsindən çıxış edərək ərazi bütövlüyü və suverenlik prinsiplərinin pozulmasının hansı nəticələrə gətirib çıxardığını yaxşı bilir. Humanitar dəstək bu prinsiplərin yalnız siyasi bəyanatlarda deyil, real addımlarda da dəstəklənməsi deməkdir, yəni bu, dəyərlərin praktik ifadəsidir.

Humanitar fəaliyyət gələcək təhlükəsizlik mühitinə də təsir edir. Müharibələrin nəticələrinin yumşaldılması, xüsusilə uşaqlar və gənclər arasında ağrı-acıların azaldılması uzunmüddətli sabitlik üçün vacibdir. Bu gün reabilitasiya olunan bir uşaq sabah radikallaşmadan uzaq, daha sağlam cəmiyyətin üzvünə çevrilir. Bu baxımdan humanitar siyasət həm də preventiv təhlükəsizlik alətidir.

Azərbaycanın Ukraynaya humanitar dəstəyi dövlətimizin yalnız öz maraqlarını deyil, eyni zamanda universal humanitar dəyərləri qoruduğunu göstərir. Bu isə həm cəmiyyət daxilindəki həmrəyliyi gücləndirir, həm də ölkə xaricində böyük rəğbət doğurur.

Nəhayət, belə bir missiya Azərbaycanın özünü necə görməsi ilə bağlıdır. Azərbaycan yalnız regional oyunçu olmaqla kifayətlənmir, məsuliyyətli, balanslı və etibarlı beynəlxalq aktor kimi çıxış edir. Humanitar təşəbbüslər isə bunun ən konkret sübutlarındandır.

**Canlı körpü, balanslaşdırılmış siyasət**

İnsanlar arasında olan müsbət əlaqələr də iki ölkənin münasibətlərində mühüm rol oynayır. Ukraynada fəaliyyət göstərən geniş Azərbaycan diasporu bu əlaqələrin canlı körpüsünə çevrilib. Bu diaspor həm mədəni-humanitar mübadiləni təşviq edir, həm də iki xalq arasında qarşılıqlı anlaşmanın güclənməsinə xidmət göstərir.

Azərbaycanın müharibədən sonrakı dövrdə qazandığı təcrübə Ukrayna üçün xüsusi əhəmiyyət daşıya bilər. Ölkəmizin mina təmizlənməsi sahəsində əldə etdiyi praktiki biliklərlə, malik olduğu texnoloji imkanlarla gələcəkdə Ukraynanın bu sahədə qarşılaşdığı problemlərin həllinə töhfə verməsi mümkündür. Eyni zamanda Azərbaycanın azad edilmiş ərazilərdə həyata keçirdiyi genişmiqyaslı bərpa və quruculuq layihələri dünya miqyasında diqqətçəkən unikal model kimi çıxış edir. Bu təcrübənin Ukrayna ilə bölüşülməsi gələcək əməkdaşlıq üçün mühüm perspektivlər açır.

Siyasi müstəvidə əməkdaşlığa gəlincə isə Azərbaycan belə məsələlərdə hər zaman balanslaşdırılmış və prinsipial mövqe nümayiş etdirir. Ölkəmiz öz xarici siyasətini milli maraqları əsasında formalaşdırır və bu siyasət heç bir halda üçüncü dövlətlərə qarşı yönəlmir. Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünü, suverenliyini beynəlxalq hüququn əsas prinsipi kimi dəstəkləyir. Bu yanaşma ölkəmizin öz tarixindən - uzun illər ərazi bütövlüyünün pozulmasından əziyyət çəkməsindən qaynaqlanır.

Eyni zamanda Azərbaycan Ukrayna ilə Rusiya arasında baş verən münaqişədə hərbi iştirakdan kənarda qalır və münaqişənin yalnız dialoq və qarşılıqlı anlaşma yolu ilə həllinin tərəfdarı kimi çıxış edir. Bu kontekstdə Azərbaycan potensial olaraq neytral və etibarlı platforma rolunu oynaya bilər. Regionda diplomatik mərkəz kimi formalaşan Azərbaycan müxtəlif tərəflər arasında etimad mühitinin yaradılmasına töhfə vermək imkanına malikdir.

Azərbaycanın xarici siyasətində mühüm cəhətlərdən biri də müxtəlif tərəflərlə paralel və balanslı münasibətlər qurmaq bacarığıdır. Tarix göstərir ki, regionda ən gərgin geosiyasi şəraitdə belə ölkəmiz həm Rusiya, həm də digər qonşu dövlətlərlə konstruktiv əlaqələri qoruyub saxlamışdır. Bu praqmatik yanaşma bu gün də davam edir və Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirir.

**Gələcəyə birgə baxış**

İqtisadi sahədə də Azərbaycan-Ukrayna əməkdaşlığının geniş potensialı mövcuddur. Xüsusilə enerji sektorunda qarşılıqlı fəaliyyət imkanları diqqətəlayiqdir. Azərbaycanın enerji layihələri geniş coğrafiyanı əhatə edir və bu təcrübə Ukrayna ilə əməkdaşlıq üçün əlavə imkanlar yaradır. Eyni zamanda SOCAR-ın Ukraynada fəaliyyət göstərən yanacaqdoldurma məntəqələri ikitərəfli iqtisadi əlaqələrin real və praktiki göstəricisidir.

Bütün bunlar göstərir ki, Azərbaycan-Ukrayna münasibətləri təkcə siyasi və iqtisadi maraqlarla məhdudlaşmır. Bu əlaqələr humanitar dəyərlər, qarşılıqlı dəstək və gələcəyə birgə baxış üzərində qurulub. Mövcud reallıqlar fonunda bu münasibətlərin daha da inkişaf edəcəyi və yeni məzmun qazanacağı gözləniləndir. Azərbaycan Prezidenti bəyanatının sonunda demişdir: "...Son dörd il ərzində prezidentlər səviyyəsində yeddi görüşün keçirilməsi, - sonuncu görüş iki ay bundan əvvəl Münxen şəhərində olmuşdur, - gözəl göstəricidir. Bu, əlaqələrimizin nə qədər dinamik olmasından xəbər verir. Biz bu gün qarşılıqlı hörmətdən, qarşılıqlı maraqların təmin edilməsindən danışırıq. Əminəm ki, bugünkü səfər Azərbaycan-Ukrayna dostluq əlaqələrinin inkişafına növbəti mühüm töhfə olacaqdır".

*İradə ƏLİYEVA, "Azərbaycan"*

## Dara düşənə kömək əli uzatmaq

### Azərbaycanın enerji siyasətində də əsas istiqamətlərdən biridir



**Son bir neçə ildə Ukraynanın adı gələndə ilk növbədə bu ölkədə qanlı-qadalı müharibə getdiyi yada düşür. Xüsusilə bizim, Azərbaycan xalqının fikrinə gələn birinci bu olur. Çünki biz uzun illər müharibənin gətirdiyi fəlakətdən, itki və ağrılardan çox əziyyət çəkmişik. Buna görə və həm də ümumiyyətlə, xeyirxah xalq olduğumuz, dövlətimiz humanist siyasət yeritdiyi üçün müharibədən əziyyət çəkən xalqlara həmişə mənəvi və maddi kömək göstərmişik.**

Bu gün də belədir. Uzaqlığından, yaxınlığından asılı olmayaraq, müharibə fəlakətləri ilə üz-üzə qalan insanlara dəstək oluruq. Ukraynaya göstərdiyimiz dəstək özünü enerji sahəsində də aydın büruzə verir.

Qeyd edək ki, Azərbaycan-Ukrayna enerji əməkdaşlığının tarixi xeyli əvvəl başlanıb. SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) bu ölkədə geniş yanacaqdoldurma məntəqələri (YDM) şəbəkəsinə malikdir. Ölkənin müxtəlif bölgələrində 100-dən çox müasir, yüksəkkeyfiyyətli yanacaq və əlavə xidmətlər təklif edən SOCAR brendli YDM fəaliyyət göstərir. Şəbəkə 10-dan çox vilayətdə işləyən və təhlükəsizlik sığınacaqları ilə təchiz olunan neçə-neçə YDM-dən ibarətdir. Kiyev-Odessa və Kiyev-Lvov magistrallarında sürətli enerjidoldurma stansiyaları və ilk operatorsuz avtomatik komplekslər fəaliyyət göstərir.

YDM-lərdə yüksəkkeyfiyyətli "Nano" markalı yanacaq, mağaza və kafe xidmətləri mövcuddur. Odur ki, SOCAR-ın Ukraynadakı şəbəkəsi yüksək xidmət səviyyəsinə görə yerli reytinqlərdə liderlər sırasındadır.

Ukraynaya Azərbaycan qazının ixracı isə orada müharibə getdiyi dövrdə baş verdi. Belə ki, keçən il Ukraynanın "Naftogaz" Şirkətlər Qrupu SOCAR qrupuna daxil olan "SOCAR Energy Ukraine" şirkəti ilə Azərbaycan təbii qazının alınması haqqında ilk müqaviləni imzalamışdı. Həmin müqaviləyə əsasən, iyul ayında Ukrayna ilk dəfə olaraq Azərbaycan qazını almağa başlamışdı. Bununla bağlı məlumatda "Naftogaz" bildirmişdi ki, Azərbaycan qazının Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Trans-Balkan marşrutu ilə sınaq tədarükü həyata keçirilir.

Ekspertlər Azərbaycan qazının Ukraynaya tədarükünün geosiyasi, iqtisadi və sosial baxımdan əhəmiyyətli olduğunu deyirlər. Onların fikrincə, ümumiyyətlə, Azərbaycan qazının ixrac coğrafiyasının genişlənməsinin siyasi-iqtisadi əhəmiyyəti böyükdür. Əvvəla, Azərbaycan qazının Avropaya çatdırılması və oradan da geriyə dönərək Ukraynaya daxil olması prosesinin özü diqqətəlayiqdir. Doğrudur, bu, əvvəlcədən müəyyən edilmiş həcmdə qazın bölgüsü çərçivəsində baş verir. Lakin hər bir halda Azərbaycanın qaz ixrac coğrafiyasının genişlənməsi və xüsusilə Ukrayna istiqamətində yeni bir mərhələnin başlanması mühüm əhəmiyyət daşıyır. Vacib bir məsələ də odur ki, bu yanacaq istiliyə ehtiyacı olan insanlar, onların məişəti, iş yerləri üçün gərəkdir.

Yeri gəlmişkən onu da xatırladaq ki, Azərbaycandan Ukraynanın xəstəxanaları və əhalisi üçün dəfələrlə elektrik generatorları göndərilib.

Təsadüfi deyil ki, Ukrayna Prezidenti Volodimir Zelenski bu il aprelin 25-də Azərbaycana işgüzar səfəri çərçivəsində Qəbələdə mətbuata verdiyi bəyanatda ölkəsinin enerji təchizatı üçün belə çox ağır bir dövrdə bizdən 11 yardım paketi aldıqlarını deyib. Azərbaycana bu yardıma görə öz təşəkkürünü bildirib.

Qəbələdəki tədbirlərdə iki ölkə arasında bir çox istiqamət üzrə əməkdaşlıq edildiyi vurğulanıb. Prezident İlham Əliyev mətbuata bəyanatında bildirib ki, həmin əməkdaşlıq bu gün bir daha təsdiqləndi.

Müzakirə edilən məsələlər arasında siyasi dialoqdan başqa, xüsusilə energetika sahəsində də əməkdaşlığı qeyd edən dövlətimizin başçısı deyib: "Burada həm əldə edilmiş nailiyyətlər var, - SOCAR Ukraynada uzun illərdir ki, uğurla fəaliyyət göstərir, - eyni zamanda çox gözəl perspektivlər var, birgə layihələr var".

Beləliklə, Azərbaycan-Ukrayna iqtisadi əlaqələri sırasında enerji sahəsində əməkdaşlıq əsas yeri tutur və həm təcrübəyə, həm də potensiala əsaslanır. Azərbaycanın enerji sahəsində əməkdaşlıq əlaqələrinin geniş coğrafiyanı əhatə etdiyi artıq bütün dünyaya bəllidir. SOCAR-ın bir sıra ölkələrdə olduğu kimi, Ukraynada da yanacaqdoldurma məntəqələri fəaliyyət göstərir. Bu da ikitərəfli biznes əlaqələrinin inkişafına töhfədir. Qəbələ görüşlərində bu, bir daha vurğulandı.

Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə geniş tərkibdə görüşündəki söhbət zamanı dövlətimizin başçısının Volodimir Zelenski ilə əvvəlki görüşləri məmnunluqla xatırlanıb, bu səfərinin ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminlik bildirilib. Əməkdaşlığın bir çox istiqamətdə, o cümlədən enerji sahəsində genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb, kənd təsərrüfatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olunub, Hökumətlərarası Komissiyanın fəaliyyətinə toxunulub.

Qəbələ görüşü bir daha təsdiqləyir ki, Azərbaycanla Ukrayna arasında olan münasibətlər hər iki xalqın maraqlarına uyğun inkişaf etdirilir.

*Flora SADIQLI, "Azərbaycan"*

## *Kadir Uğur YILMAZ:* "Orta dəhlizin turizm potensialı türk dünyasının geosiyasi çəkisini artıra bilər"

**"Qlobal səviyyədə ticarət marşrutlarının yenidən formalaşdığı, enerji xətlərinin dəyişdiyi və geosiyasi balansın sürətlə transformasiya olunduğu bir dövrdə turizm sektoru yeni funksional məzmun qazanır".**

Bunu AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi ekspert və jurnalist Kadir Uğur Yılmaz bildirib.

Ekspertin sözlərinə görə, müasir dünyada turizm təkcə xidmət sahəsi deyil, dövlətlərin yumşaq güc alətidir.

"Turizm vasitəsilə ölkələr öz mədəniyyətini, tarixini və dəyərlərini təqdim etməklə yanaşı, beynəlxalq ictimai rəydə mövqelərini möhkəmləndirirlər. Bu baxımdan ortaq mədəni köklərə malik türk dövlətləri üçün turizm əməkdaşlığı xüsusi strateji resurs kimi çıxış edir. Türkiyədən başlayaraq Azərbaycan, Xəzər hövzəsi vasitəsilə Türkmənistan, Qazaxıstan və digər Orta Asiya ölkələrinə uzanan Orta dəhliz üzərində unikal və çoxşaxəli turizm potensialı mövcuddur. Bu coğrafiya İpək yolu şəhərləri, islam sivilizasiyasının mühüm mərkəzləri, qədim karvan yolları, köçəri həyat tərzinin izləri, zəngin etnoqrafik irs və müxtəlif təbii landşaftları ilə seçilir. Burada həm tarix, həm mədəniyyət, həm də təbiət turizmi üçün geniş imkanlar var. Əslində, bu marşrut adi turizm xətti deyil, bütöv bir sivilizasiya marşrutudur.



Türk dövlətləri turizm sahəsində əsasən fərdi şəkildə fəaliyyət göstərir. Tanıtım kampaniyaları ayrı-ayrılıqda aparılır, viza və sərhəd prosedurlarında tam uyğunlaşma təmin edilməyib, ortaq tur paketləri isə kifayət qədər inkişaf etməyib. Bundan əlavə, statistik məlumatların və turizm göstəricilərinin paylaşımı da məhdud səviyyədədir. Bu amillər regionun vahid turizm məkanı kimi çıxış etməsinə mane olur", - deyə Kadir Uğur Yılmaz əlavə edib.

Ekspert hesab edir ki, mövcud vəziyyəti dəyişmək üçün institusional yanaşma vacibdir: "Mədəni sahədə TÜRKSOY müəyyən uğurlu model formalaşdırıb. Lakin artıq bu modelin turizm sahəsinə uyğunlaşdırılması zəruridir. Türk dünyası çərçivəsində ortaq turizm əməkdaşlıq mexanizminin yaradılması - vahid brend strategiyası, ortaq marşrutların hazırlanması, beynəlxalq sərgilərdə koordinasiyalı iştirak və rəqəmsal platformaların inteqrasiyası baxımından mühüm nəticələr verə bilər. Belə bir mexanizmin yaradılması bir sıra mühüm üstünlüklər qazandıra bilər. İlk növbədə region ayrı-ayrı ölkələrdən ibarət deyil, vahid turizm destinasiya kimi təqdim oluna bilər. Bu isə turistlərin səfər müddətinin uzanmasına, xərclərin artmasına və ümumi iqtisadi faydanın genişlənməsinə səbəb olacaq. Eyni zamanda mədəni qarşılıqlı təsir güclənəcək, xalqlar arasında birbaşa ünsiyyət genişlənəcək və ortaq kimlik hissi daha da möhkəmlənəcək".

K.U.Yılmaz əlavə edib ki, bu model gənclər üçün də yeni imkanlar yarada bilər: "Turizm sektoru əmək bazarı baxımından geniş imkanlar təqdim edir. Xidmət sahələri, nəqliyyat, bələdçilik, rəqəmsal turizm platformaları kimi istiqamətlərdə yeni iş yerləri yaradıla bilər. Bu isə region ölkələrində sosial-iqtisadi inkişafı dəstəkləyən amillərdən biridir".

Ekspert Avropa təcrübəsinə də toxunaraq bildirib ki, inteqrasiya olunmuş turizm siyasəti ciddi nəticələr verir.

"Avropa İttifaqı ölkələrinin 'Şengen effekti' sayəsində turizm axınını necə artırdığı məlumdur. Sərhədlərin sadələşdirilməsi və vahid yanaşma turistlər üçün cəlbediciliyi artırır. Türk dünyası da özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq oxşar, lakin fərqli model formalaşdıra bilər. Müasir dövrdə rəqabət yalnız iqtisadi və hərbi güclə ölçülmür: "Bu gün insan axınını idarə edən, mədəni təsir imkanlarını genişləndirən və beynəlxalq əlaqələri dərinləşdirən aktorlar daha üstün mövqe qazanır. Turizm xalqlar arasında birbaşa əlaqə yaradır, qarşılıqlı etimadı gücləndirir və uzunmüddətli əməkdaşlıq üçün sosial baza formalaşdırır. Bu baxımdan Orta dəhlizin turizm komponentinin inkişafı türk dünyasının gələcək inteqrasiyası və qlobal mövqeyinin möhkəmləndirilməsi üçün açar rol oynaya bilər", - deyə K.U.Yılmaz əlavə edib.

# Böyük alim, məşhur həkim, işıqlı insan

**XX əsr Azərbaycan tarixinin ən parlaq yaradıcı simaları sırasında xüsusi yer tutan, görkəmli elm və səhiyyə xadimi, tibb elmləri doktoru, akademik Zərifə xanım Əliyeva öz zəngin elmi irsi, milli-mənəvi dəyərlərə sədaqəti, yenilikçiliyi və yüksək humanist keyfiyyətləri ilə xalqımızın yaddaşında əbədi iz qoymuşdur. Onun adı ictimai fikir tariximizdə daim dərin ehtiramla xatırlanan, zamanın sınağından çıxmış nadir şəxsiyyətlər sırasında qızıl hərflərlə həkk olunub.**



Zəngin ziyalı ənənələrinə malik bir ailənin davamçısı kimi yetişən Zərifə xanım dünya tibb elminə mühüm töhfələr vermiş böyük oftalmoloq olmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ana kimi də örnək bir həyat yolu keçmiş, Ulu Öndərin ən yaxın silahdaşı olmuş, Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə çatdıran, böyük Zəfərimizin müəllifi olan İlham Əliyevin şəxsiyyət kimi formalaşmasında ana kimi mühüm rol oynamışdır.

Onun həyatının hər mərhələsi yüksək mənəviyyatın, müdrikliyin, insanpərvərliyin təcəssümüdür. Fitri istedadı, geniş dünyagörüşü və güclü intellekti ilə seçilən bu görkəmli alim bütün ömrünü insanların, insanlığın rifah və xoşbəxtliyinə həsr etmişdir.

## Nurun sorağı ilə

Akademik Zərifə Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvanın Şahtaxtı kəndində Azərbaycan tarixində nəcib izlər qoymuş görkəmli dövlət xadimi, Əməkdar həkim, professor Əziz Əliyevin ailəsində dünyaya gəlmişdir. Sonradan köçüb yaşamağa başladıqları Bakıda orta məktəbi bitirəndə gərgin bir dövr idi. Bəşəriyyət İkinci Dünya müharibəsi kimi çətin bir sınaqdan keçirdi. Belə bir vaxtda orta məktəbi başa vuran Zərifə Əliyeva həyat yolunu insan sağlamlığının qorunmasına həsr etmək qərarını verdi. Bu məqsədlə o, Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil oldu. 1947-ci ildə ali təhsilini uğurla başa vurduqdan sonra Moskvada yerləşən Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya ixtisası üzrə biliklərini daha da dərinləşdirməyə başladı.

Elmi tədqiqata böyük sevgi, bağlılıq Zərifə xanımı tezliklə Azərbaycan SSR Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Oftalmologiya İnstitutuna gətirdi və o, 1949-cu ildən burada fəaliyyətə başladı. Aspirantura mərhələsini 1950-1953-cü illərdə uğurla tamamlayıb sonrakı illərdə həmin institutda böyük elmi işçi kimi fəaliyyət göstərdi.

XX əsrin ortalarında respublikada geniş yayılmış traxoma xəstəliyi ciddi sosial bəlaya çevrilmişdi. Effektiv müalicə üsullarının hələ tam formalaşmadığı həmin dövrdə bu xəstəliklə mübarizə təkcə oftalmoloqlar üçün deyil, bütövlükdə səhiyyə sistemi üçün strateji əhəmiyyət daşıyırdı. Zərifə Əliyeva traxomanın qarşısının alınması və müalicəsi istiqamətində həyata keçirilən tədbirlərin ön sıralarında yer alırdı. O, yalnız elmi araşdırmalarla kifayətlənmir, eyni zamanda xəstəliyin geniş yayıldığı bölgələrə səfərlər edir, həkimlər üçün mühazirələr oxuyur, əhali arasında maarifləndirmə işləri apararaq praktik səhiyyə sahəsində əvəzsiz xidmətlər göstərirdi. O illərdə Zərifə xanım fədakar əməyi ilə nə qədər insanın gözünün nurunu qorumuşdu.

## Unudulmaz müəllim

Zamanın çağırışları Zərifə Əliyevanın elmi axtarışlarının istiqamətini də müəyyənləşdirmişdi. Onun tədqiqatları xüsusilə traxomanın müalicəsi və ağırlaşmalarının aradan qaldırılması yollarına həsr olunmuşdur. Gənc alim həmin dövr üçün yeni sayılan sintomisin antibiotikinin tətbiq imkanlarını dərindən araşdırmışdır. Gəldiyi elmi nəticələri o, 1960-cı ildə "Traxomanın sintomisinlə digər terapiya üsulları ilə birgə müalicəsi" mövzusunda namizədlik dissertasiyasında uğurla təqdim edərək tibb elmləri namizədi elmi dərəcəsinə layiq görüldü. 1963-cü ildə isə ona oftalmologiya ixtisası üzrə baş elmi işçi adı verildi.

Zərifə xanımın elmi-pedaqoji fəaliyyətinin yeni mərhələsi 1967-ci ildən başladı. Həmin il Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent kimi dəvət olundu və ömrünün sonunadək bu elm ocağında çalışdı. 1983-cü ildə isə o, kafedraya rəhbərlik etməyə başladı. Bu dövrdə alim yalnız nəzəri fəaliyyətlə kifayətlənmir, eyni zamanda mürəkkəb cərrahi əməliyyatlar aparır, xəstələrin müalicəsində birbaşa iştirak edir, onların sağlamlığı üçün səylərini əsirgəmirdi. Zərifə xanımın fəaliyyəti oftalmoloji xidmətin təşkili, mütəxəssislərin hazırlanması, ixtisasartırma prosesinin təkmilləşdirilməsi kimi geniş sahələri əhatə edirdi.

Zərifə Əliyevanın ən böyük xidmətlərindən biri də yüksəkixtisaslı kadrların yetişdirilməsinə verdiyi töhfələrdir. Onun rəhbərliyi altında gənc alimlərin və oftalmoloq həkimlərin bütöv bir nəsli formalaşmış, zəngin elmi təcrübə və praktik biliklər yeni nəslə ötürülmüşdür. O, tələbələrinə yüksək diqqət və qayğı ilə yanaşaraq onları peşəkar, məsuliyyətli mütəxəssislər kimi yetişdirirdi. Zərifə xanım ətrafına istedadlı və savadlı gəncləri cəlb etməklə elmi-tədqiqat mühitini uğurla təşkil edirdi. 1977-ci ildə onun təşəbbüsü ilə Bakıda keçirilən Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu yüksək təşkilatçılıq bacarığı tələb edən mühüm hadisə idi və bu məsuliyyətli işi alim uğurla həyata keçirmişdi. Həmin toplantı həm Azərbaycanda, həm də keçmiş ittifaq məkanında oftalmologiya sahəsinin inkişafına, elmi və pedaqoji kadrların hazırlanmasına ciddi təkan verdi.

## Dəyərli əsərlər müəllifi

Milli oftalmologiya məktəbinin formalaşmasında müstəsna rol oynamış Zərifə Əliyeva 1968-ci ildən etibarən görmə orqanının peşə patologiyalarının öyrənilməsini fəaliyyətinin əsas istiqamətlərindən birinə çevirmiş, bu sahədə irəli sürdüyü yeni elmi yanaşmalarla beynəlxalq elmi ictimaiyyətin diqqətini cəlb etmişdir. Onun uzun illər apardığı müşahidə və klinik araşdırmaların nəticələri 1976-cı ildə Moskvada nüfuzlu M.Helmholts adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etdiyi "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasında ümumiləşdirilmişdir. Bu uğurun davamı olaraq, bir il sonra ona professor elmi adı verilmiş, 1983-cü ildə isə elmi və təşkilati fəaliyyətində qazandığı mühüm nəticələrə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Oftalmologiyanın müxtəlif sahələrini əhatə edən 150-dən artıq elmi məqalənin, 14 monoqrafiyanın müəllifi kimi onun zəngin elmi irsi bu gün də aktuallığını qoruyur, yazdığı əsərlər və monoqrafiyalar müasir oftalmoloqlar üçün etibarlı istinad mənbəyi kimi istifadə olunur.

Akademikin çoxillik tədqiqatları nəticəsində istehsalat mühitində aşağı intensivlikli zərərli amillərin görmə orqanına təsir mexanizmləri ilk dəfə sistemli şəkildə araşdırılmış, mühüm qanunauyğunluqlar üzə çıxarılmışdır. Zərifə xanımın elmi maraq dairəsi olduqca geniş idi. Traxomanın klinik xüsusiyyətlərindən başlayaraq görmə orqanının fiziologiyası, peşə xəstəlikləri fonunda yaranan göz patologiyalarının profilaktika və müalicəsi, kimya sənayesində çalışanların görmə sağlamlığı, virus mənşəli göz xəstəlikləri, o cümlədən ağır konyunktivitlər, gözün hidrodinamik sistemi, müasir cərrahiyyə üsulları ilə müalicə metodları, şəkərli diabet zamanı yaranan göz fəsadları, terapevtik oftalmologiya, iridodiaqnostika və qlaukoma kimi problemlər daim onu düşündürürdü.

Böyük alim göz travmalarının nəticələrinin cərrahi müalicəsində istifadə olunan mövcud metodları dərindən təhlil etmiş, onların daha effektiv şəkildə tətbiqi üçün praktik əhəmiyyət daşıyan təkliflər irəli sürmüşdür. Alimin diqqət yetirdiyi digər mühüm istiqamətlərdən biri də gözün bədxassəli şişləri olmuş, o cümlədən göz melanomasının klinik xüsusiyyətlərini ətraflı şəkildə öyrənmişdi. Dakriologiya sahəsində yazdığı "Göz yaşı drenajının fiziologiyası", "Göz yaşı axmasının cərrahi müalicəsinin müasir üsulları", "Göz yaşı yollarının ehtiyatlı cərrahiyyəsi" kimi fundamental əsərlər yalnız oftalmoloqlar üçün deyil, fizioloqlar üçün də zəngin mənbədir. Zərifə xanım Əliyevanın həmmüəllifi olduğu "Terapevtik oftalmologiya", "İridologiyanın əsasları", "Oftalmologiyanın aktual məsələləri" kimi monoqrafiyalar isə həm həkimlər, həm də müəllim və tələbələr üçün aktuallığını hər zaman qoruyur.

## Böyük ürək sahibi

Zərifə xanım həkim peşəsinin mənəvi tərəflərinə də xüsusi önəm yetirir, tibbi etika məsələlərini daim diqqət mərkəzində saxlayırdı. Onun həkim davranışı və peşə məsuliyyəti barədə irəli sürdüyü fikirlər, çoxsaylı çıxış və məqalələri, eləcə də "Uca çağırış" adlı əsəri tibb işçilərinin etik formalaşmasına mühüm təsir göstərmişdir.

Zərifə xanımın belə bir kitab yazmağa tam haqqı çatırdı, çünki o şəxsiyyət olaraq bu kitabda yazdıqlarının canlı örnəyi idi; bütün fəaliyyəti insan amilinə söykənir, atdığı hər addımda humanizm və mərhəmət prinsipləri əsas götürülürdü. Sadə insanlara göstərdiyi diqqət və qayğını, onların problemlərinə həssas münasibətini Zərifə xanım həkimlik missiyasının ayrılmaz hissəsinə çevirmişdi.

Görkəmli alim "Yüksək əqidə" (həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı) əsərində yazırdı: "Həkimin fəaliyyətinin əsasını xəstənin həkimə inamı, onların arasında sıx əlaqənin yaranması, bir-birini yaxşı başa düşməsi təşkil edir. Həkim çox səbirli olmalıdır. O, xəstənin daxili aləminə girib, onu başa düşməsi üçün "Şəhrizad"ın uzun-uzadı nağılını dinləməyi bacarmalıdır. İnsanın və xüsusilə xəstənin daxili aləmi də onun orqanizmi kimi mürəkkəbdir.

Xəstəyə düzgün münasibət onun sənətinin əsas mahiyyətlərindəndir. Bəzən həkim xəstəyə yardım göstərərkən (bu həm mənim, həm də həmkarlarımın təcrübəsində olub) xəstəliyin xüsusiyyətlərindən asılı olaraq, həkim xəstənin və onun qohumlarının yersiz məzəmmətlərini, acı sözlərini, hətta hədələrini dinləməyə məcbur olur. Başqa sənət sahibi olanlar inciyərək təhqir edəndən imtina edərdi, üstünə qışqırıb qovardı. Lakin həkim belə hərəkəti özünə rəva bilmir, özünün təhqir olunmuş hissiyyatını və həyəcanını büruzə verməyə ixtiyarı yoxdur.

...Həkim xeyirxah olmalıdır. Həkimin ürəkaçıqlığı xəstə və onun qohumları arasında mənəvi ünsiyyətin yaranmasında ən yaxşı vasitədir. Həkimin fəaliyyətində formalizm (xəstə mənim sahəmdən deyil, mən məşğulam. başqa vaxt gəlin və s.) olmamalıdır.

Eyni zamanda aparılan müalicənin müvəffəqiyyəti həkimlə xəstə arasında əmələ gəlmiş mənəvi kontaktdan, xəstənin özünün və qohumlarının həkimə münasibətindən çox asılıdır. Ona görə də XIII əsrdə yaşamış suriyalı həkim Əbül Fərədis xəstəyə müraciət edəndə deyirdi: "Biz üçük - sən, xəstəlik və mən. Əgər sən xəstəlik ilə birləşsən, siz ikiləşəcəksiniz, mən tək qalacağam, o zaman siz mənə qalib gələcəksiniz. Əgər sən mənimlə olsan, onda biz ikiləşərik, xəstəlik tək qalar - biz birlikdə xəstəliyə qalib gələrik".

Həkimlik fəaliyyətinin xüsusiyyəti xəstə ilə həkim arasında həqiqi hörmət, həkimin xəstənin əziyyətini yüngülləşdirmək üzərində qurulmalıdır. Bunun nəticəsində tibb işçilərinin müəyyən hüquqi və ixtisas borcu var. Həkimin əsas borcu xəstəyə imkan dairəsində nə varsa, hamısını edib onu sağaltmaqdır". Zərifə xanımın bu fikirləri onun həm də özünəməxsus həkim fəlsəfəsinin, xəstələrə yanaşma üsulu, prinsiplərinin olmasını göstərir.

## Yenilikçi alim

1977-ci ildə Bakıda keçirilən Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumunda Zərifə Əliyevanın təşəbbüsü ilə görmə orqanının peşə patologiyalarının öyrənilməsi üzrə ixtisaslaşmış elmi-tədqiqat laboratoriyasının yaradılması ideyası dəstəklənmişdi. Bunun nəticəsi olaraq Bakı Məişət Kondisionerləri Zavodunda nadir elmi mərkəz fəaliyyətə başlamış, burada klinik və funksional diaqnostika ilə yanaşı, cərrahi xidmət də təşkil olunmuşdur.

Zərifə Əliyevanın görmə orqanına ətraf mühit amillərinin təsir mexanizmlərini və qanunauyğunluqlarını araşdıran fundamental tədqiqatları tibb elminin sərhədlərini genişləndirərək biotibb və xüsusilə fiziologiya kimi multidissiplinar istiqamətlərin bu sahəyə inteqrasiyasını zəruri etmişdi. Məhz bu elmi yanaşma onun fəaliyyət yolunun mühüm bir hissəsini akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu ilə sıx bağlamışdı. Alimin təşəbbüsü və birbaşa rəhbərliyi ilə 1979-cu ildə burada keçmiş SSRİ məkanında ilk dəfə olaraq görmə orqanının fiziologiyası və peşə patologiyası üzrə ixtisaslaşmış laboratoriya yaradılmışdı.

Laboratoriyanın ilkin elmi proqramının "Müxtəlif kimyəvi faktorların təsiri şəraitində işləyən insanların görmə orqanının kliniki-fizioloji və morfohistokimyəvi xüsusiyyətləri" mövzusu ətrafında qurulması dövrün reallıqlarından irəli gəlirdi. Ötən əsrin 70-ci illərində bura Azərbaycan kimya sənayesinin əsas mərkəzlərindən biri kimi formalaşmışdı və həmin səbəbdən aparılan tədqiqatların əsas məqsədi istehsalatda istifadə olunan kimyəvi maddələrin görmə orqanına uzunmüddətli təsirinin kompleks şəkildə öyrənilməsi, eləcə də erkən diaqnostika üsullarının işlənib hazırlanması idi. Həmin dövrdə tibb elminin qarşısında duran mühüm məsələlərdən biri də az dozalı, lakin davamlı təsir göstərən zərərli amillərin yaratdığı qeyri-spesifik patologiyaların araşdırılması sayılırdı. Bu kontekstdə orqanizmin adaptiv-kompensator mexanizmlərinin öyrənilməsi xüsusi aktuallıq kəsb edirdi.

Zərifə Əliyeva elmdə ilk dəfə olaraq yod və şin sənayesində çalışan işçilərdə görmə orqanının peşə xəstəliklərini sistemli şəkildə tədqiq etmiş, onların profilaktikasına dair konkret elmi-praktik tövsiyələr irəli sürmüşdür. Onun analoqu olmayan genişmiqyaslı araşdırmaları respublikanın ondan artıq iri sənaye müəssisəsini, o cümlədən neftayırma zavodlarını əhatə etmiş, 4000-dən çox fəhlə və mütəxəssis bu tədqiqatlara cəlb olunmuşdur. Bu işlər, əslində, elmlə istehsalatın qarşılıqlı əlaqəsinin necə qurulmalı olduğunu nümayiş etdirən nümunəvi model kimi qiymətləndirilməlidir.

Apardığı tədqiqatların yüksək elmi nəticələri, tibb elminə, insan sağlamlığına töhfələri öz layiqli dəyərini almışdır. Akademik Zərifə Əliyeva 1981-ci ildə qadın alimlər arasında ilk dəfə olaraq oftalmologiya sahəsində ən nüfuzlu mükafatlardan biri olan M.İ.Averbax adına mükafatla təltif edilmişdir.

Zərifə Əliyeva oftalmoloji müayinələrin ənənəvi üsulları ilə kifayətlənməyərək, elmi praktikaya ilk dəfə geniş şəkildə elektrofizioloji metodların tətbiqinə də öncüllük etmişdir. Onun təşəbbüsü ilə toksik maddələrlə təmasda olan işçilər üzərində aparılan elektroretinoqrafiya, elektrookuloqrafiya və reooftalmoqrafiya kimi müayinələr torlu qişanın hüceyrə strukturlarında baş verən funksional dəyişikliklərin erkən mərhələdə müəyyənləşdirilməsinə imkan yaratmışdır. Paralel şəkildə həyata keçirilən eksperimental araşdırmalar isə zərərli kimyəvi və fiziki amillərin torlu qişanın fəaliyyətinə, sərbəst radikal proseslərinə və neyromediator balansına təsirini üzə çıxarmış, bu nəticələr bu gün də elmi ictimaiyyət üçün aktuallığını qorumaqdadır.

Alimin rəhbərliyi ilə Salyan rayonunda kənd təsərrüfatı sahəsində çalışan və pestisidlərlə təmasda olan təxminən 500 nəfəri əhatə edən genişmiqyaslı tədqiqat işi də mühüm nəticələrlə yadda qalmışdır. Bu araşdırma ilk dəfə olaraq kənd təsərrüfatı işçilərində görmə orqanının vəziyyəti barədə sistemli məlumatların əldə olunmasına şərait yaratmış, eyni zamanda pestisidlərin təsiri altında gözün ön şöbəsində iltihabi xəstəliklərin yayılma səviyyəsinin nəzərəçarpacaq dərəcədə artdığını sübut etmişdir.

## Şəxsiyyəti də peşəsi kimi işıqlı idi

Zərifə Əliyevanın elmi maraq dairəsində yaş amilinin görmə sistemi üzərində təsiri də xüsusi yer tuturdu. Onun "Gözün və görmə-sinir traktının yaş dəyişmələri" adlı fundamental əsəri görkəmli rus oftalmoloqu A.Brovkina tərəfindən yüksək qiymətləndirilmiş və bu tədqiqat oftalmologiyada yeni bir istiqamətin - oftalmoloji gerontologiyanın əsasını qoyan iş kimi dəyərləndirilmişdir. Bu əsərin əhəmiyyəti bu gün də akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda aparılan müasir gerontoloji araşdırmalar fonunda daha aydın görünür.

Zərifə xanımın elmi fəaliyyəti bir çox görkəmli alimin xatirələrində öz əksini tapmışdır. Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru K.V.Trutneva yazırdı: "Zərifə xanım hər şeydən əvvəl görkəmli alim-oftalmoloqdur. Təkcə oftalmoloqmu?! O eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq idi. Onun elmdə məqsədyönlü fəaliyyəti indi də insanı valeh edir. Axı onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyası müəyyənləşdirirdi. Bu problemin həllinə çoxları girişə bilmirdi. Çünki elmin bu sahəsi olduqca ağırdır və onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi bilgilər tələb edir. Üstəlik, yüksək təşkilatçılıq bacarığı da vacibdir. Məhz bütün bu keyfiyyətlər Zərifə xanım Əliyevaya xas idi". Əməkdar elm xadimi, professor N.B.Şulpina danışırdı ki, Zərifə xanım xəstəyə təcili diaqnoz qoymağa tələsmirdi: "Bir növ xəstənin daxili aləmini öyrənməyə çalışırdı. Bu həkim xəstənin yaşayış tərzini, vərdişlərini, şikayətini və xəstəliyin baş vermə səbəblərini aydınlaşdırmağa səy göstərirdi. Onun fikrincə, yalnız belə olduqda obyektiv klinik müayinə əsasında düzgün müalicə təyin etmək mümkündür". Akademik N.Puçkovskaya isə "Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək onun yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulayıb.

Alimin elmi fəaliyyətini yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyev demişdir: "Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də gözün müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".

Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında oxuyuruq: "Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır".

❖ ❖ ❖

Zərifə Əliyeva yalnız alim kimi deyil, həm də fəal ictimai xadim kimi geniş fəaliyyət göstərmişdir. O, SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin və Elmi-Tədqiqatlar Komitəsi Rəyasət Heyətinin, həmçinin SSRİ Oftalmoloqlar Cəmiyyətinin üzvü kimi elmi-ictimai proseslərdə fəal iştirak etmiş, "Oftalmologiya bülleteni" jurnalının redaksiya heyətində təmsil olunmuşdur.

Bu böyük alim və şəxsiyyətin dövlət və cəmiyyət qarşısındakı xidmətləri yüksək qiymətləndirilmişdir. O, müxtəlif orden və medallarla təltif edilmiş, "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

*Zərifə Əliyeva yalnız böyük alim deyil, həm də əsl ziyalı idi. Onun yüksək intellekti, dərin biliyi, zərif davranışı, təmkin və nəcibliyi, insanlara olan səmimi münasibəti və peşəsinə sədaqəti bu obrazı əsas keyfiyyətlər kimi tamamlayırdı. O öz işığı ilə ətrafını nurlandıran, həm elmi, həm də mənəvi müstəvidə örnək sayılan nadir şəxsiyyətlərdən biri kimi yadda qalmışdır və hər zaman da belə xatırlanacaqdır.*

***Əhliman ƏMİRASLANOV,***
***akademik***

# Azərbaycanın mühüm logistika mərkəzi kimi əhəmiyyəti artır

## Bunun bir səbəbi Yaxın Şərqdə sonu görünməyən gərginlikdirsə, digər səbəbi ölkəmizin mükəmməl logistika infrastrukturuna malik olmasıdır

**ABŞ-İran müharibəsi bütün məlum fəsadlarla bərabər, Avropa ilə Asiya arasındakı ticarətə də xeyli ziyan vurub. İndi bu vəziyyətdən çıxmaq üçün yollar axtarılır. Bunun bağlı Qazaxıstanda Dəmir Yolları Əməkdaşlıq Təşkilatının (DYƏT - OSJD) Dəmir Yolu Rəhbərləri Konfransının 40-cı iclasında geniş müzakirə gedib.**

İclas iştirakçıları Avropa və Asiya arasında dəmir yolu daşımalarının genişləndirilməsi, bu sahədə əlaqələrin daha da gücləndirilməsi və tranzit imkanlarının artırılmasını əsas prioritetlərdən biri kimi qeyd ediblər. Tədbirdə eləcə də beynəlxalq dəmir yolu daşımaları sahəsində razılaşdırılmış nəqliyyat siyasətinin formalaşdırılması, dəmir yolu nəqliyyatının fəaliyyət, həmçinin DYƏT-in uzunmüddətli inkişaf strategiyasının hazırlanması məsələlərinə xüsusi diqqət yetirilib.



Görüşdə beynəlxalq nəqliyyat hüququnun təkmilləşdirilməsi istiqamətində aparılan işlər müzakirə edilməklə yanaşı, SMPS (Beynəlxalq sərnişin daşımaları haqqında Saziş) və SMGS (Beynəlxalq dəmir yolu yük daşımaları haqqında Saziş), eləcə də digər hüquqi sənədlər üzrə əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulanıb. Paralel olaraq dəmir yolu nəqliyyatının digər nəqliyyat növləri ilə müqayisədə rəqabət qabiliyyətinin artırılması məqsədilə yeni təşəbbüslərin hazırlanması və tətbiqi imkanları nəzərdən keçirilib.

İclas çərçivəsində dəmir yollarının istismarı və beynəlxalq daşımaların gələcək inkişafı ilə bağlı texniki məsələlər üzrə fəaliyyətin gücləndirilməsi, eləcə də dəmir yolu nəqliyyatı sahəsində fəaliyyət göstərən beynəlxalq və ixtisaslaşmış təşkilatlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində geniş müzakirə aparılıb. Tədbirdə qeyd olunan istiqamətlər üzrə birgə fəaliyyətin davam etdirilməsinin beynəlxalq nəqliyyat əlaqələrinin inkişafına mühüm töhfə verəcəyi vurğulanıb və DYƏT-ə üzv dövlətlərin dəmiryol administrasiyalarının rəhbərləri tərəfindən müzakirələrin yekunu üzrə konfransın protokolu imzalanıb.

Məlumdur ki, dünya ticarətində yüklərin avtomobillə daşınmasının payı yüksəkdir. Azərbaycanda isə beynəlxalq standartlara cavab verən magistral avtomobil yolları var. Elə Çinin Azərbaycandakı səfiri Lu Meyin ölkəsinin Azərbaycan üzərindən avtomobillə yükdaşımaların həcmini artırmağı hədəfləməsini bildirməsinin də səbəbi budur.

Çin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM, Orta dəhliz) ötürmə qabiliyyətinin artırılması üçün tərəfdaş ölkələrlə əməkdaşlığı davam etdirəcək. ÇXR eyni zamanda Azərbaycanla avtomobil yükdaşımaların həcmini artırmağa çalışır. Səfirin sözlərinə görə, Çində regional bağlantının gücləndirilməsi, iqtisadi inkişafın stimullaşdırılması və qlobal təchizat zəncirlərinin sabitliyinin təmin edilməsində bu marşruta böyük əhəmiyyət verilir: "Çin Azərbaycan tərəfi ilə birgə "Bir kəmər, bir yol" layihəsinin həyata keçirilməsini davam etdirəcək və TBNM-in ötürmə qabiliyyətini artıracaq. Həmçinin vurğulamaq istəyirəm ki, Çin iki ölkə arasında yol əlaqəsini və transsərhəd nəqliyyat əməkdaşlığını yeni səviyyəyə çıxarmaq üçün Azərbaycanla avtomobil daşımaları üzrə hökumətlərarası beynəlxalq sazişlərin imzalanmasına fəal şəkildə töhfə verməyə hazırdır".

Orta dəhlizin əsas hədəfi gündən-günə artan Asiya ilə Avropa ticarətinə töhfə verməkdir. Bununla bağlı Türkiyə Xarici İşlər Nazirliyinin Mərkəzi və Şimali Avropa üzrə şöbə müdiri, səfir Mustafa Pulat bildirib ki, Orta dəhliz layihəsini inkişaf etdirmək üçün Avropanın fəal olmasına ciddi ehtiyac var. Səfir qeyd edib ki, Orta dəhliz Avropa ölkələrinə də ciddi üstünlüklər qazandıra bilər. "Çünki bu layihə Avropa üçün təkcə alternativ yol, logistika deyil, həm də iqtisadi, geosiyasi, strateji transformasiya vasitəsidir" deyən türkiyəli diplomat söyləyib: "Avropa uzun müddətdir ki, Asiya ilə ticarətdə əsasən Rusiyadan keçən Şimal marşrutundan asılı idi. Orta dəhliz üzərində yerləşən ölkələr, xüsusilə Azərbaycan və Mərkəzi Asiya dövlətləri isə neft, qaz və alternativ enerji resursları ilə zəngin olduğuna görə Avropa yeni enerji mənbələrinə çıxış imkanı əldə edir. Avropa bu dəhliz vasitəsilə Qafqaz və Mərkəzi Asiyada iqtisadi mövcudluğunu da gücləndirəcək".

Yaxın Şərq regionundakı qeyri-sabitlik, müharibə və böhranın Orta dəhlizlə bağlı proseslərə mənfi təsir göstərdiyini bildirən səfir vurğulayıb ki, bu layihəni inkişaf etdirmək üçün Avropanın fəal olmasına ciddi ehtiyac var: "Orta dəhliz yalnız Türkiyə və Azərbaycana böyük üstünlüklər gətirməyəcək, həm də bu marşruta qoşulan bütün ölkələrə müsbət təsirini göstərəcək. Söhbət insanlıq tarixinin ən qədim ticarət yollarından birinin yenidən canlandırılmasından gedir. Bu baxımdan marşrutun Çin, Avropa İttifaqı və Türk Dövlətləri Təşkilatı çərçivəsində yenidən inkişaf etdirilməsi zəruridir".

Prezident İlham Əliyev və Latviya Prezidenti Edqars Rinkeviçsin iştirakı ilə keçirilən Azərbaycan-Latviya biznes-forumunda dövlətimizin başçısı ölkəmizin logistik imkanlarının dünya və Avropa üçün əhəmiyyətini vurğulayaraq demişdir: "Azərbaycan ərazisində aparılan bütün tikinti işləri tamamlanmışdır. İndi gördüyümüz işlər isə müasirləşməyə, yeni fiziki infrastrukturun yaradılmasına, rəqəmsallaşdırılmaya, o cümlədən süni zəka tərəfindən yaradılan imkanlara investisiyaların yatırılmasından ibarətdir ki, Azərbaycan ərazisindən daşımalar bugünkü geosiyasi vəziyyətdə nəinki təkcə ən təhlükəsiz, lakin eyni zamanda daşıma haqları və zaman nöqteyi-nəzərindən rəqabətli olsun. Burada investisiyalar üçün böyük imkanlar var, çünki bu gün Azərbaycan olmadan Şərq və Qərb arasında bağlantı problemlidir. Dediyim kimi, biz buraya çoxlu investisiyalar yatırmışıq və dost ölkələrlə, birbaşa qonşularımızla və qonşularımızın qonşuları ilə əməkdaşlıq edərək yüklər üçün təhlükəsiz və etibarlı nəqliyyat marşrutunu təmin edə bilmişik. Yeri gəlmişkən, Azərbaycan ərazisindən keçən yüklərin həcmi ildən-ilə artır".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Dostluğa və əməkdaşlığa əsaslanan tərəfdaşlıq

**Ciddi geopolitik dəyişikliklər və regional münaqişələr fonunda müstəqil xarici siyasət yürüdən ölkələr üçün humanizm prinsiplərinə söykənən milli maraqların effektiv müdafiəsi əsas prioritetlərdən biridir. Bu baxımdan Azərbaycan həm regionda, həm də bütövlükdə beynəlxalq münasibətlər sistemində çevik və çoxvektorlu xarici siyasət kursu qurmaq bacarığı ilə parlaq bir nümunədir.**



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında deyib ki, strateji mövqeyi, zəngin enerji resursları, balanslaşdırılmış və praqmatik diplomatiyası Azərbaycanı postsovet məkanı ölkələrinin, xüsusilə də Ukraynanın mühüm tərəfdaşlarından birinə çevirib. Bu gün mürəkkəb beynəlxalq şəraitdə Bakı və Kiyev arasındakı qarşılıqlı fəaliyyətin əsas xüsusiyyəti siyasi konyunktura deyil, tədricən uzunmüddətli tərəfdaşlığın təməlinə çevrilən humanitar ölçünün ardıcıl inkişafıdır. "Bakı ənənəvi olaraq münaqişələrdən zərərçəkmiş ölkələrə və xalqlara dəstək nümayiş etdirir ki, bu da yalnız beynəlxalq məsuliyyətlə deyil, həm də ölkənin öz tarixi təcrübəsi ilə bağlıdır. Onilliklər ərzində Azərbaycan hərbi qarşıdurmanın ağır nəticələri ilə üzləşib ki, bu da humanitar çağırışların, o cümlədən psixoloji aspektlərin miqyasına dair dərin anlayış formalaşdırıb. Bu mənada Bakının ukraynalı uşaqların reabilitasiyası proqramı mühüm göstəricidir. Bu, təkcə həmrəylik jesti deyil, həm də Ukrayna cəmiyyətinin gələcəyinə yatırılan investisiyadır. Eyni zamanda yaxın perspektivdə ukraynalı tələbələr üçün reabilitasiya proqramlarının işə salınmasını nəzərdə tutan dövlət təşəbbüsüdür. Başqa sözlə, Azərbaycan dövləti belə addımlarla ikitərəfli əməkdaşlığın humanitar gündəliyini genişləndirir", - deyə o əlavə edib.

Deputat bildirib ki, kontekst daxilində Azərbaycanın Ukraynanın mülki infrastrukturuna verdiyi dəstək də az əhəmiyyətli deyil. Enerji sisteminin zədələndiyi şəraitdə tibb müəssisələri də daxil olmaqla, həyati əhəmiyyətli obyektlərin fəaliyyətini təmin edən elektrik generatorlar və transformatorlar xüsusi rol oynayır. Ukraynanı bu avadanlıqla təmin etməklə Bakı nümayiş etdirir ki, onun humanitar siyasəti əhalinin konkret problemlərinin həllinə yönəlib.

K.Bayramov vurğulayıb ki, Bakı və Kiyevin minatəmizləmə və müharibədən sonrakı bərpa sahəsində əməkdaşlıq potensialı da ayrıca diqqətəlayiqdir: "Ölkəmizin topladığı təcrübə və Ukraynanın qarşısında duran vəzifələrin miqyası nəzərə alınarsa, bu istiqamətlər ikitərəfli qarşılıqlı fəaliyyətin növbəti elementi ola bilər. Sadalananlara əsaslanaraq əminliklə demək olar ki, ikitərəfli əməkdaşlığın inkişafı baxımından humanitar ölçü dominantlıq təşkil edir. Bu da tamamilə təbiidir, çünki uzunmüddətli tərəfdaşlığın əsası insan potensialının dəstəklənməsi və inkişafı vasitəsilə qoyulur. İki ölkə arasındakı münasibətlərdən danışarkən ikitərəfli iqtisadi əlaqələri, xüsusən də enerji sahəsindəki əməkdaşlığı qeyd etməmək olmur. Belə ki, Ukraynada fəaliyyət göstərən SOCAR yanacaqdoldurma məntəqələri iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verir. Dövlətlərarası münasibətlərin siyasi tərəfinə gəldikdə isə, o, təmkinliliyi və ardıcıllığı ilə seçilir".

Deputat qeyd edib ki, Bakı öz xarici siyasətini milli maraqlardan çıxış edərək qurur və konfrontasiya ssenarilərinə cəlb olunmasına imkan vermir. Azərbaycan tərəfinin prinsipial mövqeyi beynəlxalq hüquq normaları çərçivəsində bütün dövlətlərin suverenliyini və ərazi bütövlüyünü dəstəkləməkdən ibarətdir.

Bununla yanaşı, qeyd etmək vacibdir ki, Azərbaycan Rusiya-Ukrayna münaqişəsində hərbi komponentdən uzaq duraraq, ziddiyyətlərin güc yolu ilə deyil, dialoq vasitəsilə həllinin tərəfdarı kimi çıxış edir ki, bu da hər iki tərəfin etimadını qorumağa imkan verir. "Bu baxımdan Azərbaycan tərəfinin Rusiya-Ukrayna danışıqları üçün öz platformasını təqdim etməyə dəfələrlə hazır olduğunu bildirməsi diqqət çəkir. Belə ki, 2025-ci ilin iyulunda Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Almaniyanın "Berliner Zeitung" nəşrinə müsahibəsində tərəflərin marağı olacağı təqdirdə Bakının Moskva və Kiyev arasında sülh danışıqlarının aparılması üçün hər bir şəraiti yaratmağa hazır olduğunu bəyan etmişdi. Vurğulamaq lazımdır ki, Azərbaycanın beynəlxalq danışıqlara evsahibliyi etmək sahəsində zəngin təcrübəsi var: məhz Azərbaycan paytaxtında Moskva və Vaşinqton, Rusiya və NATO, Türkiyə və İsrail, eləcə də Suriya və İsrail tərəflərinin nümayəndələrinin görüşləri keçirilib", - deyə o əlavə edib.

Deputat bildirib ki, Ukrayna Prezidenti Volodimir Zelenskinin ölkəmizə işgüzar səfəri çərçivəsində Qəbələdə Prezident İlham Əliyevlə mətbuat qarşısında çıxışı zamanı Rusiya ilə danışıqların növbəti raundunun Azərbaycan ərazisində keçirilməsi barədə təklifi də bu məntiqi silsiləni tamamlayır. Beləliklə, müxtəlif güc mərkəzləri ilə eyni vaxtda əlaqələri inkişaf etdirmək bacarığı Azərbaycanın təkcə diplomatik potensialını gücləndirmir, həm də digər ölkələrlə qarşılıqlı hörmətə əsaslanan münasibətlərin təməl sütunlarından biri rolunu oynayır ki, bu da Ukrayna nümunəsində aydın şəkildə görünür.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *QMİ:* "Eçmiədzin kilsəsinin bəyanatı düşmənçiliyin və dezinformasiyanın təzahürüdür"

**"Azərbaycanın Xankəndi şəhərində iki qanunsuz tikilinin sökülməsi ilə bağlı Eçmiədzin kilsəsinin 23 aprel tarixli bəyanatı düşmənçiliyin və dezinformasiyanın bir təzahürüdür". AZƏRTAC xəbər verir ki, bu fikir Eçmiədzin kilsəsinin iddialarına dair Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bəyanatında yer alıb.**

QMİ-nin bəyanatında bildirilib ki, Azərbaycanın tarixi, dini və mədəni abidələrinin işğal zamanı onilliklər boyu dağıdılmasına və təhqir edilməsinə səssiz qalan Eçmiədzinin hazırda iki ölkə arasında normallaşma prosesi gedən bir həssas dövrdə Azərbaycana qarşı əsassız ittihamlarla çıxış etməsi məsələnin siyasiləşdirilməsinə atılan bir uğursuz cəhddir.

"Azərbaycan ərazilərinin işğalı zamanı Xankəndidə qanunsuz inşa edilmiş iki tikilinin sökülməsi heç bir halda dini və ya mədəni irsin məhv edilməsi kimi təhrif edilə bilməz. Belə ki, 2023-cü ildə Azərbaycan öz əraziləri üzərində dövlət suverenliyini tam bərpa etdikdən sonra işğalın simvolları olan bu qanunsuz tikililəri bütün bu müddət ərzində mövcud vəziyyətdə saxlamışdır. Bununla belə son aylar ərzində öz doğma yurdlarına kütləvi şəkildə qayıdan keçmiş məcburi köçkünlər işğal dövründən əvvəl bu ərazilərdə mövcud olmayan bütün tikililərin sökülməsinə dair dəfələlərlə dövlət orqanlarına və yerli məhkəmələrə müraciət etmişlər. Məlumdur ki, beynəlxalq humanitar hüquqa əsasən, işğalçı dövlət tərəfindən işğal edilmiş ərazidə razılıq olmadan inşa edilmiş tikililər təyinatından asılı olmayaraq qanunsuz hesab olunur və bir qayda olaraq işğalçı dövlətin hesabına sökülməlidir. Məhz bu səbəbdən Birinci Qarabağ müharibəsi zamanı azərbaycanlıların qətlə yetirildiyi və qovulduğu bu ərazilərdə sonradan qanunsuz inşa edilmiş bütün tikililərin sökülməsinə həm hüquqi, həm də mənəvi əsas vardır.

Qeyd etmək lazımdır ki, Azərbaycan məscidlərin, kilsələrin və sinaqoqların yan-yana yerləşdiyi nadir ölkələrdən biridir ki, bu da xalqımızın dərin köklərə malik dini tolerantlıq mədəniyyətini və bütün dinlərə hörmətini nümayiş etdirir. Əsrlər boyu Azərbaycanda pravoslav, katolik və yəhudi icmaları da daxil olmaqla, müxtəlif dinlərə məxsus ibadət yerləri və icmalar sərbəst fəaliyyət göstərib. Bu gün də bu ənənəyə sadiq qalaraq Azərbaycan dövləti işğal dövründə dağıdılmış və təhqirə məruz qoyulmuş dini və mədəni abidələri öz hesabına bərpa edir. Bunların sırasında Şuşada yerləşən (erməni) Qazançı kilsəsinin yenicə bərpa edilməsini, habelə bütün münaqişə boyunca Bakıda yerləşən erməni kilsəsinin dövlət tərəfindən mühafizə edilməsini xüsusilə vurğulamaq lazımdır. Ümumilikdə, ölkə ərazisində müxtəlif konfessiyalara məxsus olan ibadət yerlərinin davamlı şəkildə qorunub saxlanılması, onların bərpa edilməsi və mühafizəsi hər zaman dövlətimizin və cəmiyyətimizin dini plüralizmə hörmətini bariz şəkildə nümayiş etdirib", - deyə QMİ-nin bəyanatında vurğulanıb.

Həmçinin qeyd olunub ki, Azərbaycanda əsrlər boyu mövcud olan bu reallığı Eçmiədzin tərəfindən belə bir həssas dövrdə təhrif etmək cəhdləri yalnız regionda davamlı sülhə yönəlmiş səyləri sarsıtmağa xidmət edir. Keçmişdən qalan siyasi təxribatlara əl atmaq təcrübəsinə və bölgədə qalıcı sülhün bərqərar olmasının qarşısının alınmasına yönəlmiş bu kimi cəhdlərə birdəfəlik son qoyulmalıdır.

# Erməni revanşistlərinin bayraq vandalizmi

## Cənubi Qafqazın gələcəyi yandırılan bayraqlarda yox, yaradılan sülhdədir

**Cənubi Qafqazda yeni siyasi mərhələnin başladığı, uzun illər davam edən qarşıdurmadan sonra bölgədə sülh və əməkdaşlıq üçün real imkanların yarandığı vaxtda Ermənistanda baş verən son hadisələr bir daha göstərdi ki, keçmişin kabusları ilə yaşayan revanşist qüvvələr hələ də meydandadır.**



İrəvanda keçirilən ənənəvi məşəl yürüşü zamanı Azərbaycan və Türkiyə bayraqlarının yandırılması, sadəcə, küçə radikalizmi deyil, düşünülmüş siyasi mesaj, nifrət üzərindən gündəm qurmaq istəyən dairələrin növbəti təxribatıdır. Bu addım ilk növbədə Ermənistan cəmiyyətinin gələcəyinə vurulan zərbədir. Çünki bayraq yandırmağı heç vaxt güc nümayişi hesab etmək olmaz. Çünki bu, aciz davranışın, məğlubiyyət psixologiyasının və sərsəm düşüncənin təcəssümüdür.

Bu gün Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması, sülh sazişi istiqamətində danışıqların davam etdiyi həssas bir mərhələdə belə aksiyaların meydana çıxmasını təsadüfi hadisə hesab etmək olmaz. Aydındır ki, Ermənistandakı müəyyən qüvvələr regionda etimad mühitinin formalaşmasını istəmir, düşmənçilik psixologiyasının qorunub saxlanmasına çalışırlar. Onlar anlayırlar ki, sülh bərqərar olarsa, revanşizm ideologiyası da iflasa uğrayacaq. Buna görə də küçə şouları, simvolik təhqirlər və nifrət çağırışları ilə gündəm yaratmağa cəhd göstərirlər.

İrəvandakı bu hadisənin əsas təşkilatçıları sırasında yenə radikal millətçi dairələrin, xüsusilə "Daşnaksütyun" xəttinə bağlı qrupların adı çəkilir. Tarixboyu xarici qüvvələrin əlində alətə çevrilən, region xalqları arasında düşmənçilik toxumu səpən bu siyasi düşüncə bu gün də Ermənistanın inkişafına mane olan əsas əngəllərdən biridir. Ermənistan rəhbərliyinin Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılması istiqamətində müəyyən addımlar atdığı bir vaxtda məhz bu qüvvələrin fəallaşması çox mətləbdən xəbər verir.

Azərbaycan Xarici İşlər Nazirliyinin baş verən hadisə ilə bağlı yaydığı bəyanatda deyilir: "Ermənistan hökuməti etnik zəmində kök salmış nifrətin təcəssümü olan bu kimi kampaniyanın qarşısını vaxtında almalı və müvafiq təhlükəsizlik tədbirləri görməli idi". Bəyanatda həmçinin vurğulanır ki, bu cür hərəkətlərə sərbəst toplaşmaq və fikir azadlığı adı altında göz yumulması yolverilməzdir. Rəsmi Bakı bu təxribatı törədən şəxslərin məsuliyyətə cəlb olunmasını tələb edib.

Əslində, Azərbaycanın mövqeyi dəyişməzdir - regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq. Son illər Bakı bunun üçün konkret addımlar atıb. Sərhədlərin delimitasiyası üzrə danışıqların aparılması, kommunikasiyaların açılması təşəbbüsləri, qarşılıqlı ərazi bütövlüyünün tanınmasına dair prinsipial mövqe, sülh sazişi layihəsinin təqdim olunması Azərbaycanın xoş niyyətinin real sübutlarıdır. Rəsmi Bakı dəfələrlə bəyan etmişdir ki, Cənubi Qafqaz qarşıdurma yox, əməkdaşlıq və tərəqqi məkanına çevrilməlidir.

Maraqlıdır ki, Ermənistanın Baş naziri Nikol Paşinyanın həmin gün yaydığı videomüraciətdə səsləndirdiyi fikirlər də bu reallığı dolayısı ilə təsdiqləyir. O bildirib ki, erməni xalqı gələcəkdə "Meds Yeğern" kimi hadisələrin təkrarlanmamasına nail olub və bunun səbəbi həmin faciənin beynəlxalq oyunçuların mübarizəsində alətə çevrilməsinə imkan verilməməsi anlayışıdır. N.Paşinyan etiraf edib ki, 1915-ci il hadisələri digər amillərlə yanaşı, erməni xalqının beynəlxalq intriqalara cəlb edilməsinin nəticəsi olub. Bu etiraf təsadüfi deyil. Çünki ilk dəfə Ermənistan rəhbərliyi tarixi mifologiyadan çıxaraq hadisələrə siyasi reallıq prizmasından yanaşmağa cəhd göstərib.

Baş nazirin digər fikirləri isə daha diqqətçəkicidir. O vurğulayıb ki, Ermənistanın təhlükəsizliyi və rifahı qonşularla tənzimlənmiş münasibətlərdən keçir. N.Paşinyanın sözləri ilə desək, "sülh və təhlükəsizlik ilk növbədə qonşularla tənzimlənmiş münasibətlər deməkdir və bu münasibətlər bir-birinin ərazi bütövlüyünü, suverenliyini, sərhədlərin toxunulmazlığını və siyasi müstəqilliyini tanımaq əsasında qurulmalıdır". Bu fikir, əslində, regionun gələcək inkişaf formuludur.

Əslinə qalsa, bunun özündə də ziddiyyətli bir məqam var: əgər Ermənistan rəhbərliyi bu həqiqəti anlayırsa, niyə paytaxtın mərkəzində nifrət aksiyalarına imkan verilir? Niyə sülh mesajları ilə eyni gündə bayraq yandırılması kimi vandal addımlar baş verir? Deməli, Ermənistan daxilində siyasi hakimiyyətlə revanşist küçə düşüncəsi arasında ciddi qarşıdurma hələ də qalmaqdadır.

Bayraq yandırmaqla nə tarix dəyişir, nə də geosiyasi reallıq. Əksinə, bu görüntülər Ermənistan daxilində hələ də keçmişin kölgəsində yaşayan, məğlubiyyəti və ədaləti qəbul etməyən, xalqını yeni uçuruma sürükləməyə çalışan qüvvələrin varlığını nümayiş etdirir. Halbuki bu gün Ermənistan üçün yeganə rasional yol qonşularla normal münasibətlər qurmaq, iqtisadi blokadadan çıxmaq, region layihələrinə qoşulmaq və öz xalqına rifah qazandırmaqdır.

Azərbaycan isə ədaləti bərpa etmiş dövlət kimi sülh siyasətini seçib. Bu, həm siyasi iradənin, həm də dövlət məsuliyyətinin göstəricisidir. Bakı regionda sabitlik istəyir, yolların açılmasını, ticarətin genişlənməsini, xalqlar arasında yeni münasibətlərin qurulmasını dəstəkləyir və bütün dünyaya bəyan edir ki, Cənubi Qafqazın gələcəyi yandırılan bayraqlarda deyil, açılan sərhədlərdə, salınan körpülərdə və qurulacaq əməkdaşlıqdadır. Kim bu həqiqəti anlamırsa, günah və problem onun özündədir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Avropa Azərbaycan Mərkəzi Nyu York merinin əsassız açıqlaması ilə bağlı bəyanat yayıb

**Almaniyada fəaliyyət göstərən Avropa Azərbaycan Mərkəzi Nyu York meri Zohran Kvame Mamdaninin "X" platformasında 1915-ci il qondarma erməni soyqırımı, həmçinin 2020-2023-cü illərdə Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmək səyləri barədə səsləndirdiyi əsassız və qərəzli fikirlərlə bağlı bəyanat yayıb.**

Bu barədə AZƏRTAC-a Avropa Azərbaycan Mərkəzinin sədri, Almaniya Azərbaycanlıları Alyansının İdarə Heyətinin üzvü Zaur Əliyev məlumat verib.

Bəyanatda Z.Mamdaninin açıqlamasının təkcə siyasi qərəz nümunəsi deyil, həm də beynəlxalq hüququn fundamental prinsiplərinin kobud şəkildə təhrif edilməsi olduğu vurğulanaraq, dövlətlərin suveren bərabərliyinin, ərazi bütövlüyünün, daxili işlərə qarışmamaq və işğal nəticəsində yaradılmış qanunsuz vəziyyətlərin tanınmaması prinsiplərinin müasir beynəlxalq hüquq sisteminin əsas sütunları olduğu vurğulanıb. Bildirilib ki, bu hüquqi reallıq fonunda Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərində suverenliyini və konstitusiya quruluşunu bərpa etməsini "hücum", "qovulma" və ya "soyqırımı kampaniyası" kimi təqdim etmək hüquqi savadsızlıq, siyasi manipulyasiya və beynəlxalq hüquq terminologiyasından sui-istifadədir. Azərbaycan dövləti 2020-ci ildə və 2023-cü ildə başqa bir dövlətin ərazisində deyil, məhz öz suveren ərazisində hərəkət etmişdir. Həmçinin Azərbaycan dövlətinin bu addımlarının BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə də uyğun olduğu qeyd edilib.

Bəyanatda həmçinin vurğulanıb ki, Qarabağ bölgəsində yaşayan erməniəsilli əhaliyə reinteqrasiya və bərabər hüquqlar təklif edilib, mülki şəxslərə qarşı etnik əsaslı hər hansı zorakılıq faktı qeydə alınmayıb. Bununla yanaşı, Xocalı faciəsi, Ermənistanın işğalı nəticəsində azərbaycanlıların məcburi köçkün düşməsi və bölgədə törədilmiş dağıntılar xatırladılaraq, bu faktlara selektiv yanaşmanın yolverilməz olduğu qeyd edilib. Z.Mamdaninin açıqlamasının regionda sülh prosesinə mənfi təsir göstərdiyi, revanşist meyilləri gücləndirdiyi bildirilib və onun geri götürülməsini tələb edilib.

"Zohran Kvame Mamdaninin açıqlaması beynəlxalq hüquqa zidd məzmun daşıyan, siyasi baxımdan təhlükəli, diplomatik baxımdan məsuliyyətsiz və mənəvi baxımdan ədalətsiz bir bəyanatdır. Biz bu bəyanatın dərhal geri götürülməsini, Azərbaycan xalqına qarşı səsləndirilmiş əsassız ittihamlara görə üzr istənilməsini və gələcəkdə bu kimi məsələlərdə BMT Nizamnaməsinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, beynəlxalq hüququn ümumi prinsiplərinə və tarixi faktlara əsaslanan mövqe sərgilənməsini tələb edirik. Cənubi Qafqazda davamlı sülh yalnız dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, beynəlxalq öhdəliklərə vicdanla əməl edilməsi və xalqlar arasında barışıq prinsipləri əsasında mümkündür. Bu prinsipləri təhrif edən hər bir bəyanat sülhə deyil, qarşıdurmaya xidmət edir", - deyə Avropa Azərbaycan Mərkəzinin bəyanatında bildirilib.

# *Oljas Süleymenov - 90:* Antinüvə hərəkatının səsinə çevrilən yazıçı

**Oljas Süleymenov müasir Qazaxıstan tarixinin ən nüfuzlu şəxsiyyətlərindən biridir. Onun həyat və yaradıcılığı ədəbiyyatdan kənara çıxaraq siyasi və sosial aktivizmə qədər uzanır.**



Oljas Süleymenov 1936-cı ildə Almatıda anadan olub. Ötən əsrin ikinci yarısında mədəni xadim və mənəvi nüfuz sahibi olaraq nüvə sınaqlarına qarşı müqavimətin qlobal simvoluna çevrilib. Onun şəxsiyyətinin miqyasını anlamaq üçün əvvəlcə bir vaxtlar Qazaxıstan çölündə baş verən faciənin miqyasını dərk etmək lazımdır. Qazaxıstanın şimal-şərqində - Semey (keçmiş Semipalatinsk) şəhərinin yaxınlığında yerləşən nüvə sınaq poliqonu keçmiş Sovet İttifaqının ən gizli hərbi obyektlərindən biri idi. 18 min kvadratkilometrdən çox sahəni əhatə edən bu ərazi 40 il ərzində SSRİ-nin əsas nüvə silahının sınaq sahəsi olub. 1949-cu ildən 1989-cu ilə qədər orada atmosfer, yerüstü və yeraltı partlayışlar da daxil olmaqla 450-dən çox nüvə sınağı aparılıb. Yaxınlıqdakı kəndlərin sakinlərinə isə çox vaxt sınaqlar barədə heç bir xəbərdarlıq edilmirdi.

Sovet dövrünün sonuna qədər bu sınaqların nəticələri o qədər geniş yayılmışdı ki, artıq onları görməzdən gəlmək və ya gizlətmək mümkün deyildi. İnsanlar radiasiya ilə çirklənmiş su içirdilər və nəticədə getdikcə daha çox xərçəng xəstəliyinə tutulurdular. Belə bir vaxtda - 1989-cu ildə Oljas Süleymenov "Nevada-Semipalatinsk" hərəkatının yaradılması təşəbbüsünü irəli sürərək ictimai narahatlığı mütəşəkkil bir hərəkata çevirdi. Bu təşəbbüs Qazaxıstandakı faciəni simvolik olaraq dünyanın digər böyük nüvə sınaq mərkəzi olan ABŞ-nin Nevada ştatı ilə əlaqələndirdi.

Hərəkat tezliklə sovet dövrünün sonlarında ən əhəmiyyətli vətəndaş nümayişlərindən birinə çevrildi. O, yazıçıları, alimləri, həkimləri, fəhlələri və radiasiyadan təsirlənən bölgələrin sakinlərini birləşdirdi. O.Süleymenovun görkəmli tərəfdarları arasında Keşirim Boztayev, Muxtar Şahanov, Saqadat Nurmaqambetov, Saim Balmuxanov və Baxiya Atçabarov var idi.

29 avqust nüvə tərk-silahı tarixində xüsusi yer tutur. 1991-ci ilin həmin günündə Semipalatinsk sınaq poliqonu rəsmi olaraq bağlanmış və bu, dünyanın ən böyük və ən dağıdıcı nüvə sınaq proqramlarından birinin sona çatması olmuşdur. Daha sonra bu tarixin qlobal əhəmiyyətini qəbul edən BMT Baş Assambleyası 29 avqustu Beynəlxalq nüvə sınaqlarına qarşı gün elan etmişdir. Bundan sonra O.Süleymenov beynəlxalq dairələrdə antinüvə hərəkatındakı roluna görə Nobel mükafatına mümkün namizəd kimi xatırlandı, lakin o, buna razılıq vermədi.

Oljas Süleymenov ictimai fəaliyyəti ilə yanaşı, əhəmiyyətli bir ədəbi irs yaradıb. Onun ən məşhur və eyni zamanda ən mübahisəli əsəri olan "Az i Ya" dilin və qədim mətnlərin təhlili yolu ilə slavyan və türk tarixinə yeni bir baxış təklif edib. "Az i Ya" mənim ağlıma gələn bir başlıqdır. Bu, kəşflər kitabıdır. Bir çox slavyan və türk alimi "İqorun yürüşü haqqında nağıl"ı yenidən oxumağa başlayıb", - deyə şair bildirib. 1975-ci ildə nəşr olunan kitab akademik və ictimai-siyasi dairələrdə geniş təbliğata və canlı müzakirələrə, tənqidçilər və tərəfdarlar arasında fikir ayrılığına səbəb olub.

2001-ci ildən 2014-cü ilə qədər Oljas Süleymenov Qazaxıstanı UNESCO-da daimi nümayəndə kimi təmsil edib və mədəni diplomatiya, beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirib.

Onun şeirləri və nəsri ingilis, fransız, alman, ispan, türk və digər dillər də daxil olmaqla bir çox dilə tərcümə olunub ki, bu da beynəlxalq aləmdə ona şöhrət qazandırıb. Hazırda Almatıda yaşayan şair, yazıçı-ədəbiyyatşünas, ictimai-siyasi xadim, türkşünas-alim və səfir Oljas Süleymenovun may ayında 90 yaşı tamam olacaq. Onun 90 illik həyatı təkcə Qazaxıstanın mədəni kimliyinə deyil, həm də nüvə dövrünün ən əhəmiyyətli vətəndaş hərəkatlarından birinə təsir edib. Onun irsi ədəbiyyat və sosial fəallıqdan kənara çıxır. Bu, sözlərin necə hərəkətə çevrilə biləcəyi və ideyaların cəmiyyətin dəstəyi ilə tarixin gedişini necə dəyişdirə biləcəyi haqqında bir hekayədir.

Oljas Süleymenov dünyanın 22 mütəfəkkiri sırasına daxil edilib. Nyu York Universitetinin məlumatına görə, onun adı tanınmış müəlliflər Pyotr Dutkiyeviç və Riçard Sakvanın kitabında mülahizələri dərc olunmuş 22 görkəmli mütəfəkkir arasındadır. 19 ölkədən tanınmış siyasətçilərin, iqtisadçıların və ictimai xadimlərin mülahizələrini özündə cəmləşdirən "Dünyanı dəyişdirəcək 22 ideya: görkəmli mütəfəkkirlərlə söhbətlər" kitabı 2013-cü ilin avqust ayında nəşr olunub. Toplu "Sivilizasiyaların dialoqu" Dünya İctimai Forumunun bir hissəsi olaraq yaradılıb. Ekspertlərin müzakirə etdiyi əsas mövzulardan biri 2008-ci il qlobal iqtisadi böhranının nəticələri olub. Oljas Süleymenov Şanxay Universitetinin prezidenti Ceymi Yanqla birlikdə multikulturalizm məsələsini qlobal miqyasda qaldırıb. Mütəfəkkirlərin qeyd etdiyi kimi, müstəmləkəçilik dövrü çoxdan geridə qalıb və indi dünya birliyinin 200 ölkəsindən hər biri siyasətə öz töhfəsini verməyə çalışır.

Azərbaycanın böyük dostu Oljas Süleymenov 20 Yanvar faciəsi zamanı xalqımıza dəstəyini açıq ifadə etmiş, SSRİ rəhbərliyinə qarşı etiraz səsini ucaltmış, Bakıya sovet qoşunlarının yeridilməsinə kəskin etirazını bildirmişdir. 2016-cı il aprelin 25-də AMEA Elmi Şurasının qərarı ilə xalqlar arasındakı dostluğun möhkəmləndirilməsində əvəzsiz xidmətlərinə görə Nizami adına Ədəbiyyat İnstitutunun fəxri doktoru adına layiq görülmüş Oljas Süleymenov Azərbaycanın "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif olunmuşdur.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## Ötən həftənin iqtisadi icmalı

# Rəsmi görüşlər, biznes-forumlar, işgüzar müzakirələr

**Ötən həftə regionda və ölkə daxilində iqtisadi, nəqliyyat, enerji və beynəlxalq əməkdaşlıq sahələrində bir sıra mühüm hadisələr baş verib. Bu hadisələr Azərbaycanın regional və qlobal miqyasda mövqeyinin gücləndirilməsi, yeni tərəfdaşlıqların qurulması, eləcə də iqtisadi inkişafın sürətləndirilməsi baxımından diqqət çəkir.**

Həftə boyunca ölkəmizdə biznes sahəsində baş verən bir sıra mühüm təşəbbüslər diqqət mərkəzində olub. Bu təşəbbüslər arasında beynəlxalq səviyyədə tanınan brendlərin dəstəklənməsi və biznes platformalarının genişləndirilməsi mühüm yer tutub. Belə ki, "Brand Award International 2026" qlobal müsabiqəsinin yeni mərhələsinə start verilib. Müsabiqənin təşkilatçısı "Award Organizers Group" olub və "Caspian Energy Club" ilə Azərbaycan Milli Biznes Assosiasiyasının dəstəyi ilə həyata keçirilib. Tədbirin əsas məqsədi müxtəlif regionlardan olan ticarət markalarını bir platformada birləşdirərək, onların beynəlxalq səviyyədə tanıdılmasına xidmət etməkdir.

❖ ❖ ❖

Həftəboyu baş verən mühüm hadisələr sırasında Azərbaycandan Ermənistana dizel yanacağının ixracı da yer alıb. Ermənistana 16 vaqon həcmində (974 ton) dizel yanacağı göndərilib. Ümumilikdə isə indiyədək Azərbaycandan bu ölkəyə 7610 ton dizel yanacağı, 979 ton Aİ-92 markalı benzin və 2955 ton Aİ-95 markalı benzin ixrac olunub.

Bu tədarüklər enerji sahəsində qarşılıqlı əməkdaşlığın inkişaf etdiyini göstərməklə yanaşı, regionda iqtisadi əlaqələrin möhkəmlənməsinə də töhfə verir. Enerji resurslarının ixracı ölkələr arasında etibarlı tərəfdaşlığın formalaşmasında, ticarət dövriyyəsinin artmasında və logistika imkanlarının genişlənməsində mühüm rol oynayır. Bu cür addımlar regional sabitliyin və iqtisadi inteqrasiyanın gücləndirilməsi baxımından da əhəmiyyətli hesab olunur.

❖ ❖ ❖

Ötən günlər Bakı enerji sahəsində mühüm beynəlxalq tədbirə evsahibliyi edərək, regionun strateji əhəmiyyətini yenidən ön plana çıxarıb. "Xəzər və Mərkəzi Asiya regionlarında neft ticarəti və logistika" adlı ikigünlük forumda iştirakçılar enerji sahəsinin ən aktual mövzularını müzakirə ediblər. Forum çərçivəsində enerji marşrutlarının şaxələndirilməsi, nəqliyyat infrastrukturunun modernləşdirilməsi və bazar risklərinin idarə olunması kimi məsələlər gündəmdə yer alıb.

Ekspertlər vurğulayıblar ki, regionun strateji əhəmiyyəti yalnız karbohidrogen ehtiyatları ilə ölçülmür. Buradakı logistika və ticarət imkanları qlobal enerji təhlükəsizliyinə də birbaşa təsir göstərir. Forum iştirakçıları məsələ ətrafında fikir mübadiləsi apararaq, regional əməkdaşlığın genişləndirilməsi və yeni layihələrin icrası istiqamətində perspektivləri müzakirə ediblər.

❖ ❖ ❖

Ötən həftə Azərbaycana iki ölkənin dövlət başçısı - Latviya və Ukrayna prezidentləri səfər ediblər. Prezidentlərin bir neçə gün fərqlə ölkəmizə səfəri həm iqtisadi, həm də regionda əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və yeni tərəfdaşlıqların qurulması baxımından mühüm əhəmiyyət kəsb edir. Keçirilən görüşlər ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafına əlavə təkan verib.

Bu baxımdan aprelin 22-də Latviya Prezidentinin Azərbaycana səfəri çərçivəsində keçirilən Azərbaycan-Latviya biznes-forumu həftənin önəmli hadisəsi kimi yadda qalıb. Forumda kənd təsərrüfatı, investisiya, ticarət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi müzakirə olunub, bir sıra sənədlər, o cümlədən Anlaşma memorandumları imzalanıb. Tədbir iki ölkə arasında iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edib.

Ardınca həftənin şənbə günü regionun diplomatik gündəmi daha da fəallaşıb və növbəti mühüm səfər diqqət mərkəzində olub. Həmin gün Ukrayna Prezidenti Volodimir Zelenskinin Azərbaycana səfəri baş tutub. Qəbələdə keçirilən görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyev ilə aparılan müzakirələrdə enerji, kənd təsərrüfatı və humanitar sahələrdə əməkdaşlıq perspektivləri diqqət mərkəzində olub, Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstək yüksək qiymətləndirilib.

❖ ❖ ❖

Dünya birjalarında neftin qiymətinin bahalaşması davam edib. Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir bareli 2,09 dollar artaraq 107,42 dollara yüksəlib. Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında isə "Light" markalı neftin bir bareli 1,72 dollar qalxaraq 96,12 dollar səviyyəsinə çatıb.

ABŞ və İran arasında sülh danışıqlarının dayanması, həmçinin neftin bahalaşmasının inflyasiya və faiz dərəcələri ilə bağlı narahatlıqların artması fonunda isə qızılın qiymətində azalma tendensiyası müşahidə edilib. Ardıcıl olaraq dördhəftəlik artım dövründən sonra qızılın qiyməti ötən həftənin əvvəlindən bəri təxminən 3 faiz dəyər itirib. Hazırda bir troya unsiya qızılın qiyməti 4600 dollar səviyyəsindədir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## İdman

# Güləş üzrə Avropa çempionatı başa çatıb

### Azərbaycan həm yunan-Roma, həm də sərbəst güləş üzrə komanda hesabında qalib olub

**Albaniyanın paytaxtı Tiranada keçirilən güləş üzrə Avropa çempionatının son günündə 5 sərbəst güləşçimiz döşək üzərinə çıxıb. Onlardan 4-ü qızıl medal uğrunda mübarizə aparıb.**




92 kiloqpam çəki dərəcəsində Əli Tsokayev Əhməd Batayevi (Bolqarıstan) 5-3 hesabı ilə məğlubiyyətə uğradaraq qızıl medala sahiblənib. 2025-ci il qitə çempionu Giorgi Meşvildişvili (125 kq) də Vladislav Baytsayevi (Macarıstan) 8-0 hesabı ilə inamla məğlub edərək qızıl medal qazanıb və ikiqat Avropa çempionu olub. 74 kiloqpam çəki dərəcəsində Turan Bayramov isə həlledici görüşdə Teymuraz Salkazanova (Slovakiya) 2-4 hesabı ilə uduzaraq gümüş medalla kifayətlənib. Arseni Cioyev (86 kq) də İbrahim Kadiyevə (UWW) 1-2 hesabı ilə məğlub olub və gümüş medal qazanıb. Xatırladaq ki, sərbəst güləşdə komandamıza ilk qızılı bir gün öncə İslam Bazarqanov qazandırmışdır.

Beləliklə, 3 qızıl, 2 gümüş və 1 bürünc medal qazanan komandamız 152 xal toplayaraq 6-cı dəfə Avropa çempionu adını özündə saxlayıb. Millimiz 2-ci yeri tutan Gürcüstanı 58 xal qabaqlayıb. Ermənistan isə 73 xalla üçüncü olub.

Azərbaycan sərbəst güləş yığmasının baş məşqçisi Xetaq Qazyumov komandanın qazandığı nəticəni belə şərh edib: "Əlbəttə ki, çox məmnunuq, çünki komanda hesabında birinci olmaq hamımız və ölkə üçün çox vacibdir. Bununla belə daha çox şey edə bilərdik".

Güləşçilərimizin AVRO-2026-da ümumi medal sayı 13-dür (5 qızıl, 2 gümüş və 6 bürünc). Azərbaycan 2022-ci və 2025-ci illərdə olduğu kimi, həm yunan-Roma, həm də sərbəst güləş üzrə komanda hesabında Avropa çempionu olaraq qızıl dubla imza atıb.

Yunan-Roma güləşçiləri Həsrət Cəfərov (67 kq) və Qurban Qurbanov (82 kq) çempion, Rəşad Məmmədov (55 kq), Nihat Məmmədli (60 kq) və İslam Abbasov (87 kq) isə bürünc medal qazanıblar.

Qadın güləşində Jalə Əliyeva (57 kq) və Günay Qurbanova (59 kq) bürünc medala yiyələniblər.

Sərbəst güləşdə İslam Bazarqanov (57 kq), Əli Tsokayev (92 kq) və Giorgi Meşvildişvili (125 kq) çempion olublar. Turan Bayramov (74 kq), Arseni Cioyev (86 kq) gümüş mükafat əldə ediblər. Cəbrayıl Hacıyev (79 kq) isə üçüncü yeri tutaraq bürünc medal qazanıb.

# Azərbaycan boksçuları Dünya kubokunda 3 qızıl medal qazanıblar

### Millimiz komanda hesabında yalnız bir medal fərqi ilə rinq sahiblərindən geri qalıb

**Braziliyanın Fos-du-İquasu şəhərində boks üzrə keçirilən Dünya kuboku yarışları başa çatıb. Boks Federasiyasından aldığımız məlumata görə, 49 ölkədən 400 idmançının qatıldığı yarışda Azərbaycan millisi tarixi nəticəyə imza atıb. Komanda Dünya kubokunda ilk dəfə 3 qızıl və 1 bürünc medal qazanıb.**

Finalda Sübhan Məmmədov (50 kiloqram) İssam Bensayarla (Mərakeş) döyüşüb. Hər 3 raundu xeyrinə bitirən boksçumuz yekunda 5:0 (30:27, 30:27, 29:28, 29:28, 30:27) hesabı ilə qələbə qazanıb və qızıl medala yiyələnib.

Onun ardınca Məhəmməd Abdullayev (+90 kiloqram) də fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, həlledici görüşdə Davit Çaloyana (Ermənistan) gücünü göstərib. Rəqibini 3:2 (29:28, 28:29, 28:29, 29:28, 29:28) hesabı ilə məğlub edən M.Abdullayev komandamızın üçüncü qızıl medalını rəsmiləşdirib və Braziliyada üçüncü dəfə Azərbaycan himnini səsləndirib.

Millinin heyətində final mərhələsinin ilk sessiyasında Səidcəmşid Cəfərov (75 kiloqram) Dünya kubokunun qalibi olub. Boksçumuz Tauan Silva (Braziliya) ilə gücünü yoxlayıb. Hər 3 raundu aktivinə yazan S.Cəfərov yekunda 5:0 (30:27, 30:27, 30:27, 29:28, 30:27) hesabı ilə qalib gələrək Dünya kubokunun qızıl medalına yiyələnib. Daha öncə isə Nəbi İsgəndərov (70 kiloqram) bürünc medala sahib çıxıb.

Beləliklə, 3 qızıl və 1 bürünc medal qazanan kişilərdən ibarət millimiz Dünya kuboku yarışlarını komanda hesabında ikinci yerdə başa vurub. Yarışa 6 kişi boksçu ilə qatılan yığmamızı ev sahibləri yalnız gümüş medal hesabında qabaqlayıblar.



***R.HİLALOĞLU,***
***"Azərbaycan"***

**Maşalla Xanverdi oğlu Abbasova məxsus 1990-cı il tarixli, 724221 nömrəli Əfqanıstan müharibəsi iştirakçısının vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqının sədri Hüseyn Kərimova əzizi

**EMİLİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyətinin üzvləri Memarlar İttifaqının Katibliyinin üzvü və Beynəlxalq əlaqələr üzrə komissiyasının sədri, memarlıq üzrə fəlsəfə doktoru, dosent Samira Abdullayevaya qardaşı

**HƏMZƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3722**
**Sifariş 537**

**Qiyməti 60 qəpik**